# Xalq qəzeti

Xalqın qəzeti!

№ 183 (30587) 27 avqust 2024-cü il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti


# Bakı–Daşkənd müttəfiqliyi Türk dünyası üçün böyük perspektiv açır

## Tarixi zəmin və gücün rifah naminə əməkdaşlıq trayektoriyası



**Qətiyyətlə deyə bilərik ki, Azərbaycan Prezidenti İlham Əliyevin Özbəkistana ötən həftə reallaşdırdığı dövlət səfəri hər iki ölkə xalqlarının həyatında tamamilə yeni bir səhifə açdı. Bu səhifəni şərtləndirən isə "Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Müqavilə"dir. Dövlətimizin başçısının təbirincə desək, rəsmən müttəfiqlik münasibətlərdə tarixi məqamdır.**

Onu da əminliklə deyə bilərik ki, Azərbaycan-Özbəkistan müttəfiqliyi fonunda, bütövlükdə, Türk dünyasının önündə parlaq səhifə açılmaqdadır. Sözügedən sazişin türk dünyasının konsolidasiyası baxımından müstəsna əhəmiyyəti var. 2021-ci il iyunun 15-də "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi"ndən sonra, belə demək mümkünsə, müttəfiqlik estafetini Özbəkistanın götürməsi isə təbii qanunauyğunluqdur. Azərbaycan və Özbəkistan liderlərinin apardıqları siyasətdəki qarşılıq inam və etimad mühiti bunu söyləməyə əsas verir. İnam və etimad ciddi amildir. Digər tərəfdən, nəzərə alaq ki, Azərbaycan – Özbəkistan müttəfiqliyi üçün əvvəlki illərin, hətta, nisbətən uzaq keçmişin bazası da mövcud idi.

*(ardı 8-ci səhifədə)*

# Ukraynada isteriya: anti-Azərbaycan motivləri

**Prezident İlham Əliyevin Ukraynanın milli bayramı – Müstəqillik Günü münasibəti ilə Prezident Volodimir Zelenskiyə ünvanladığı səmimi ruhlu təbrik məktubundan sonra belə düşünmək olardı ki, bu ölkənin media orqanlarında və sosial şəbəkə seqmentində başlanmış çirkin anti-Azərbaycan kampaniyası ara verəcək. Yəni, sözügedən kampaniyanın birdəfəlik dayanacağına ümid edirdik, hətta əmin idik də. Təəssüf ki, gözləntimiz özünü doğrultmadı. Çünki kampaniyaya start verənlərin, obrazlı desək, düymələri çox yuxarılardan basılıb.**




Ukraynada Azərbaycanın bu ölkə üçün hansı önəm daşıdığını bilməmiş deyillər. Heç şübhəsiz, haqsızlığın fərqindədirlər. Ancaq maskaların taxıb hərəkətə keçənlər öndədirlər. Görünür, düymələri basanlardan maskaları çıxarmaq əmri almayıblar və nalayiq hərəkətləri ilə durumu daha da dramatikləşdirmək yolunu tutur, sanki bütün "qırmızı cizgiləri" keçmək əzmini nümayiş etdirirlər. Nə deyək? Əllərindən gələni əsirgəməsinlər.

*(ardı 3-cü səhifədə)*

# "Teleqram"ın yaradıcısı Parisdə niyə saxlanıldı?



Səhifə ➩ 3



# Ermənilər Konqresdə növbəti təxribata hazırlaşırlar

Səhifə ➩ 4

# Rəcəb Tayyib Ərdoğan İlham Əliyevə təşəkkür etdi

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan meşə yanğınlarının söndürülməsində göstərilən dəstəyə görə Azərbaycan xalqına və Prezident İlham Əliyevə təşəkkürünü bildirib.**



Bitlis vilayətində çıxış edən Türkiyənin dövlət başçısının sözlərinə görə, Azərbaycanın lideri İlham Əliyev bir daha qardaşlıq örnəyi və "Bir millət, iki dövlət" kəlamına sədaqətini nümayiş etdirib.

Rəcəb Tayyib Ərdoğan deyib: "Qardaşım İlham Əliyev yalnız telefon danışığı ilə kifayətlənmədi, meşə yanğınlarının söndürülməsinə güclü dəstək olan amfibiya təyyarəsini ölkəmizə göndərdi. Azərbaycan həmişə Türkiyənin köməyinə gəlib, eyni zamanda, biz də çətin məqamlarda qardaş ölkəyə yardım edirik. Bu, gələcəkdə də davam edəcək".

O xatırladıb ki, bundan əvvəl Rusiya Prezidenti də analoji addım atıb və Türkiyədə meşə yanğınlarının söndürülməsinə kömək etmək üçün təyyarə göndərib. Ərdoğan qeyd edib: "Bu iki təyyarə sayəsində ölkəmizdə yanğınları daha sürətli templərlə söndürə bilirik".

# Muğam sənətinə yeni həyat bəxş edən Birinci xanım



**Məlum olduğu kimi, bütün zamanlarda parlaq simalar məhz milli-mənəvi və bəşəri dəyərlərin inkişafına layiqli töhfələr verməklə, mühüm ictimai təşəbbüsləri reallaşdırmaqla tanınıblar. Fəxrlə deyə bilərik ki, bəşəri ideyalar naminə çalışmaları ilə dünyada tanınan xoşməramlı şəxsiyyətlər arasında Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın adı xüsusi ehtiramla çəkilir.**

Mehriban xanım görkəmli siyasi xadim, yüksək təşkilatçı, bacarıqlı idarəçi, Ümummilli lider Heydər Əliyevin dövlətçilik kursunun fəal təmsilçilərindəndir! Ən əsası isə böyük vətənpərvərdir. Özünün əzmkar fəaliyyəti ilə milli-mənəvi dəyərlərin, qeyri-maddi irsin dünya miqyasında təbliği ilə ad-san qazanıb.

*(ardı 5-ci səhifədə)*

# Azərbaycandan Avropaya "mavi" dəhliz




Səhifə ➩ 7

# Vətən müharibəsinin fəlsəfəsi



Səhifə ➩ 8

# Birinci vitse-prezident Mehriban Əliyeva Heydər Əliyev Fondunun uşaqlar üçün təşkil etdiyi şənlikdə iştirak edib









**Avqustun 26-da Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva və Fondun vitse-prezidenti Leyla Əliyeva valideyn himayəsindən məhrum olmuş və xüsusi qayğıya ehtiyacı olan uşaqlar, həmçinin şəhid övladları üçün Fond tərəfindən keçirilən əyləncə və istirahət proqramında iştirak ediblər.**

Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva və Fondun vitse-prezidenti Leyla Əliyeva uşaqlarla söhbət edib, onların təşkil edilən bu şənliklə bağlı fikirləri ilə maraqlanıb, şəkillər çəkdiriblər. Uşaq evlərinin, Daun Sindromlu Uşaqların Reabilitasiya Mərkəzinin və inteqrasiya təlimli internat məktəbinin sakinləri təəssüratlarını bölüşüb, burada yeni dostlar qazandıqlarını söyləyib, iştirak etdikləri oyunlar, əyləndikləri attraksionlar barədə danışıblar.

Xəzərin sahilində yerləşən "Dalğa Beach" istirahət məkanında təşkil olunan tədbir çərçivəsində Birinci vitse-prezident Mehriban Əliyeva və Leyla Əliyeva uşaq evlərində və internat məktəblərində tərbiyə alan uşaqların əl işlərindən ibarət sərgi ilə də tanış olub, onlarla birgə rəsm çəkiblər. Uşaqlar çəkdikləri rəsm nümunələrini Mehriban xanım Əliyevaya hədiyyə ediblər. Tədbir zamanı Mehriban xanım Əliyeva bu gün doğum günlərini qeyd edən şəhid övladları və uşaq evinin sakinləri ilə də görüşüb, onları təbrik edib.

İnteqrasiya təlimli internat məktəbinin sakinləri təəssüratlarını AZƏRTAC-la bölüşüb, burada yeni dostlar qazandıqlarını söyləyiblər.

2 saylı uşaq evinin 9 yaşlı sakini Rəvanə Cümşüdova şənliyin çox maraqlı keçdiyini bildirərək deyib: "Bura çox maraqlıdır, çoxlu yeni dost qazandım. Hər kəsə təşəkkür edirəm".

1 saylı uşaq evinin sakini, 8 yaşlı Dinara İsgəndərova Lənkərandan Bakıya gəldiyini vurğulayaraq bildirib: "Şənliyə bacımla birlikdə qatılmışıq. Əziz və dəyərli Mehriban xanım, dəstəyiniz üçün təşəkkür edirik".

2 saylı uşaq evi sosial xidmət müəssisəsinin sakini Ayxan İbrahimov da təəssüratlarını bölüşərək qeyd edib: "Bu gün mənim üçün çox xoş oldu, uşaqlarla çox əyləndik. Təşkilatçılara minnətdarlığımı bildirmək istəyirəm. Mən 6-cı sinifdə oxuyuram. Böyüyəndə karate üzrə çempion, həmçinin idman müəllimi olmaq istəyirəm".

Əkiz qardaşlar - 8 yaşlı Behbud və Davud İsmayılzadələr yaxşı əyləndiklərini vurğulayıblar. Riyaziyyat və təsviri incəsənəti sevərək öyrəndiklərini deyən əkizlər burada maraqlı rəsmlər çəkdiklərini bildiriblər.

İsti yay günündə uşaqlar hovuzda doyunca əylənib, animatorların iştirakı ilə rəqs edib, rəsm, oyun, "Face Art" və səmərəli istirahətləri üçün ayrılmış digər zonalarda müxtəlif əyləncələrə qoşulub, bacarıqlarını nümayiş etdiriblər.

Uşaqlar birgə nahar süfrəsi arxasında növbəti sevincli anlar yaşayıblar.

Birinci xanım Mehriban Əliyeva bu gün doğum günü olan uşaqlar üçün tort kəsərək onlara təqdim edib.

Balacaların sevimli qəhrəmanlarını canlandıran personajlar şənlik iştirakçılarında unudulmaz həyəcan hissləri doğurub. Səhnəciklər, oynaq, şux mahnılar, rəqslər bayram tədbirini daha da rəngarəng edib.

Tədbirlərin yekununda unudulmaz istirahət günündən xatirə olaraq hər bir uşağa Heydər Əliyev Fondunun hədiyyələri təqdim edilib.

## Azərbaycanın birinci xanımı Mehriban Əliyeva Bibiheybət ziyarətgah kompleksini ziyarət edib



**Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva avqustun 26-da Bibiheybət ziyarətgah kompleksini ziyarət ediblər.**

VII əsrin yadigarı olan Bibiheybətdə Peyğəmbər nəslinin dörd nümayəndəsi uyuyur.

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri 2008-ci ildə Bibiheybət ziyarətgah kompleksinin əsaslı yenidənqurmadan sonra açılışında iştirak ediblər.

## Klassik avtomobillərin yürüşü və sərgisi



**Avqustun 25-də Azərbaycan Avtomobil Federasiyası, Bakı Şəhər Halqası Əməliyyat Şirkəti və "Dreamland Golf Club"un təşkilatçılığı, "Nazar Holding"in baş sponsorluğu ilə paytaxtda klassik avtomobillərin yürüşü və sərgisi keçirilib.**

Artıq ənənə halını alan yürüş qeydiyyatdan keçən klassik avtomobillərin, həmçinin Heydər Əliyev Mərkəzindəki daimi sərginin bəzi eksponatlarından ibarət nəqliyyat vasitələrinin Dənizkənarı Milli Parkda nümayişi ilə başlayıb.

Tədbirdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva, Azərbaycan Avtomobil Federasiyasının prezidenti Anar Ələkbərov, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov, digər tanınmış şəxslər və şəhər sakinləri iştirak ediblər.

Yürüşə 1984-cü ilədək istehsal olunan avtomobillər qatılıb. Onların arasındakı ən qədim nəqliyyat vasitəsi 1929-cu ildə istehsal edilən "Mercedes Benz Gazelle" də olub.

Dənizkənarı Milli Parkdan start götürən klassik avtomobillər şəhərin mərkəzi küçələri ilə yürüş edib. Bakının küçələrini bəzəyən retro nəqliyyat vasitələri şəhər sakinləri, paytaxtımızın qonaqları və klassik avtomobil həvəskarlarının adətən köhnə kinolentlərdə gördüyü kadrları real həyatda canlandırıb.




Klassik nəqliyyat vasitələri Dənizkənarı Bulvar - Neftçilər Prospekti - Ağ Şəhər - Heydər Əliyev Mərkəzi - Heydər Əliyev Prospekti - Hava limanı yolu - Zığ şosesindən keçməklə "Dreamland Golf Club"da finiş nöqtəsinə çatıblar.

Marşrutun sonunda "Dreamland Golf Club"da klassik avtomobillərin sərgisi keçirilib.

"Ən qədim avtomobil", "Ən unikal avtomobil" və "Ən rəngarəng geyim" nominasiyalarında qaliblər seçilərək mükafatlandırılıb.

Nominasiyalarla yanaşı qonaqlara tanınmış ifaçıların iştirakı ilə konsert və əyləncə proqramı da təqdim edilib.

**XQ**

# Ukraynada isteriya: anti-Azərbaycan motivləri

(əvvəli 1-ci səhifədə)

Aydındır ki, Rusiya Prezidenti Vladimir Putinin Azərbaycana səfəri Qərb dairələrinin "gözünə girib". Təsəvvür edin, Ukrayna ordusu Kursk istiqamətində uğurlar qazanır, bu fonda dünyada anti-Rusiya təmayülü güclənir, Moskvanın mövqelərini əldən verəcəyinə dair ənənəvi tezislərin pafosu tündləşir və bu an Kreml rəhbəri Bakıya gəlir. Əlbəttə, qıcıqlandırıcı durumdur.

Bəli, kimlərsə qıcıqlanıb və Ukraynanın ictimai sektorunu üstümüzə salıb. Bu sektorun fəaliyyəti isə ölkə mediası və ictimai rəyi adına son dərəcə miskin mənzərə formalaşdırır. Axı Ukraynada qabardılan anti-Azərbaycan tezislər bu ölkə xalqının mövqeyini əks etdirmir. Çünki Azərbaycan və Ukrayna xalqları həmişə bir-birinə isti və səmimi münasibətdə olublar. Bu münasibət illərlə qazanılan son dərəcə böyük nemətdir və zamanın sınaqlarından keçib. Ortada olan durum isə onu deməyə əsas verir ki, Ukrayna mediası və sosial şəbəkə seqmentinin ayrı-ayrı hissəcikləri bir andaca əldə edilmişlərin üzərindən xətt çəkməyə hazırdırlar. Miskin mənzərəni şərtləndirən də elə budur.

Hazırda bütün dünya Ukraynaya dəstəyə köklənib. Hər halda, belə bir görüntü var. Söhbət saxta görüntüdən gedir. Məgər hazırda Ukrayna xüsusunda ağzıköpüklü bəyanatlar sıralayan Qərb ölkələri Rusiyanın vacib xammalından imtina edirlər? Əlbəttə ki, yox. Bəlkə Avropaya rus ixracı dayandırılıb? Xeyr! Görəsən, Ukraynada hayların baş nazirinin həyat yoldaşına qucaq açılmış Ermənistanın son illərdəki iqtisadi inkişaf tempinin nəyin bahasına olduğunun fərqindədirlər? …Ermənistan Rusiyanın sanksiya altına düşmüş mallarının Avropaya daşınmasının qeyri-rəsmi tranziti ilə məşğuldur. Eləcə də əks istiqamətə daşımalarda həlledici rol oynayır. Nəticədə Ermənistanda, guya ki, demokratik olan quruluş xalqı xoşbəxt gələcəyə və tərəqqiyə aparır. Belə çıxır ki, Qərbin təəssübkeşliyi Ukraynanın şəhər və kəndlərinin viran olmasına, əhalisinin məhvinə, acınacaqlı duruma düşməsinə, Ermənistanın isə çiçəklənməsinə xidmət edir. Görəsən, niyə kimsənin səsi çıxmır? Səbəb sadədir: Düymə basılmayıb.

*

Bəli, Qərb aləmi hər fürsətdən anti-Azərbaycan kampaniyası aparmaq üçün "faydalanır". Həmişə belə olub. Təəssüf doğuran hal budur ki, Ukrayna ictimai rəyini formalaşdırmağa mükəlləf institutlar bu kampaniyada iştiraka razılıq verir, bütün dəyərləri tapdalamaq əzmlərini göstərirlər. Əslində, beləlilərinə nəyisə, nələrisə xatırlatmağın faydası yoxdur. Ancaq bir sıra məqamları açıqlamaq lazımdır ki, Ukrayna xalqının onlara müqaviməti yaransın. Bu yerdə Prezident İlham Əliyevin Prezident V.Zelenskiyə müstəqillik günü ilə əlaqədar təbrik məktubundan söz açaq. Daha doğrusu, sənədin məzmunundan.

"Azərbaycan ilə Ukraynanı zəngin ənənələrə malik dostluq əlaqələri birləşdirir. Tarixən bir-birinə dəstək olmuş xalqlarımızın iradəsi bu gün dövlətlərarası münasibətlərimizin təməlini təşkil edir. Ölkələrimiz arasında qarşılıqlı etimad və dəstəyə əsaslanan münasibətlərin bugünkü səviyyəsi, bir sıra sahələrdə, xüsusilə də enerji sahəsində səmərəli əməkdaşlığımız məmnunluq doğurur" kimi fikirlərin yer aldığı məktubda ölkəmizin dost Ukrayna xalqına bundan sonra da lazımi humanitar dəstək və yardım göstərmək üçün hər cür səy göstərmək niyyəti ifadə olunub: "Əminəm ki, Azərbaycan-Ukrayna dostluğunun və etibarlı tərəfdaşlığının möhkəmləndirilməsi, əməkdaşlığımızın genişləndirilməsi yolunda birgə səylərimiz bundan sonra da uğurla davam etdiriləcəkdir".

Göründüyü kimi, dövlətimizin başçısının fikirləri son dövrlərin gərginlik ab-havasını aradan qaldırmağa köklənib. Məktubda yer alanlar həm də mesajdır. Mesaj qəflət yuxusunda olanları ayıltmalıdır. Ancaq onlar həm ayılmırlar, həm də mədəni ritorikadan heç nə anlamayacaq qədər iflic durumdadırlar. Qınadıqları SOCAR beləlilərinə psixoloji dispanserini inşa etdirsin? Bəlkə bunu istəyirlər? Əlqərəz, ukraynalı "başbilənlərin" hazırkı "fəaliyyətlərini" nəzərə alaraq, bəzi digər məqamları da xatırlatmaq məcburiyyətindəyik.

Xatırladaq və görək ki, Qərbin saxta Ukrayna təəssübkeşliyi fonunda ortaya hansı maraqlı nüanslar çıxır. Belə bir suala cavab tapaq: Ukrayna xalqının faciəsi iki il əvvəlmi başlamışdı? Əlbəttə ki, yox. Faciənin əsası 2014-cü ildə qoyulmuşdu – Rusiya Krımı ələ keçirəndə və Donbasda hərbi qarşıdurma yarananda. Həmin vaxt minlərlə ukraynalı həyatını itirmişdi.

Bəs sonra nə oldu? Nə üçün həmin vaxt Qərb dairələri Rusiya ilə əlaqəni kəsmədilər? Necə oldu ki, həmin dairələr gedib Rusiya Prezidenti ilə əl sıxdılar? Məgər o zaman Putin Rusiyası günahkar hesab edilmirdi? Hansı səbəbdən Ukraynanın üzləşdiyi faciəyə indiki qlobal görkəm verilmədi? Çünki o zaman durum fərqli idi. Anti-Rusiya planları indiki qədər aktual deyildi. Deməli, məqsəd və mənafelər amili dövriyyəyə girdi və onlara görə məhv olan insan həyatları heçə sayıldı? Yəni ki, indi durub Azərbaycanda Putinin əlinin sıxılmasını fərqli təqdim etməyə ehtiyac yoxdur. Biz nə vaxt kimin əlinin nə məqsədlə sıxıldığından gözəl xəbərdarıq.

*

Azərbaycan otuz ilə yaxın müddətdə işğaldan əziyyət çəkib. Torpaqlarımız qəsb edilləndə minlərlə şəhidimiz olub. Heç bir dövlət rəsmisi həmin müddətdə, Bakı-İrəvan münasibətlərinin nizamlama prosesindən xaric, hansısa Ermənistan lideri və rəsmisi ilə əlaqədə olmayıb. Biz işğalçı Ermənistanın prezidenti olmuş Serj Sarkisyanın Kiyevdə böyük hərarətlə qarşılanmasını bir kənara qoyuruq. Heç zamanında da bununla bağlı irad bildirməmişdik. Amma nəzərə alaq ki, 2022-ci ilədək Putinlə görüşüb əl sıxanlar sırasında Ukraynanın dövlət başçıları da olub. Özü də onlar Rusiyaya münasibətdə 2014-cü ildə yaşanmış faciələr, Krım məsələsi yaddan çıxıbmış kimi davranıblar. Görəsən, nəyə görə Ukrayna 2022-ci ilədək Rusiya ilə nəinki diplomatik əlaqələri davam etdirirdi, eyni zamanda, onunla iqtisadi əməkdaşlığı da reallaşdırırdı? Biz məsələni kateqorik qoyur və buna görə hesab edirik ki, Ukraynada heç kəsin ölkənin hazırda



düşdüyü durumu əsas gətirib Azərbaycana moizə oxumağa, dərs keçməyə haqqı yoxdur. Kimsə bu haqqı özünə rəva bilirsə, buyursun yuxarıda göstərilən suallara cavab versin. Əminik ki, cavab tapılmayacaq.

Suallar isə yetərincə çoxdur və onların hamısını ünvanlamadan digər məqama keçid alaq. Hadisə belə təəssürat var ki, Ukraynadakı bəzi dairələr özlərini, sanki, dünyada hər kəsin ölkələrinə borcu varmış kimi aparırlar. Hamıdan Rusiya ilə mübarizənin mükafatını istəyirlərmiş kimi davranırlar. Belələri Azərbaycanın müstəqil xarici siyasət yürütdüyünün fərqində deyillər. Yaddan çıxarırlar ki, ölkəmizin dövlət maraqları bu maraqları nəzərə alan hər kəslə, o cümlədən, Rusiya ilə də normal münasibətlərin saxlanılmasını diktə edir.

Ancaq biz məsələləri bir-birindən ayırd edə bilirik. Bu gün Ukrayna mediasının və sosial şəbəkə seqmentinin hədəfinə çevrilmiş SOCAR Ukraynaya müharibə səbəbi ilə humanitar yardım göstərəndə də ayırd edirdik. O zaman Rusiyadakı bəzi ermənipərəst dairələr ayağa qalxıb ölkəmizi qınamaq yolunu tutmuşdular. Bakı mövqeyindən döndümü? Yox! Ona görə yox ki, ölkəmiz özünü Ukraynaya borclu sayırdı. Yaxud da, Qərbdə kimlərinsə xoşuna gəlməyi ağlımızdan keçirirdik. Düşünürdük ki, dostumuz dar gündədir. Bu gün də eyni fikirdəyik. Amma heç kəs öz dar gününə görə bizi müqəssir bilməməlidir.

*

Onu da vurğulayaq ki, ukraynalılar müharibəyə görə Rusiyanı günahlandırırlar. Özləri bilərlər, amma onu da unutmamalıdırlar ki, müharibə fəlakətini onların başına açan həm də Qərbdir. O Qərb ki, bu gün Ukraynadakı erməniperəst tör-töküntüləri Azərbaycana qarşı çirkin kampaniyada istifadə edir. Bu kampaniyada "Qazprom"la yeni razılaşmaya malik SOCAR-dan imtina edilirsə, belə çıxır ki, dövlət qurumumuz dağıdılmış, yerlə-yeksan edilmiş Ukrayna şəhəri İrpenin bərpasından uzaqlaşdırılmalıdır? Bu, kimə sərfəlidir? Əlbəttə ki, Qərbə. Axı ona anti-Rusiya cəbhəsində viran qalmış mənzərələr lazımdır! Dağıdılmış şəhərlərin, qəsəbələrin, puç olmuş insan talelərinin mövcudluğu Qərb mediasının saxta sentimentallığa əsaslanmış təqdimatlarının daha təsirli alınması üçün vacibdir. Axı timsahlar göz yaşlarını axıtmalıdırlar. Ortada Ukrayna kimi yağlı tikə var.

*

Digər məqama keçid alaq. Azərbaycan postsovet məkanında Ukraynaya müharibə səbəbilə ən çox yardım göstərən, quruculuq işləri gerçəkləşdirən ölkədir. Ancaq Ukraynanın bəzi dairələri ortaya belə bir sərsəm tezis atırlar: "Qazprom"un SOCAR-la razılaşmaya görə əldə edəcəyi gəlir Rusiyaya güclənib həmin quruculuğu heçə endirmək, yenidən dağıntılar törətmək imkanı verəcək. Bu fikir sərsəm olduğu qədər də absurddur. Əvvəla, hadisə və proseslərə bu cür primitiv aspektdən yanaşmaq doğru deyil. Çünki bir razılaşma o boyda Rusiyanı gücləndirəcək amil ola bilməz.

İkinci bir tərəfdən, Rusiya ilə müharibə vəziyyətində ola-ola öz ərazisindən Rusiya qazının tranzitini dayandırmayan və buna görə qazanc əldə edən Ukraynadır. Təsəvvür edin ki, Kursk ərazisindəki Sudja qazölçmə stansiyası ukraynalıların nəzarətinə keçəndən sonra da qaz nəqli davam edir. Bu təcrübəyə heç bir müharibədə rast gəlinməyib.

Sual olunur: Ukrayna ərazisindən keçən Rusiya qazı hara gedir? Əlbəttə ki, Avropaya. O Avropaya ki, orada anti-Rusiya ritorikası hakimdir. Deməli, "köhnə qitə"nin ölkələri də normal yaşamlarını sürdürürlər, Rusiya da qazancını götürür. Əzab çəkən, faciələrlə üzləşən, məşəqqətlərə düçar olan isə ukraynalılardır. Belə yaramaz ssenarini Ukraynanın başına gətirən Azərbaycandırmı? Yox! Elə isə nə üçün ölkəmizin düşmən obrazı formalaşdırılır?

Bütün bunlardan sonra Ukraynada SOCAR-ı boykot etmək çağırışları varsa, buyursunlar. Görək, itirən kim olacaq? Hər halda, Ukrayna bazarı SOCAR üçün bir elə önəmli deyil. Təkrarən deyək ki, Azərbaycan Ukrayna ilə bağlı öz üzərinə düşən bəşəri missiyanı yerinə yetirir və təmənna güdmür. Ancaq ölkəmiz absurd ittihamlara dözmək niyyətindən də uzaqdır. O cümlədən, Ukrayna hakimiyyətinin bu iyrənc kampaniyanı sakit izləməsinə də laqeyd qala bilmərik. Axı hazırda ölkədə aparılan anti-Azərbaycan təbliğatı heç də medianın və ictimai sektorun demokratizm zənguləlorindən doğan rahatlığının məhsulu deyil. Hərbi şəraitdə Ukrayna mediasının haradək azad olduğu barədə də təsəvvürümüz yetərincədir. Ona görə şübhələrimiz yaranır və yaranmaqda haqlıdır. Şübhələr fonunda isə ortaya daha böyük sual çıxır: bəlkə Azərbaycana qarşı çirkin kampaniyanı başladan elə Ukrayna hakimiyyətinin özüdür?

Əlbəttə, dərhal bu fikri ağlımızdan çıxarırıq. Prezident İlham Əliyevin Müstəqillik Günü münasibətilə Prezident Volodimir Zelenskiyə ünvanladığı təbrik məktubunun ovqatına köklənirik. Çünki "körpüləri yandırmaq" istəmirik. Anlayırıq ki, qazanılmışları bir andaca məhv etmək mümkündür. Əsas olan əldə edilmişləri qoruyub saxlamaqdır. Yaxşı olar ki, bu barədə Ukrayna iqtidarı da düşünsün.

**Ə.CAHANGİROĞLU**
**XQ**

---

**"Telegram"ın yaradıcısı Pavel Durovun Paris Hava Limanında saxlanılması Emmanuel Makron komandasının irticaçı addımlarını yenidən gündəmə gətirib. Fransa hüquq-mühafizə orqanları Durovu "Telegram" sosial şəbəkə platformasında cinayətkar istifadənin qarşısını almaq üçün zəruri addımlar atmamaqda ittiham edirlər.**

# "Teleqram"ın yaradıcısı Parisdə niyə saxlanıldı?

## Makron fransızların demokratik dəyərlərini məhv edir



**Müşfiq ƏLƏSGƏRLİ, XQ-nin media eksperti**

Onların istinad etdikləri yeganə mənbə "Onlayn resurslarda nifrət nitqi haqqında" Qanundur. Fransada 2020-ci ilin may ayında qəbul edilmiş bu qanun sosial şəbəkə adminləri qarşısında tələb qoyur ki, saxta, qanundankənar informasiyaları, nifrət doğuran məlumatı müəyyən etmək üçün mexanizmlər qursunlar. Həmçinin, qeydə alınmış dezinformasiya və ya nifrət nitqini 24 saat ərzində silib dövriyyədən çıxarsınlar.

Məsələ ondadır ki, bu qanunun tələbləri Durovun həbsi üçün yetərli səbəb deyil. Çünki "Telegram" beynəlxalq statuslu sosial şəbəkə platformasıdır. "Onlayn resurslarda nifrət nitqi haqqında" Qanun isə lokaldır, yalnız Fransa ərazisi üçün keçərlidir. Qanun bu platformanın yalnız yerli seqmentinə tətbiq edilə bilər. Əlavə olaraq, qanun tələbləri pozan sosial şəbəkə platformaları üçün həbsdən öncə cərimə prosedurlarını nəzərdə tutub. Qanunu pozanlar 1,25 milyon avro (1,36 milyon dollar) məbləğində cərimələnə bilərlər ( https://edition.cnn.com/2020/05/13/tech/french-hate-speech-social-media-law/index.html ). Fransa hüquq-mühafizə orqanlarının imkanı var idi ki, qanunun bu maddəsinə istinad edib "Telegram"a cərimə tətbiq etsinlər. Amma onlar birbaşa platformanın qurucusunu həbsə almaqla mümmalı davranıblar.

Bu, başqa məsələdir ki, Fransada qəbul edilmiş "Onlayn resurslarda nifrət nitqi haqqında" Qanun özü mübahisəlidir. Onun əksər prinsiplərinin Avropa İttifaqının qəbul etdiyi "Rəqəmsal Xidmətlər Aktı" ilə



ziddiyyət təşkil etdiyi bildirilir. Bu ziddiyyətlərə görə, Fransa Avropanın özündə ciddi tənqidlərə məruz qalır.

Analitik mərkəzlər iddia edirdilər ki, həm 2020-ci ildə qəbul edilmiş "Onlayn resurslarda nifrət nitqi haqqında" Qanun, həm də 2018-ci ildə qəbul edilmiş "İnformasiya manipulyasiyasına qarşı mübarizə haqqında 1202 saylı Qanun" Fransada demokratiya üçün təhlükə yaradır. Bu qanunlar ifadə azadlığını boğur, mətbuatda senzuraya yol açır. "Evroneus" yazır ki, "İnformasiya manipulyasiyasına qarşı mübarizə haqqında 1202 saylı Qanun" hakimlərə seçki kampaniyaları zamanı "saxta xəbərləri" dərhal silmək üçün səlahiyyət verməklə ifadə azadlığını pozur, tənqidi səsləri susdurmağa şərait yaradır. Çünki qanun "saxta xəbərlə" "tənqidi fikri" fərqləndirmək üçün yetərli anlayış vermir. Hansı xəbərin dezinformasiya, hansının tənqid olduğunu müəyyənləşdirməyə kömək etmir: "Bu yanaşma imkan verir ki, dezinformasiya adı altında həm də tənqidi fikirlər dövriyyədən çıxarılsın" ( https://www.euronews.com/2018/11/22/france-passes-controversial-fake-news-law ). Eyni təzad "Onlayn resurslarda nifrət nitqi haqqında" Qanuna da şamil edilir. Makron komandası dezinformasiya və nifrət nitqi anlayışları adı altında özünə və komandasına qarşı yönəlmiş tənqidləri susdurmaq istəyir.

Adıçəkilən qanunlarda ən önəmli məqam budur ki, onlar sosial şəbəkə platformaları qarşısında öhdəliklər yaradırlar. Fransa hüquq-mühafizə orqanlarına səlahiyyət verilir ki, sosial şəbəkə platformalarının yerli seqmentinə müdaxilə edə bilsinlər. Bu müdaxiləni qəbul etməyən platformalar yüksək məbləğdə cərimələnirlər. Fransa "Telegram"dan əvvəl "Youtube" və "Twitter"lə (X) də eyni kontekstdə mübahisə yaradıb. Amma "Telegram"dan fərqli olaraq "Youtube" və "Twitter" adminləri haqqında həbs qərarı çıxarmağa cürət etməyib. Makronun "X" və "Meta" rəhbərliyinə qarşı həbs qərarı çıxarmağa da cürəti çatmaz. Onun komandası öz hikkəsini Durovun üzərinə tökə bilib. Saxta maddələrlə cinayət işi açıb. Əsl səbəb Makronun Durovdan "Telegram"ın məxfi şifrələrini istəməsidir. Məlumdur ki, "Telegram" Rusiya və MDB ölkələrində ən məşhur sosial şəbəkə platformasıdır. Məhz bu səbəbdən Durovu sıxışdırıb "Telegram"a giriş kodlarını almaq istəyirlər.

Maraqlıdır ki, gecə-gündüz dünyada ədalətdən, demokratiyadan, söz və ifadə azadlığından dəm vuran ölkələr Fransa hakimiyyətinin son qərarına göz yumurlar. Hansı ki, 2018-ci ildə Rusiya məhkəməsi "Telegram"la bağlı işə baxanda "Human Rights Watch", "Amnesty International", "Freedom House", "Sərhədsiz Reportyorlar", "Jurnalistləri Müdafiə Komitəsi" daxil olmaqla 26 beynəlxalq təşkilat bəyanat verərək, faktı pisləmişdilər. Rusiyanı ifadə azadlığını pozmaqda ittiham etmişdilər. İndi Fransa hökuməti daha sərt addım atıb, "Telegram"ın qurucusunu həbs edib. "Beynəlxalq QHT-lər" niyə susurlar? Avropa İttifaqı, ABŞ Dövlət Departamenti bəyanat vermək üçün niyə gecikirlər? Qərb özünün bəyan etdiyi prinsiplərə niyə etinasız yanaşır?

Yeri gəlmişkən qeyd edək ki, 2017-ci ildən, yəni Emmanuel Makronun hakimiyyətə gəldiyi ildən etibarən, Fransada mürtəce xarakterli qanunların qəbul edilməsi sistemli hal alıb. 2018-ci ildə "Yalan məlumatlara qarşı mübarizə ilə bağlı 799 saylı təklif" (Təkliflər paketi) Milli Assambleyada müzakirəyə çıxarılıb. Bu təkliflər ölkədə informasiya dövriyyəsinə aidiyyatı olan qanunların dəyişdirilməsini nəzərdə tutur. "Rabitə haqqında 1986-cı il tarixli Qanun", "Rəqəmsal iqtisadiyyat haqqında 2004-cü il tarixli Qanun", "Audiovizual yayım haqqında Qanun", "Mətbuat azadlığı haqqında 29 iyul 1881-ci il tarixli qanun", "Seçki Məcəlləsi" və digər hüquqi aktlar bu təkliflər paketinə uyğun olaraq dəyişdirilib və mürtəce hala salınıb. Məsələn, Seçki Məcəlləsinin 112-ci və 163-1-ci maddələri dəyişdirilərək yeni redaksiyada verilib. Mahiyyəti budur ki, "seçki prosesində dezinformasiya xarakterli məlumatların yayılmasına görə bir il həbs və ya 75.000 avro məbləğində cərimə ilə cəzalandırma" nəzərdə tutulur. Amma yuxarıda qeyd etdiyimiz kimi, dəyişdirilən qanunlarda "dezinformasiya" ilə "tənqidi fikrin" sərhədləri müəyyən edilməyib. Makron komandası özünə qarşı yönələn ciddi tənqidləri "dezinformasiya" və ya "nifrət nitqi" adı altında dövriyyədən çıxarmaq üçün səlahiyyət qazanıb. O, fransızların son 250 ildə qazandığı demokratik dəyərləri yox edir, başqa sözlə, Fransanı antidemokratik, kolonist dövlətə çevirir.

# Ermənilər Konqresdə növbəti təxribata hazırlaşırlar

## *Onların bu cəhdləri də fiaskoya uğrayacaq*

**Azərbaycan Ordusunun ötən ilin sentyabrında ərazi bütövlüyümüzün tam təmin edilməsi, Qarabağ iqtisadi rayonunun hər yerində suverenliyimizin bərpa olunması, separatçı rejimin varlığına son qoyulması üçün keçirdiyi lokal xarakterli antiterror tədbirlərinin ildönümü yaxınlaşdıqca, Ermənistandakı revanşistlərin və dünyadakı hay havadarlarının səsləri yüksəlməkdədir. Hər bir məsələdən öz mənfəətləri üçün istifadə edən bu dairələr lokal xarakterli antiterror tədbirlərinin gələn ay qeyd edəcəyimiz birinci ildönümündən də yararlanmağa çalışırlar. Onlar bu hadisələrdən yenə də Azərbaycana qarşı hansısa sanksiyaların tətbiqi, ölkəmizin, guya, "etnik təmizləmə" həyata keçirməsi kimi heç kəsin inanmadığı yalanları gündəmə gətirmək üçün istifadə etməyə cəhd göstərirlər.**



Xaricdə bu istiqamətdə əsas canfəşanlığı yenə də bədnam Amerika Erməni Milli Komitəsi (ANCA) edir. Komitənin təşəbbüsü ilə sentyabrın 19-da ABŞ Konqresində lokal xarakterli antiterror tədbirlərinin birinci ildönümü ilə bağlı tədbir keçiriləcək. Əlbəttə, onların yaydığı məlumatda məlum hadisələrin adı belə təhrif olunub. Zərurətdən, son çarə kimi həyata keçirilən antiterror tədbirləri "Azərbaycanın Artsaxa amansız hücumunun ildönümü" kimi qələmə verilib. ANCA-nın genişmiqyaslı tədbiri gözlənildiyi kimi, erməni lobbiçilərin çoxluq təşkil etdiyi ABŞ Konqresində keçiriləcək. Komitənin yaydığı məlumatda bildirilib: "Konqres liderləri, ictimai fəallar və koalisiya tərəfdaşları sentyabrın 19-da Kapitoli təpəsi adlandırılan yerdə Azərbaycanın "Artsax"da 2020-2023-cü illərdə törətdiyi "soyqırımı"na görə məsuliyyətə cəlb olunmasına həsr olunmuş tədbirdə iştiraka toplaşacaq və yerli ermənilərin qlobal mandat və beynəlxalq müdafiə altında təhlükəsiz qaytarılmasına çağıracaqlar. "Cavabdehlik 2024" adlı tədbir Azərbaycanın 2023-cü il sentyabrın 19-20-də on aylıq mühasirədən (?) sonra etnik təmizləmə və 120 min etnik erməninin öz tarixi vətənlərindən qovulması (?) ilə başa çatan Artsaxa amansız hərbi hücumunun birinci ildönümünə təsadüf edir".

ANCA-nın icraçı direktoru Aram Ambaryanın sözlərinə görə, onlar Amerikanın hər yerindən Vaşinqtona ona görə toplaşırlar ki, Azərbaycana hərbi yardıma qanunvericilik yolu ilə qadağa qoyulsun və ölkəmizə sanksiyalar tətbiq etməklə bizi məsuliyyətə cəlb etsinlər: "Birləşmiş Ştatlar BMT Təhlükəsizlik Şurasının "Artsax"ın yerli ermənilərinin beynəlxalq himayəyə alınmasını tələb edən qətnaməsinin icrasına rəhbərlik etməklə bu prosesi geri qaytara bilər və qaytarmalıdır".

Tədbir çərçivəsində senatorların və digər nümayəndələrin çıxışları olacaq, ABŞ rəhbərliyinin Azərbaycana qarşı sanksiyaların tətbiq olunması, "soyqırımından sağ çıxanlara" yardım göstərilməsi və ermənilərin "Artsax"a təhlükəsiz qayıtmasına dəstək verilməsi ilə bağlı prosesə rəhbərlik etməsinin əhəmiyyəti vurğulanacaq.

Qeyd edək ki, ANCA dünyanın superdövlətində geniş fəaliyyət göstərən erməni diasporunun əsas təşkilatıdır. Azərbaycan torpaqlarında etnik separatizm ocağının yaranmasında, sonrakı dövrdə torpaqlarımızın işğal olunmasında və bu işğalın uzun illər davam etməsində ANCA-nın da özünəməxsus rolu var. Yaxşı təşkilatlanmış komitə bütün digər erməni diaspor qurumlarından daha çox nümayəndəliyə və ofis şəbəkəsinə malikdir. Təşkilatın mənzil-qərargahı Vaşinqtonda yerləşir. Həmçinin onun İrəvanda da ofisi var. İşğalın davam etdiyi müddətdə ANCA-nın Xankəndidə də ofisi fəaliyyət göstərirdi. ANCA ABŞ-nin 25 ştatında 45 filiala malik olmaqla yanaşı iki regional ofisə də malikdir. Bunlar Qərbdə Qlendeyl (Kaliforniya ştatı) və Şərqdə Uetertaun (Massaçusets ştatı) şəhərlərində yerləşən ofislərdir. Təşkilatın Fransa, Böyük Britaniya və İtaliyada da nümayəndəlikləri fəaliyyət göstərir. Bir müddətdir ki, ANCA Avropa İttifaqı nəzdində də nümayəndəliyə malikdir. Komitə özündə 10 min üzvü birləşdirərək 3,5 milyon dollar illik büdcəyə malikdir. ANCA müxtəlif gənclər təşkilatlarının, mətbu orqanların və institutların təsisçisidir. Qurum "Massis Weekly", "Armenian Liberty", "Snark News Agency" və "Armenian News" kimi media resursları ilə yaxın əlaqələrə malikdir.

Təşkilatın əsas işi qondarma erməni soyqırımını tanıdılması, erməni diasporunun siyasi proseslərdə iştirakının təmin edilməsi, ABŞ–Ermənistan əlaqələrinin gücləndirilməsi, Ermənistana və Qarabağdakı keçmiş separatçı rejimə dəstək verilməsi, erməni diasporunun maraqlarına uyğun olaraq ABŞ–nin xarici siyasətinə təsir göstərilməsidir. Təsadüfi deyil ki, ANCA 1997-ci ildə qondarma soyqırımını daha yaxşı tədqiq və təbliğ etmək üçün "Erməni milli institutu"nu təsis edib.

Hayların ABŞ-dakı diasporunun dövlət orqanlarına təsirinə gəldikdə isə demək lazımdır ki, 1995-ci ildə Konqresdə erməni məsələləri üzrə ikipartiyalı (yəni, hər iki partiyanın nümayəndələrinin daxil olduqları–S.H.) konqresmenlər qrupu yaradılıb. İngilis dilində "Armenian Caucus" adlanan qrupu demokrat Frenk Pallone və respublikaçı Edvard Porter təsis edib. Sonradan Porterin yerini Co Nollenberq tutub. Bu qrupun fəaliyyəti Ermənistanın və erməni diasporunun maraqlarını əks etdirən bir sıra sənədlərin Konqresin gündəliyinə gətirilməsindən və qəbulu üçün səy göstərməkdən ibarətdir. Qrupun üzvü olan bir çox konqresmen 1992-ci ildə ABŞ-nin Azərbaycana birbaşa dövlət yardımını qadağan edən "Azadlığa dəstək aktına 907-ci düzəliş"in lehinə səs verən şəxslərdir. Konqresdəki qrupdan əlavə Demokratlar və Respublikaçılar partiyalarında erməni şuraları mövcuddur. ABŞ qanunvericilik orqanlarında bir neçə güclü lobbiçi erməni məsələsi ilə məşğuldur. Onlardan ən məşhuru Senatın maliyyə məsələləri üzrə komitəsinin keçmiş sədri Robert Douldur. O, onilliklər boyu erməni məsələlərinin Konqresdə və Senatda özünə yer tapması üçün çalışıb. ANCA 2001-ci ildə onu bu səylərinə görə mükafata layiq görüb. Həmçinin, erməni lobbiçiləri xarici siyasətin maliyyələşdirilməsi üzrə alt komitənin rəhbəri, senator Mitç Makkonelin öz tərəflərinə çəkilməsi işində uğura nail olub. ABŞ-də yaşayan ermənilər Makkonelə və onun təmsil etdiyi ştatda fəaliyyət göstərən Respublikaçılar Partiyasının bölməsinə 200 min dollar vəsait ianə ediblər. Bundan əlavə, erməni diasporu Makkonelin rəhbərlik etdiyi respublikaçı senatorlar qrupu üzvlərinin yenidən seçilməsi üçün də komitəyə küllü miqdarda vəsait ayırıb.

ANCA və digər erməni diaspor qruplarının əsas məqsədi bunlardır: Qondarma erməni soyqırımının ABŞ hökuməti tərəfindən tanınması, Qarabağdan öz xoşları ilə getmiş ermənilərin geri qaytarılması və onlara yardım göstərilməsi, bədnam 907-ci düzəlişin qüvvədə saxlanılması, Ermənistana ABŞ tərəfindən yardım göstərilməsi, Türkiyəyə və Azərbaycana müasir silah satışının qarşısının alınması.

Bu təşkilat bir vaxtlar Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Qars, Bakı–Tbilisi–Ərzurum kimi layihələrə də qarşı çıxırdı. Ancaq onların bütün cəhdləri boşa çıxdı. Azərbaycan qarşısına qoyduğu bütün iqtisadi layihələri uğurla reallaşdırdı. Bunun nəticəsində ölkəmizə böyük məbləğdə valyuta axınının gəlməsi reallaşdı. Bu isə iqtisadiyyatımızın güclənməsinə, ordu quruculuğu məsələsinə daha böyük diqqət ayırmağımıza, müasir silah-sursat almağımıza gətirib çıxardı. Bütün bunlar 2020-ci ildə 44 günlük Vətən müharibəsini qalibiyyətlə başa vurmağımızda mühüm rol oynadı. Əlbəttə, burada əsas rolu yetişdirilən vətənpərvər gənc nəslin oynadığını da xüsusi vurğulamalıyıq.

Amerika erməniləri, onların diaspor və lobbi qurumları indiyədək bir çox təxribatçı əməllərə imza atmışdılar. Amma onların, demək olar ki, hamısı uğursuzluğa düçar olmuşdu. Ermənilərin Konqresdə hazırlaşdığı budəfəki təxribatın da uğursuz olacağı şübhəsizdir. Nyu-cersili erməniپərəst senator Robert Menendesin başına gələnlər, zənnimizcə, erməni diaspor və lobbisinə görk olmalıdır.

**Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin rəhbəri Fərid Şəfiyev** "XQ"-yə açıqlamasında bildirdi ki, erməni lobbisinin ABŞ-də Azərbaycana qarşı dinləmələr, hansısa tədbirlər keçirməsi ilk dəfə deyil. Onun sözlərinə görə, bu tədbirlərin indiyədək heç bir təsiri olmayıb, bundan sonra da olmayacaq: "Əksinə, hesab edirəm ki, belə tədbirlər hazırda Ermənistan və Azərbaycan arasında aparılan sülh



danışıqları prosesinə neqativ təsir göstərir. Amma bu, erməni radikallarını, hətta, mən deyərdim ki, irqçilərini və onların ANCA təşkilatını maraqlandırmır".

F.Şəfiyev qeyd etdi ki, erməni lobbisinin maraqlarına xidmət edən ABŞ konqresmenlərini ancaq maliyyə vəsaiti və erməni əsilli seçicilərin səsi maraqlandırır: "Biz bugünlərdə Demokratlar Partiyasının üzvü olan senator Robert Menendesin aqibətini gördük. Onunla bağlı korrupsiya, rüşvət faktları açıqlandı. Nəticədə, o, siyasi karyerasını bitirdi. İndi isə yenə də Konqresdə hansısa şou təşkil edirlər. Yenə də deyirəm, onun real vəziyyətə heç bir təsiri olmayacaq".

*Səxavət HƏMİD*
*XQ*

# Ya həqiqəti dinlə, ya heç dinmə!

## *Mark Libbinin davranışı ABŞ–Azərbaycan münasibətlərinə kölgə salır*

**Yaqin hələ bölgə ilə yaxından tanış olmadığından, şərqli mentalitetinə tam alışmadığındandır ki, Amerika Birləşmiş Ştatlarının Azərbaycandakı səfiri Mark Libbi efirdən diplomatik və peşə etikasını aşan hərəkətlərə yol verir. Onun İctimai televiziyanın efirindən dedikləri həm baş vermiş məlum hadisə, həm də şəxsən özünün diplomatik səriştəliliyi barədə sual dolu qənaətə gəlməyə əsas yaradır. Cənab Libbi məlum tele-müsahibəsində ölkəsinin Ermənistanı silahlandırması ilə bağlı "Caliber.az" portalının təqdim etdiyi konkret fakt və sübutları "cəfəngiyyat" adlandırıb: "Caliber.az-ın məlumatı tam cəfəngiyyatdır. Yazdıqları hər bir şey uydurmadır. Mən onları təkzib edirəm. Aranı qarışdırmağa, Ermənistanla Azərbaycan arasında problem yaratmağa çalışırlar. "Caliber.az" da belə qüvvələrdən biridir. Onun dərc etdiyi bütün məlumatları təkzib edirəm".**



Heç bir əks-arqument ortaya qoymadan xeyli vaxtdır gündəmi zəbt etmiş olayla bağlı informasiyalara bu cür başdansovdu cavabı ilə səfir Libbi ölkəsinin bölgədə gərginliyi artırmağa xidmət edən siyasətinə şübhələri daha da artırmış oldu. Mark Libbi teleaparıcının ABŞ-dan birbaşa Ermənistana – Zvartnos hava limanına, oradan isə hayların Sünik dediyi Zəngəzur vilayətinə silah-sursatın daşınması ilə bağlı yayılan xəbərlərə aydınlıq gətirməsi barədə müraciətini cavablamaq yerinə, üçüncü, beşinci dərəcəli məsələlərdən danışmağa üstünlük verir. Aparıcının hərbi təyyarələrdə hətta erməni əsilli ABŞ əsgərlərinin də həmin vilayətdə yerləşdirildiyinə dair Vaşinqtonun rəsmi mövqe bildirməsi təklifinə dair sualına cavab verməkdənsə, səfir Libbi bölgə dövlətləri arasındakı münasibətləri şərh etməyə girişir. Cənab səfir avqustun 2-də Zvartnos hava limanında ABŞ hərbi hava qüvvələrinə məxsus yük təyyarələrinin foto-şəkillərinə, onların ABŞ-la Ermənistan arasında keçirilən hərbi təlimlərdən sonra çəkilməsi faktına, ümumiyyətlə, bu iki ölkə arasında hərbi əməkdaşlığın şübhəli xarakter daşımasına konkret cavab verməkdən yayınır: "Onu deyə bilərəm ki, ABŞ-nin istər Ermənistanla, istər Azərbaycanla, istərsə də Gürcüstanla əməkdaşlığı üç geniş məqsədə xidmət edir. Birinci, bu bölgənin ölkələrini kənar təsirlərdən uzaq, suveren, demokratik və müstəqil, öz aralarında sülh şəraitində yaşayan ölkələr kimi görmək istəyirik. Həmçinin, istərdik ki, bu üç ölkə bir-biri ilə mehriban qonşuluq şəraitində yaşasınlar. Ağ ev bu üç dövlətlə birbaşa əməkdaşlıq qurur və mən dediyimdən kənar heç nə deyə bilmərəm. O ki, qaldı keçən ay ABŞ və Ermənistan arasında baş tutan təlimlərlə bağlı "Caliber.az"-ın yazdığına, buna da heç nə əlavə edə bilmərəm".

* * *

Tamaşaçıların ondan konkret suala cavab gözlədikləri halda sualdan açıq-aşkar yayınan, mövzu ətrafında "fırlanan" səfirin Azərbaycanın aparıcı media portalının ünvanına təkəbbürlə, aşağılayıcı tərzdə ifadələr işlətməsi, foto-video sübutları gözləri deşən məlumatı "cəfəngiyyat" sayması, ümumiyyətlə, o boyda dövlətin diplomatına yaraşmayan davranış, hörmətsizlik nümunəsidir. Özünün efirdən peşə etikasına sığmayan davranışını malalamağa çalışan cənab Libbi tez ABŞ-nin Azərbaycanla münasibətlərə xüsusi önəm verdiyini vurğulamağa başlayır. "Azərbaycan Avropanın enerji təhlükəsizliyində xüsusi rol oynayan ölkədir" – deyən səfir ardınca Azərbaycanın Əfqanıstan və Kosovoda NATO-nun sülhməramlı missiyasında sona qədər nümunəvi xidmət etməsini, alyansa dəstək olmasını deməyi də "unutmur".

Bu ilin yanvarından ABŞ-nin Azərbaycandakı səfiri statusunda diplomatik fəaliyyətə başlayan Mark Libbi Əfqanıstanda terrora qarşı mübarizədə NATO-nun məhz Azərbaycanın logistik imkanlarından istifadə etdiyini və bunu unutmadıqlarını vurğulayır. O, bu amillərin "Azərbaycan və ABŞ münasibətləri tarixi üçün xüsusi əhəmiyyət kəsb etdiyini" qeyd edib.

Biz də cənab səfirin yadına onun normal məntiqə uymayan bəzi "jestlərini" salmaq istərdik. Misal üçün, cari il mayın 3-də Ümumdünya Mətbuat Azadlığı Günü ilə bağlı bir qrup jurnalistə müsahibəsində Azərbaycanın işğaldan azad etdiyi ərazilərə getməməsinin səbəbi ilə bağlı suala müxtəlif bəhanələr gətirməklə verdiyi cavaba diqqət yetirin: "İndiyədək Azərbaycanın bir neçə regionunda səfərdə olmuşam. Bunun siyasi səbəbləri yoxdur. Aydındır ki, qaytarılmış ərazilər bir azca fərqlidir. Bir az daha çox koordinasiya tələb edir... Amma mən harasa kiminsə şousunun iştirakçısı olmaq üçün getmək istəmirəm... Odur ki, bunu etməyin vaxtı gələndə, mən bunu edəcəyəm".

Bəs, dörd ay əvvəl şou nümayiş etdirən kim idi? İşğal dövründə ermənilərin Qarabağda törətdikləri aşkar vandalizm aktlarını əyani fakt və sübutlarla ölkəmizdə akkreditə olunmuş xarici ölkələrin diplomatik nümayəndələrinə, işğüzar dairələrin təmsilçilərinə göstərən Azərbaycan hakimiyyəti, yoxsa Ordumuzun savaşaraq qaytardığı əraziləri "bir az fərqli" olduğu barədə sərsəm "arqumenti" üfürən "supergücün" elçisi?

* * *

Mark Libbinin diplomatik rəzillik sayıla biləcək müsahibəsinin özü bir siyasi şou, teletamaşa idi. Doğrudanmı, rəsmi Vaşinqtonun Cənubi Qafqaza dördillik missiyaya göndərdiyi diplomatı efirdən verdiyi açıqlama və bəyanatlarla Azərbaycan–ABŞ münasibətlərinə kölgə saldığının fərqində deyil? Təkzibolunmaz fakt və dəlillər qarşısında məntiqli bir söz deyə bilməyən səfir özünə dəstəvuz kimi ölkəsinin Ermənistandakı səfirliyinin açıqlamasını təkrarlayır. Yəni Hayastana hərbçilərin və hərbi yükün göndərilməsini ABŞ və Ermənistan arasında keçirilmiş hərbi təlimlə əlaqəli olduğunu ərz edir. Bununla da səfir ortaya çıxarılan konkret fakt və sübutları havadan təkzib etməklə kifayətlənmir, üstəlik, peşəkarlığı və mötəbərliyi heç kəsdə şübhə doğurmayan ciddi informasiya saytını, deməli, Azərbaycan mətbuatını təhqir etməkdən də çəkinmir, onu araqarışdıran qüvvə adlandırır. Şuşaya səfər etməyi şouya qoşulmaq kimi anlayan psevdodiplomatdan bundan artıq nə gözləmək olardı?

Mark Libbi Bakıda olduğu 8 ayda daha çox ziddiyyətli açıqlamaları, bölgədə cərəyan edən hadisələrə iki standartlı yanaşması ilə yadda qalıb. Bəzən də özü-özünü təkzib edir. Deyəsən, cənab səfir tele-müsahibəsində elçisi olduğu ABŞ-nin 30 il ərzində bədnam ATƏT-in Minsk qrupu adlı beynəlxalq təsisatın həmsədrlərindən biri olduğunu unudub. Bu faktı nəzərə almaq əvəzinə, onun diplomatik çərçivəyə sığmayan, ziddiyyətli açıqlamaları müəyyən güman və fərziyyələrə yol açır. Onun ABŞ-nin Ermənistanı silahlandırması ilə bağlı ortaya çıxarılan konkret dəlil və faktlara, sübutlara bu şəkildə saymazcasına cavabı söylədiyi yalanı ört-basdır etməyə xidmət edir.

Artıq heç kəsə sirr deyil ki, "kollektiv Qərblə" həmahəng hərəkət edən ABŞ Ermənistan kütləvi silahlandırmaq kursunu tutub. Rəsmi Vaşinqtonun son aylar bu məsələdə nümayiş etdirdiyi hərbi-siyasi fəallığının altqatında nələrin durduğunu Bakı yaxşı bilir. Azərbaycan hakimiyyəti Ermənistanın silahlandırılmasına hərtərəfli şərait yaradan ABŞ-nin İrəvanda dünyada ikinci ən böyük diplomatik korpusunu, silahlı qüvvələrini və xüsusi hərbi attaşesini saxladığından da xəbərdardır. Bir ildən çoxdur ki, Pentaqon 44 günlük müharibədə biabırcasına məğlub olmuş, 6 milyardlıq silah və texnikası qənimət kimi alınmış bir fərari ordu ilə "Qartal tərəfdaşlığı" devizi ilə təlimlər keçirir. Bütün bu fəaliyyətlər ondan xəbər verir ki, ABŞ-nin, bütövlükdə, Qərbin Ermənistanı silahlandırması Cənubi Qafqazı yeni müharibəyə sürükləmək məqsədini daşıyır. Bu, həm də o deməkdir ki, Vaşinqton iki ölkə arasında danışıqlara və sülh prosesinə heç də səmimi yanaşmır. Bu kontekstdən yanaşanda, səfir Mark Libbinin efirdən səsləndirdiyi fikirlər Azərbaycanın ABŞ-a münasibətdə yürütdüyü dürüst və şəffaf siyasətinə, ədalətli mövqeyinə və qələbəmizə qarşı hörmətsizlik deməkdir. Güman edirik ki, rəsmi Bakının buna cavabı tam adekvat olacaq.

*İmran BƏDİRXANLI*
*XQ*

**Ekspert rəyi**



**Fikrət SADIXOV,**
**Qərbi Kaspi Universitetinin professoru, politoloq**

– Görünür, ABŞ-nin Azərbaycandakı səfiri hesab edir ki, supergücün burada təmsilçisi olaraq ağlına gələni danışa bilər. O, işğaldan azad olunmuş Şuşaya getməməsinin səbəbini də uzun müddət açıqlamırdı. Yalnız Bakının təzyiqindən sonra, guya, könüllü şəkildə ora səfər etdi.

Digər tərəfdən, əgər Zəngəzura ABŞ-nin hərbi təyyarələri silah-sursat daşıyırsa və bu təyyarələr haradakı hərbi bazalardan hansı hava marşrutu ilə hərəkət etdikləri də bizə məlumdursa, nəyi təkzib etmək olar? Eyni zamanda, bu da faktdır ki, Ermənistan müdafiə nazirliyində Pentaqonun daimi nümayəndəsi təyin olunub. Bu ölkə Ermənistanda mütəmadi olaraq birgə təlimlər, manevrlər keçirir. Bütün bunlar nə deməkdir? Əlbəttə ki, ikitərəfli münasibətlərə xələl gətirilməsi deməkdir. ABŞ-nin Bakıdakı səfiri onu da anlamalıdır ki, əgər Vaşinqton bölgədə sülhün yaranmasında maraqlıdırsa, onda bu yöndə müvafiq diplomatik addımlar atmalıdır. İşğalçı dövlətə hərbi texnika göndərməyi hansı diplomatik məntiqlə sülhə xidmət hesab eləmək olar? Səfirin məlum olaya münasibəti açıq şəkildə ikili və qərəzli yanaşmanın təzahürüdür.

Rəsmi Bakıya hər şey məlumdur, bunu birmənalı formada bəyan edir və onların nəzərinə çatdırır. ABŞ Azərbaycan mediasının aşkar etdiyi fakt və sübutlara əsaslandırılmış cavab versin, ya da heç olmasa, sussun. Bu zaman reallığın və buna ABŞ səfirliyinin mövqeyinin nədən ibarət olduğunu dəqiq bilərdik.

# Muğam sənətinə yeni həyat bəxş edən Birinci xanım



**(əvvəli 1-ci səhifədə)**

Təsadüfi deyil ki, 2017-ci ildə Mehriban Əliyevanın Azərbaycanın Birinci vitse-prezidenti təyin olunması cəmiyyətimizdə, xüsusilə də daimi qayğıkeşi olduğu mədəniyyət cameəsində böyük coşqu ilə qarşılanıb. Hamı tam əmin idi ki, bu, Mehriban xanımın ənənəvi musiqinin, ədəbiyyat və poeziyanın inkişafı naminə çalışmalarını daha da genişmiqyaslı edəcək. Onun dünya mədəniyyətlərinin mübadiləsi sahəsindəki xidmətlərini daha da şaxələndirəcək. Elə də oldu.

İnamla deyə bilərik ki, bu gün Azərbaycan muğamının dünyaya səs salmasının əsas səbəbkarı onun böyük himayədarı – Birinci vitse-prezidentimiz Mehriban xanım Əliyevadır. 26 avqust Beynəlxalq Azərbaycan Muğamı Gününün məhz mötəbər mədəniyyət təşkilatlarının xoşməramlı səfiri olmuş, Heydər Əliyev Fondunun yaradıcısı Mehriban xanımın doğum gününə təsadüf etməsi də fərəh doğuran bir faktdır. Məhz onun rəhbərliyi ilə Heydər Əliyev Fondu muğamı dünyada layiq olduğu səviyyədə təbliğ edir. Fond 2005-ci ildən "Azərbaycan muğamları" layihəsini uğurla həyata keçirir. Bu çərçivədə gerçəkləşən bir çox layihələr yaxın-uzaq ölkələrdə uğur qazanıb, yaddaşlarda dərin iz buraxıb. Burada "Muğam aləmi" festivalları və muğam müsabiqələrini xüsusi qeyd etmək olar. Unudulmaz tədbirlər sayəsində muğam sənəti yenidən layiq olduğu mərtəbəyə çatıb. "Azərbaycan muğamları" layihəsi çərçivəsində "Qarabağ xanəndələri", "Muğam ensiklopediyası", "Muğam aləmi" adlı nəşrlər reallaşıb, 24 virtuoz ifaçının səsləndirdiyi muğam parçalarından ibarət "Qarabağ xanəndələri" albomunun Parisdə, UNESCO-nun mənzil-qərargahında təqdimat mərasimi keçirilib.

Başlanğıcını ənənəvi Niaqara musiqi festivalından götürmüş Azərbaycan Muğam Günü məmnuniyyətlə qeyd etdiyimiz bayramlar sırasındadır. Çünki muğam sənəti bizim xalqımızın zəngin tarixinin, mədəni irsinin vacib qolunu təşkil edir. Bu şanlı gün həm də İpək yolu üzərində yerləşən ölkələrin musiqisi günü elan olunub. Beləliklə, məhz Mehriban xanım Əliyevanın özəl münasibəti, diqqət və qayğısı nəticəsində muğamımız kiçik konsert salonları səviyyəsindən çıxarılaraq, UNESCO səviyyəsinə qaldırılıb, layiq olduğu beynəlxalq statusa yiyələnib.

Muğam özü sirli-sehirli bir aləmdir, insanın mənəviyyatına nüfuz edərək, kamillik yaradır. Muğam özünün sənət ucalığı, əbədiyaşarlığı ilə bir dəyər olaraq, əsrləri adlaya-adlaya gələn nəsnədir.




Həqiqi poeziya ilə qoşa qanad təşkil edən muğam ifaçılığı tarixən Azərbaycandakı ədəbi və musiqili məclislərdən dalğa-dalğa ətrafa yayılıb və professional şəkil alıb. Həmin məclislərdə poeziyanın və musiqinin sərrafları toplaşar, muğamlara qulaq asar, sənət müzakirələri aparardılar. Uyğun qəzəllər üstündə oxunan "Rast", "Şur", "Segah", "Çahargah", "Şüştər", "Humayun", eləcə də "Şahnaz", "Rahab", "Heyratı", "Arazbarı", "Simayi-şəms", "Mənsuriyyə" muğamları milli-mənəvi dəyərlərimizi daha da dolğunlaşdırıb.

Dövlətimizin başçısı İlham Əliyevin sərəncamı ilə Beynəlxalq Muğam Mərkəzinin yaradılması ölkəmizdə bu qədim sənətə dəyər verilməsinin, qayğı göstərilməsinin təzahürüdür. Möhtərəm Prezidentimiz hər zaman mədəniyyətin mühüm qolu olan muğama yüksək qiymət verib: "Biz əsrlər boyu bu gözəl milli sənətimizi yaşatmışıq, inkişaf etdirmişik, ancaq son illərdə muğamın Azərbaycanda inkişafına çox böyük təkan verildi. Ənənəvi muğam müsabiqələri keçirilir və Azərbaycan televiziyası ilə canlı yayımlanır. Bu müsabiqələrin çox böyük əhəmiyyəti var. Həm gənc nəsil yetişir, həm gənc istedadlar gələcəyə yol tapırlar, həm də muğamın nə qədər gözəl sənət olduğunu bütün Azərbaycan vətəndaşları görür, peyk vasitəsilə dünya da görür... Heydər Əliyev Fondunun təşəbbüsü ilə ölkəmizdə ənənəvi olaraq beynəlxalq muğam festivalları da keçirilir. Bu təşəbbüsün də çox böyük əhəmiyyəti var. Çünki biz bu festivalların keçirilməsi ilə bir daha göstəririk ki, muğam milli sənətimizdir"

Xatırladaq ki, 1971-ci ildə UNESCO-nun 50 albomdan ibarət "Dünya ənənəvi musiqisinin antologiyası" seriyasına "Azərbaycan musiqisi plastinkası" da daxil edilib, 1975-ci ildə isə Azərbaycan muğamları "Musiqi mənbələri" seriyasında buraxılıb. 2003-cü ildə Azərbaycan muğamı UNESCO tərəfindən Bəşəriyyətin qeyri-maddi irsinin şah əsəri elan olunub, 2008-ci ildə isə bu sənət xəzinəsi UNESCO-nun "Bəşəriyyətin Qeyri-maddi Mədəni İrsi üzrə Reprezentativ Siyahısı"na daxil edilib.

Mədəniyyət paytaxtımız Şuşada hələ XIX əsrin əvvəllərindən ünlü xanəndələr nəsli muğam ifaçılığı məktəbinin əsasını qoyub. Bütün Qafqazda və İranda tanınmış tarzən və bəstəkarlar Mirzə Əsəd oğlu Sadıqcan, Məşədi Cəmil Əmirov, xanəndələr Mirzə Səttar, Hacı Hüsü, Məşədi İsi, Əbülhəsən xan Azər İqbal, Mirzə Muxtar Məmmədzadə, Cabbar Qaryağdıoğlu, Ələsgər Abdullayev, Əbdülbaqi Zülalov, Ağasəid Ağabalaoğlu, Mirtağı Mirbabayev, Məcid Behbudov, Keçəçi oğlu Məhəmməd və başqaları muğamı layiq olduğu zirvəyə ucaldıblar. Sonrakı dövrlərdə Seyid Şuşinski, Məcid Behbudov, Məşədi Cəmil Əmirov, Zülfü Adıgözəlov, İslam Abdullayev, Xan Şuşinski kimi ifaçıların, XX əsrin 2-ci yarısında isə Sara Qədimova, Arif Babayev, Yaqub Məmmədov, İslam Rzayev, Əlibaba Məmmədov kimi xanəndələr, Qurban Pirimov, Məşədi Zeynal, Bəhram Mansurov, Baba Salahov, Ramiz Quliyev kimi tarzənlər, Mirzə Səttar, Qılman Salahov, Habil Əliyev, Firuz Əlizadə, Tələt Bakıxanov, Şəfiqə Eyvazova kimi kamança ifaçıları bu sənət məktəbinin inkişafı və yaşadılmasını təmin ediblər. Muğamın kamil elmi əsasını qoymuş böyük bəstəkar Üzeyir Hacıbəyli "Leyli və Məcnun" muğam operası ilə milli incəsənətimizin milli-orijinal xüsusiyyətlərini çulğalaşdırıb.

Üzeyir bəyin ardınca bir çox bəstəkarlarımız bu əsasda dəyərli nümunələr yaradıblar. Fikrət Əmirovun "Şur", "Gülüstani-bayatı-şiraz", Niyazinin "Rast", Süleyman Ələsgərovun "Bayatı-şiraz" simfonik muğamları, Vasif Adıgözəlovun "Qarabağ şikəstəsi" oratoriyası bu sıradandır. Vaqif Mustafazadə caz-muğam sintezi ilə əcnəbi dinləyiciləri belə valeh edib.

Beləcə, muğam ənənələrimiz davam edib.

Maraqlı bir fakt: həmkarımız, filologiya üzrə fəlsəfə doktoru, dosent Şəraf Cəlilli yazır ki, 1956-cı ildə görkəmli jurnalist, pedaqoq, Əməkdar elm xadimi Nəsir İmanquliyev Mədəniyyət Nazirliyinin Baş Radio Məlumat İdarəsinin rəisi işlədiyi zaman respublikada ilk dəfə olaraq radioda "Oxu, tar, səni kim unudar" adı altında muğam müsabiqəsi keçirilməsinin təşəbbüskarı olub. Həmin müsabiqənin münsiflər heyətində Səid Rüstəmov, Müslüm Maqomayev, dirijor Niyazi, tanınmış xanəndə, Xalq artisti Xan Şuşinski təmsil olunublar. İştirakçılardan Nəriman Əzimov (tar), Habil Əliyev (kamança), Şövkət Ələkbərova, Rübabə Muradova və başqaları müsabiqədə qalib gəliblər. İki il sonra isə onlar Moskvada keçirilən 2-ci dekadada çıxış edərək uğur qazanıblar.

Hələ ondan 15 il öncə – İkinci Dünya müharibəsi zamanı "Döyüşən Krım" qəzetində məsul katib vəzifəsində çalışarkən, Nəsir İmanquliyev siyasi təbliğatçı kimi, 416-cı Taqanroq diviziyasında vuruşan Azərbaycan əsgərləri ilə mədəniyyət xadimlərimizin görüşlərini təşkil edib. Oraya Xan əmi, Zülfi Adıgözəlov, Seyid Şuşinski, Şövkət xanım və başqaları dəvət olunublar. Dövrün böyük sənətkarları cəbhədə belə onun vasitəsilə Azərbaycan muğamlarının sədaları altında düşmənə qarşı mübarizəyə səfərbər ediliblər.

Həmin vaxtlar respublika rəhbəri olan İmam Mustafayev Nəsir müəllim haqqında yazmışdır: "Dilimizin, tariximizin, mədəniyyətimizin sanballı bilicilərindəndir. Mətbuat məsələlərini, təbliğat-təşviqat işini yüksək səviyyədə bilir. Vətənini, xalqını sevir. Nəsir İmanquliyevin radioda təşkil etdiyi "Muğam müsabiqəsi" zamanında atılan ən ciddi addımlardan idi. O, bununla muğamın əsl sahibinin ünvanını göstərdi. Muğamın beşiyi olan Şuşanın, Qarabağın tarixi sakinlərinin kimliyini sübut etdi".

İllər sonra nəsillərin estafeti qədirbilənliklə davam etdirilib. Nəsir İmanquliyevin nəvəsi olan Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun dəstəyi ilə 2005-ci ildə ilk Televiziya Muğam Müsabiqəsi keçirilib. Bu, genetik kodun yaşaması amili, çox güclü kökə əsaslanan sağlam rişənin pərvəriş tapması və gözəl bəhrələr verməsi deməkdir. Etiraf edək ki, muğamın az qala gözdən salındığı, bayağı musiqilərin meydanı başına götürdüyü bir vaxtda məhz Mehriban xanım Azərbaycan muğam sənətinə sahib çıxıb, ölkədə ilk muğam portalı yaradılıb.

Bugünün məşhur sənətçiləri Təyyar Bayramov, İlkin Əhmədov və Babək Niftəliyev həmin televiziya müsabiqəsinin nəticələrinə görə, müvafiq olaraq ilk üçlükdə qərarlaşıblar. Onlara Heydər Əliyev Fondu və Azərbaycan Mədəniyyətinin Dostları Fondu adından diplomlar, mükafatlar təqdim olunub. Növbəti dəfə isə Elməddin İbrahimov, Güllü Muradova, Ehtiram Hüseynov, Abgül Mirzəliyev, Rəvanə Qurbanova (Ərəbova) və Nasir Ətapur seçiliblər. Qaliblərin qala-konsertini Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva da izləyiblər.

Düz 16 il əvvəl –2008-ci il dekabrın 27-də Bakıda dənizkənarı Milli Parkda qədim musiqi alətlərindən olan tarın hissələrini xatırladan qeyri-adi memarlıq dizaynında Beynəlxalq Muğam Mərkəzi istifadəyə verilib. Daha sonra bölgələrdə də Muğam mərkəzləri yaradılıb. Bu gün ölkəmizin bir çox guşələrində muğam məktəbləri və mərkəzləri fəaliyyət göstərir. Yeni-yeni nəsillər qədim incəsənət növünü dərindən öyrənirlər.

2009-cu il martın 18–25-də Bakıda Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü və bu ictimai qurumun təşkilati dəstəyi ilə dünyada ilk dəfə olaraq, özü də iki nominasiyada – vokal və instrumental ifaçılıq üzrə "Muğam aləmi" ("Space of Mugam") Beynəlxalq Muğam Festivalı keçirilib. Sonra hər iki ildən-bir təşkil olunan festivallarda müxtəlif ölkələrdən tanınmış musiqişünaslar iştirak ediblər. Müxtəlif ölkələrin muğam ifaçıları, Şərqin müxtəlif ənənəvi musiqi sənətkarları Bakıda bir araya gəliblər.

Festivallar çərçivəsində həm Bakıda, həm də bir çox bölgələrdə konsertlər keçirilib, beynəlxalq muğam müsabiqəsi, beynəlxalq elmi simpozium və ustad dərsləri təşkil olunub. Bu gün artıq "Muğam aləmi" festivalları gözəl bir mədəniyyət ənənəsinə çevrilib və beynəlxalq aləmdə möhtəşəm muğam bayramı kimi nüfuz qazanıb. Bu festivallar müxtəlif Şərq musiqi mədəniyyətləri arasında daha bir maraqlı dialoqdur, mədəniyyətlər arasında daha bir mühüm əməkdaşlıq platformasıdır. Eyni zamanda, beynəlxalq muğam bayramları bir daha Azərbaycanı Şərq və Qərb mədəniyyətlərinin qovuşduğu tarixi-mədəni məkan kimi dünyaya tanıdır. Bundan son dərəcə məmnun qalan musiqiçilərimiz nuğama analıq qayğısına görə beynəlxalq festivalların, o cümlədən Beynəlxalq Muğam Müsabiqəsi layihəsinin ideya müəllifi və təşkilatçısı Heydər Əliyev Fonduna, şəxsən fondun prezidenti, Azərbaycanın birinci xanımı, xoşməramlı missiyalar daşıyıcısı Mehriban xanım Əliyevaya hədsiz minnətdarlıq duyğularını ifadə edirlər.



Görünən budur ki, neçə-neçə gənc muğam ifaçısı məhz bu silsilə festivalların sayəsində tanınaraq musiqisevərlərin sevimlisinə çevrilib. Mirələm Mirələmov, Səbinə Ərəbli, Məmməd Nəcəfov, Kamilə Nəbiyeva, Ariz Hüseynov, Nigar Şabanova, Almaxanım Əhmədli və başqaları buna misal ola bilərlər. Onların seçilib qalib kimi tanıdılmasında görkəmli sənətkarlar Arif Babayev, Ağaxan Abdullayev, Aygün Bayramova, Səkinə İmayılova, Mənsum İbrahimov, Fəxrəddin Dadaşov, Mələkxanım Əyyubova, Zabit Nəbizadə, Möhlət Müslümovun obyektivliyi də əsas rol oynayıb.

Ötən il keçirilən 6-cı "Muğam aləmi" 6-cı Beynəlxalq Musiqi Festivalı çərçivəsində Bakının müxtəlif mədəniyyət obyektlərində, həmçinin Şuşanın tarixi məkanlarında müxtəlif tədbirlər – müsabiqə, mühazirə və təqdimatlar, konsertlər, sərgi və simpoziumlar, 24 saat ərzində canlı muğam marafonunun təşkilini hər kəs yaxşı xatırlayır. Müsabiqəyə Azərbaycanla yanaşı, İran, İsrail, Özbəkistan və Türkiyədən ümumilikdə 22 ifaçı, o cümlədən ifaçılıq kateqoriyası üzrə 12, xanəndəlik kateqoriyası üzrə isə 10 ifaçı qatılıb. Azərbaycanı instrumental ifaçılıq kateqoriyası üzrə 5, xanəndəlik kateqoriyası üzrə isə 4 ifaçı təmsil edib. Münsiflərin yekdil rəyinə əsasən, müsabiqənin xanəndəlik kateqoriyasında Qran-pri mükafatına Mohiçehra Şahmurotova (Özbəkistan) layiq görülüb, 1-ci yeri Mirəli Sarızadə (Azərbaycan), 2-ci yeri Daşqın Kürçaylı (Azərbaycan), 3-cü yeri isə Dostmurod Negmurodov (Özbəkistan) tutublar. İnstrumental ifaçılıq kateqoriyasında isə Qran-pri mükafatını Vaqif Təhməzov (Azərbaycan) alıb. Bu kateqoriyada 1-ci yerə Anar Vəlizadə (Azərbaycan), 2-ci yerə Shoxijohan Yoriev (Özbəkistan), 3-cü yerə isə Cahandar Mikayılov (Azərbaycan) sahib olublar.

Söz-sənət beşiyi olan Qarabağ torpağında, erməni işğalından azad edilən Şuşanın məşhur Cıdır düzündə neçə illərdən sonra bərpa edilən "Xarıbülbül" musiqi festivalının əsas təşkilatçısı da Heydər Əliyev Fondu olub. Fond həmin günlərdə Şuşada "Qarabağın mədəni irsi" toplusunu təqdim edib. Bu topluya ədəbiyyat, musiqi, memarlıq sahələrini, xalq sənətkarlığını və xalçaçılıq sənətini əks etdirən 5 nəşr daxildir. Bundan başqa, müasir texnologiyalara əsaslanan və 8 diskdən ibarət "Azərbaycan muğamı" multimedia toplusu canlı tədris vəsaiti kimi hazırlanıb.

Bildiyimiz kimi, muğamın daha geniş təbliği mədəniyyət paytaxtımız Şuşada məşhur xanəndə Seyid Şuşinskinin 100 illik yubileyi ilə əlaqədar 1989-cu ildən Cıdır düzündə "Xarıbülbül" beynəlxalq musiqi festivalının keçirilməsi ilə başlayıb. Ondan bir əsr əvvəl isə Xan qızı Natəvanın Qarabağda yaratdığı "Məclisi üns" dərnəyində xanəndələr də iştirak edib və şairlərin qəzəllərini muğam üstündə avazla səsləndiriblər. Yeri gəlmişkən, qeyd edək ki, Şuşada erməni vandallarının məhv etdikləri bir çox mədəni irs nümunələrimizi, o cümlədən Xurşidbanu Natəvanın, eləcə də qoşma və gəraylı və qəzəlləri dillərdə gəzən Molla Pənah Vaqifin və muğamları böyük məharətlə operaya gətirmiş Üzeyir Hacıbəylinin abidələrini məhz Mehriban xanımın rəhbərlik etdiyi Heydər Əliyev Fondu bərpa edərək, əvvəlki yerlərinə qaytarıb.

Mədəniyyət paytaxtımız Şuşa işğaldan azad ediləndən sonra orada təşkil edilən konsertdə gənc ifaçı Kənan Bayramlı (Əməkdar artist Təyyar Bayramlının oğlu) 7 əsas muğam dəstgahlarından biri olan "Bayatı-Şiraz"ı oxuduğu zaman dövlət başçımızın da, bütün dinləyicilərin də necə təsirləndiyi, xüsusilə də Mehriban xanımın ifanı elə hey başı ilə təsdiqlədiyi indi də gözlərimiz önündədir. Bu faktın özü muğamın hər bir azərbaycanlı üçün, ona qayğısını əsirgəməyən Mehriban xanım üçün necə əziz olduğunu göstərir.

Bu barədə düşündükcə özünün məqsədyönlü fəaliyyətilə Azərbaycan muğamını bəşəriləşdirən Mehriban xanım Əliyevanın bu sənət növü haqqında söylədikləri yadımıza düşür: "Muğam Azərbaycan xalqına xas olan ən gözəl xüsusiyyətlərin daşıyıcısıdır. Torpağa, köklərə bağlılıq, vətənpərvərlik, milli ləyaqət hissi, qonaqpərvərlik, xeyirxahlıq, mərhəmət, emosional zənginlik – bütün bu hisslər muğam fəlsəfəsinin əsasındadır... Biz muğamı gələcək nəsillərə qəlbimizin və ruhumuzun bir hissəsi kimi miras qoyuruq".

Özünəməxsus fəlsəfi yanaşmadan da göründüyü kimi, muğam hər hansı bir musiqi xadiminin bəstələyib dövriyyəyə buraxdığı adi bir musiqi parçası deyil. Bu, insan ruhunu oxşayan, onun varlığına çeşidli yönlərdən ecazkar təsir göstərə bilən nadir bir vasitədir. Klassik poeziya ilə qoşa qanad olan muğamın dərinliklərinə vardıqca, Nizami, Füzuli, Nəsimi, Seyid Əzim Şirvani, Vahidin poetik ruhuna daldıqca insan sehrli bir aləmə düşür, saflaşır, humanistləşir. Elə muğama xas olan əsas fenomen də məhz budur ki, o, əsrlər boyu insanı müşayiət edib, dünən, bu gün və sabah arasında körpü rolu oynayıb.

Mehriban xanımın muğama göstərdiyi analıq qayğısının, bu yöndə reallaşdırdığı fəaliyyətin nəticəsidir ki, son illər muğam ifaçılığı ən müxtəlif aspektlərdən hərtərəfli dəstək alaraq, sözün əsl mənasında, intibah dövrünü yaşayır.

***Əli NƏCƏFXANLI***
***XQ***

# Nüfuza çevrilən ümumxalq sevgisi

## Heydər Əliyev Fondunun ölkə uşaqlarına sevinc töhfəsi







### Bakı

**Avqustun 26-da torpaqlarımızın işğaldan azad edilməsi uğrunda mübarizədə qəhrəmancasına həlak olmuş şəhidlərimizin övladları üçün Heydər Əliyev Fondunun təşkilatçılığı və “Dəniz Mall”un dəstəyi ilə tədbir keçirilib.**

Səhidlərimizin bizə əmanəti olan övladları həmin məkanda təşkil edilən əyləncələrdən zövq alıb, müxtəlif oyun aparatlarında, kartinq, boulinq, leqo meydançası və digər əyləncə məkanlarında oynayıb, rəqslərə qoşulublar.

Uşaqlar bu günün təəssüratını birgə nahar süfrəsi arxasında paylaşıblar.

“Dəniz Mall”da keçirilən tədbirlə bağlı təəssüratlarını bölüşən şəhid Elnur Xəlilovun qızı Mələk Xəlilova burada çox əyləndiyini söyləyib. O, belə gözəl tədbirə qatıldığı üçün özünü çox sevincli hiss etdiyini deyib.

Şəhid Qara Balakişiyevin qızı Xədicə Balakişiyeva isə bildirib: “Bura mənim çox xoşuma gəldi. Dostlarımızla gözəl vaxt keçirdik. Maraqlı gün oldu. Buradakı attraksionlar çox əyləncəlidir”.

Tədbirlərin yekununda gözəl istirahət günündən xatirə olaraq hər bir uşağa Heydər Əliyev Fondunun hədiyyələri təqdim edilib.

### Gəncə

**Avqustun 26-da Heydər Əliyev Fondu xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün şənliklər təşkil edib.**

Əyləncə tədbirlərindən biri Gəncədəki 4 saylı Uşaq evi sosial xidmət müəssisəsində keçirilib. Şənlikdə DJ-lərin, animatorların iştirakı ilə müxtəlif əyləncə və şou proqramlar təqdim edilib, maraqlı müsabiqələr, idman estafetləri və oyunlar keçirilib.

### Şəki

**Avqustun 26-da Heydər Əliyev Fondunun uşaqlar üçün keçirdiyi növbəti şənliyin ünvanı Şəki şəhəri olub.**

Fondun Şəkidə 6 saylı Uşaq evi sosial xidmət müəssisəsində təşkil etdiyi şənlikdə azyaşlılar və yeniyetmələr müxtəlif oyunlar və müsabiqələr vasitəsilə bacarıq və qabiliyyətlərini nümayiş etdirib, yay ovqatlı yaddaqalan bir gün keçiriblər. Təşkil edilən oyunlar - “Xəzinə ovu”, “Balonlu estafet”, “Sehrbaz” şou və digərləri uşaqların həm istirahətinin səmərəli təşkilinə, həm də inkişafına bir töhfə olub.

***

Qeyd edək ki, Heydər Əliyev Fondunun gördüyü işlər sırasında valideyn himayəsindən məhrum, eləcə də xüsusi qayğıya ehtiyacı olan uşaqların, həmçinin şəhidlərimizin övladlarının diqqətdə saxlanılması, onların hərtərəfli qayğı ilə əhatə edilməsi xüsusi yer tutur. Fond uşaqlar üçün mütəmadi olaraq tədbirlər keçirir, onların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində səylərini əsirgəmir.

# Dost qədirbilənliyinin Pakistan əks-sədası

**Pakistanın aparıcı kütləvi informasiya vasitələri Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun qardaş ölkədə çoxşaxəli humanitar fəaliyyətindən bəhs edən məqalələr dərc edib.**



Soon From LAHORE & KARACHI A sister publication of CENTRELINE & DNA News Agency www.islamabadpost.com.pk ISLAMABAD EDITION

Daily Islamabad POST

Friday, August 23, 2024 Pakistan's Credible Daily Newspaper Price Rs. 30

COAS cautions students against perils of fake news in digital age
Detailed News On Page-08

No nuclear arms race with US: China
Detailed News On Page-07

Saud Shakeel slams new Asian record
Detailed News On Page-06

**Heydar Aliyev foundation enhances welfare in Pakistan**

One of the notable initiatives by the Heydar Aliyev Foundation in Pakistan was the vaccination campaign against the hepatitis B virus in Khyber-Pakhtunkhwa and Punjab provinces

DNA

ISLAMABAD : The Heydar Aliyev Foundation, under the leadership of Azerbaijan's First Lady Her Excellency Mrs. Mehriban Aliyeva, has made significant contributions to the welfare and development of communities in need, not only in Azerbaijan but also in various friendly countries, including brotherly Pakistan. Through a wide range of projects and charity programs, the Foundation has played a crucial role in enhancing healthcare, education, and social services in Pakistan, thereby strengthening the bond between the two brotherly nations. One of the notable initiatives by the Heydar Aliyev Foundation in Pakistan was the vaccination campaign against the hepatitis B virus in Khyber-Pakhtunkhwa and Punjab provinces, which aimed to im-...

...geries were performed, has undoubtedly saved numerous lives and improved access to quality healthcare services. The donation of an ambulance equipped with modern blood transfu-...

...children with better learning environments and educational opportunities. Moreover, the Foundation's support for the Thalassemia Center in Islamabad and the Al-Farabi Special...

...of electricity infrastructure, has improved access to clean water and reliable electricity for local communities, thereby enhancing their quality of life. The Foundation's humanitarian efforts...

...inclusion. Overall, The Heydar Aliyev Foundation's extensive humanitarian work in Pakistan, spanning healthcare, education, infrastructure development, and social welfare, has had a profound impact on the lives of countless individuals and communities. Through its unwavering dedication to serving those in need, the Foundation has strengthened the ties between brotherly Azerbaijan and Pakistan. It should be noted that the exemplaryabove-mentioned worksof the Heydar Aliyev Foundation in Pakistan have not gone unnoticed, earning accolades and recognition for its outstanding contributions to society. In 2013, H.E. Mrs. Mehriban Aliyeva was honored with the "Martyr Benazir Bhutto Woman Perfection Prize – 2013," a testament to her unwavering commitment to humanitarian causes. Subsequently, in 2015, she was awarded...

Pakistanın nüfuzlu “İslamabad Post” qəzetinin birinci səhifəsində baş məqalə kimi dərc olunmuş “Heydər Əliyev Fondunun Pakistanda humanitar izləri” sərlövhəli məqalədə qeyd olunub: “Heydər Əliyev Fondu Azərbaycanın birinci xanımı, Zati-aliləri Mehriban xanım Əliyevanın rəhbərliyi ilə təkcə Azərbaycanda deyil, müxtəlif dost ölkələrdə, o cümlədən qardaş Pakistanda ehtiyacı olan icmaların rifahına və inkişafına mühüm töhfələr verib.

Məqalənin müəllifi qeyd edib ki, Heydər Əliyev Fondunun Pakistandakı diqqətəlayiq təşəbbüslərindən biri əhalinin sağlamlığını yaxşılaşdırmaq və yoluxucu xəstəliklərin yayılmasının qarşısını almaq məqsədi daşıyan Hayber-Paxtunxva və Pəncab əyalətlərində hepatit B virusuna




qarşı peyvənd kampaniyası olub. Bundan əlavə, Fond xüsusi ehtiyacı olan və məhdud fiziki imkanlı şəxslərə dəstək olmaq öhdəliyini nümayiş etdirərək, Peşəvərdəki “Əkbər Baxım” Serebral İflic İnstitutunda pulsuz müayinə təşkil edib.

Pakistanın daha bir geniş oxucu kütlərinə malik olan “Herald Star” nəşrində dərc olunan məqalədə diqqətə çatdırılıb ki, Heydər Əliyev Fondunun Pakistandakı tibb müəssisələrinə, məsələn, açıq ürək əməliyyatlarının aparıldığı İslamabaddakı Kulsum Xəstəxanasına göstərdiyi dəstək çoxsaylı insanların həyatını xilas edib və keyfiyyətli səhiyyə xidmətlərinə çıxışı yaxşılaşdırıb. Qəzet vurğulayıb: “Müasir qanköçürmə avadanlığı ilə təchiz olunmuş təcili tibbi yardım maşınının Həmzə Xeyriyyə Fonduna bağışlanması Fondun regionda təcili tibbi yardım xidmətlərinin və qanköçürmə imkanlarının genişləndirilməsi istiqamətində səylərini vurğulayır”.

“Pakistan in the World” və “PakeCo-net” nəşrləri də Azərbaycanın birinci xanımının rəhbərlik etdiyi Heydər Əliyev Fondunun Pakistanda həyata keçirdiyi təhsil və səhiyyə layihələrindən yazıb. Məqalədə qeyd olunub: “Təhsil Heydər Əliyev Fondunun Pakistandakı təşəbbüslərinin diqqət mərkəzində olub. 2007-ci ildə Pakistandakı zəlzələdən sonra Müzəffərabadda qızlar üçün Rara Liseyinin tikintisi kimi layihələr uşaqlara daha yaxşı tədris mühiti və təhsil imkanları təmin edib. Bundan əlavə, Fondun İslamabaddakı Talassemiya Mərkəzinə, həmçinin paytaxtdakı Əl-Fərabi adına Fiziki Qüsurlu Uşaqlar üçün Xüsusi Təhsil Mərkəzinə göstərdiyi dəstək xüsusi qayğıya ehtiyacı olan şəxslərin həyatına müsbət təsir göstərib”.

“DailyIttehad”, “World News”, “Diplomatic News Agency” xəbər portallarında Heydər Əliyev Fondunun humanitar səylərinin Pakistandakı müxtəlif sosial rifah institutlarını, o cümlədən əlillər üçün uşaq evləri və mərkəzlərini əhatə etdiyi qeyd olunur. Portalların dərc etdiyi məqalədə deyilir: “Pakistanın Beyt-ul-Maal Anemiya Mərkəzinin təmiri və avadanlıqla təchiz edilməsi üçün maliyyə yardımı göstərən, eləcə də Lahordakı “Edhi Homes” uşaq evində tədbirlər təşkil edən Fond, eyni zamanda, əhalinin həssas təbəqəsinə dəstək vermək və sosial inklüzivliyi təşviq etmək öhdəliyini nümayiş etdirib”.

Məqalələrdə diqqətə çatdırılıb ki, Heydər Əliyev Fondunun Pakistanda səhiyyə, təhsil, infrastrukturun inkişafı və sosial rifahı əhatə edən geniş humanitar fəaliyyəti saysız-hesabsız fərdlərin və icmaların həyatına dərin təsir göstərib. Fond ehtiyacı olan insanlara xidmət etmək üçün böyük fədakarlıq göstərərək, həm də qardaş Azərbaycan ilə Pakistan arasında əlaqələri daha da möhkəmləndirib.

“The Gulf Observer”, “The Europe Today” informasiya portalları Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Pakistanda həyata keçirilən layihələrdən bəhs edərək yazıb: “Qeyd edək ki, Heydər Əliyev Fondunun Pakistanda nümunəvi işləri diqqətdən kənarda qalmayıb, onun rəhbəri cəmiyyətə verdiyi görkəmli töhfələrə görə təqdir və rəğbət qazanıb. Mehriban xanım Əliyevanın “Şəhid Benazir Bhutto Qadın Mükəmməlliyi Mükafatı – 2013”ə layiq görülməsi onun humanitar işlərə böyük sadiqliyinin göstəricisidir. Daha sonra, 2015-ci ildə Azərbaycan ilə Pakistan arasında əlaqələrin möhkəmləndirilməsində göstərdiyi müstəsna səylərə görə Fondun rəhbəri Pakistanın dövlət mükafatı olan nüfuzlu “Hilal-e-Pakistan” ordeni ilə təltif edilib. Bu mötəbər mükafatı alan ilk birinci xanım olan Zati-aliləri Mehriban xanım Əliyeva beynəlxalq əməkdaşlığın və xoşməramlılığın gücləndirilməsi istiqamətində fədakar səylərini davam etdirir”.



مهريبان علييفا..
شخصية نموذجية للشعب الأذربيجاني

منذ أيامها الأولى في الحياة العامة كانت مهريبان علييفا منارة للعمل الإنساني

بصفتها رئيسة لمؤسسة حيدر علييف قادت مبادرات لتحسين حياة مواطنيها

# Azərbaycan Birinci xanımının humanitar fəaliyyəti ərəb mediasında

**Ərəb ölkələrinin aparıcı kütləvi informasiya vasitələri Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevaya həsr olunmuş məqalələr dərc edib.**

Birləşmiş Ərəb Əmirliklərinin “Əl-Bəyan” qəzetində dərc olunan “Mehriban Əliyeva: Azərbaycan xalqının nümunəvi insanı” sərlövhəli məqalədə qeyd edilir ki, Mehriban Əliyeva ictimai fəaliyyətinin ilk günlərindən humanitar məsələlərə xüsusi diqqət yetirib. O, ölkə vətəndaşlarının rifah halını yaxşılaşdırmaq üçün saysız-hesabsız təşəbbüslərə rəhbərlik edib.

Məqalədə vurğulanır: “Azərbaycanın birinci xanımı və Birinci vitse-prezidenti Mehriban Əliyevanın mənalı ömür yolu və tükənməz enerjisi, xeyirxahlığı, insanlara göstərdiyi şəfqət və mərhəməti, həmçinin öz xalqına və dövlətinə fədakar xidməti xüsusi qeyd olunmalıdır”. Qəzet yazır ki, Azərbaycanın birinci xanımı həm də qayğıkeş bir həyat yoldaşı və ana kimi bütün qadınlara nümunədir”.

Geniş oxucu kütləsinə malik olan “Arab-countries” xəbər portalında dərc olunan məqalədə bildirilir ki, Mehriban xanım Əliyeva intellektual və mədəni ənənələri yaşadan ziyalı ailəsində dünyaya gəlib. Atası görkəmli alim, anası isə tanınmış filoloq olan Azərbaycanın birinci xanımı təhsilə, mədəniyyətə və ictimai fəaliyyətə qayğı və diqqət göstərilməsi üzrə ailə ənənələrini davam etdirib. Eyni zamanda, Mehriban xanımın Moskvada Seçenov adına Tibb Universitetində aldığı tibb təhsili də onun humanitar sahədə fəaliyyətində mühüm rol oynayıb.

“Pantimearabia”, “Tuvaq”, “Aqram”, “Dubaihospitality”, “Dubainews”, “Observer-Dubai”, “Qlobal Dubai” informasiya portallarında dərc olunan məqalədə isə Mehriban xanım Əliyevanın Heydər Əliyev Fondunun rəhbəri kimi çoxşaxəli ictimai və humanitar fəaliyyətindən bəhs edilib.

“Abdae-alaelami” portalında dərc edilən məqalədə diqqətə çatdırılıb ki, Mehriban xanım Əliyevanın ən mühüm nailiyyətlərindən biri Azərbaycanda səhiyyə xidmətlərinin təkmilləşdirilməsidir.

Bundan əlavə, Mehriban Əliyeva təhsilə böyük önəm verib. O, şagirdlərin müasir, yaxşı təchiz olunmuş təhsil mühitinə çıxışını təmin edərək, Azərbaycanda yüzlərlə məktəbin tikintisi və təmiri təşəbbüslərinə rəhbərlik edib”.

“Hayatty-2.day” informasiya portalında isə Mehriban xanım Əliyevanın mədəni irsin qorunması və dünyada təbliği istiqamətində fəaliyyətinə xüsusi diqqət yetirilib. “Gulftech-news”, “Safar-news”, “vdlnews.com” informasiya portallarında dərc olunan məqalələrdə də Mehriban xanım Əliyevanın Azərbaycanın ictimai-siyasi həyatındakı rolundan, o cümlədən onun Heydər Əliyev Fondunun prezidenti kimi təhsil, səhiyyə, mədəniyyət, sosial məsələlər və digər sahələrdə çoxşaxəli fəaliyyətindən bəhs edilib.

Məqalələrdə, həmçinin Azərbaycanın birinci xanımının şəxsi insani keyfiyyətlərinə də geniş yer verilib. Diqqətə çatdırılıb ki, uğurlu dövlət xadimi olan Mehriban Əliyeva, həm də qayğıkeş, mərhəmətli və mehriban bir ailə xanımı, peşəkar və şəxsi həyatını ahəngdar şəkildə birləşdirən Azərbaycan qadınının təcəssümüdür.

Ərəb mediası qeyd edib ki, hazırda parçalanma və çəkişmələrin hökm sürdüyü qlobal şəraitdə Mehriban xanım Əliyevanın humanitar fəaliyyət sahəsinə göstərdiyi böyük diqqət, xeyirxahlıq və mərhəmət nümunəsi Azərbaycanın birinci xanımına xalq arasında dərin hörmət və rəğbət qazandırıb, gənc nəslin nümayəndələrini daha ədalətli və şəfqətli dünya düzəni quruculuğu istiqamətində səy göstərməyə ruhlandırıb.

# Azərbaycandan Avropaya “mavi” dəhliz

**Son illər Avropa məkanı təbii qaza olan tələbatının ödənilməsində ölkəmizi əsas tədarük bazarı kimi görür. Bu isə Cənub Qaz Dəhlizinin sonuncu seqmenti sayılan Trans-Adriatik Qaz Boru Kəmərinin (TAP) genişləndirilməsini, eləcə də yeni interkonnektorların tikintisini labüd edir. Artıq gələn aydan etibarən TAP-ın genişləndirilməsi çərçivəsində infrastruktur işlərinə başlanılacaq.**




Bu barədə sözügedən kəmərin operatoru olan TAP AG boru kəməri şirkəti məlumat yayıb. Qeyd olunub ki, işlərin aparılması TAP-ın Trans-Anadolu Qaz Boru Kəmərinə (TANAP) birləşdiyi Yunanıstan – Türkiyə sərhədindəki Kipoidə planlaşdırılır. Məlumata əsasən, boru kəmərinin tutumunu ildə 1,2 milyard kubmetr artırmaq üçün 2021-ci ildə məcburi bazar sınaqlarının birinci mərhələsi uğurla başa çatdıqdan sonra TAP-ın genişləndirilməsi layihəsi çərçivəsində sentyabrın 19-dan 30-dək Kipoi birləşmə nöqtəsində infrastruktur işləri planlaşdırılıb.

Bu müddət ərzində TAP AG şirkəti birləşmə nöqtələrində mövcud imkanlardan maksimum istifadə etməyi, eyni zamanda ağıllı və ehtiyatlı operator kimi çıxış etməyi planlaşdırır. “Bununla əlaqədar, sentyabrın 17-dən oktyabrın 1-dək gözlənilən Kipoinin texniki imkanları sutkada 349 milyon 887 min 515 kilovat-saat, Melenduqno birləşmə nöqtəsində isə sutkada 290 milyon 866 min 796 kilovat-saat təşkil edəcək. Hazırda TAP-a birləşmə nöqtələrində tutum məhdudiyyəti yoxdur”, – deyə məlumatda bildirilib.

Xatırladaq ki, 2021-ci ildə bazar sınaqlarının nəticələrinə əsasən, TAP-ın səhmdarları 2026-cı il yanvarın 1-dək kəmərin illik ötürücülük gücünü 10 milyard kubmetrdən əlavə olaraq 1,2 milyard kubmetrə artırmaq barədə öhdəlik götürüb. TAP AG-nin icraçı direktoru Luka Skiepatti deyib ki, bu, genişləndirmə layihəsinin ilk mərhələsidir və TAP-ın öz vəsaiti hesabına maliyyələşdirilir. Yeri gəlmişkən, şirkət rəhbəri əvvəllər mətbuata verdiyi açıqlamasında bildirmişdi ki,TAP-ın ötürmə gücü mərhələlərlə artırıla bilər və son nəticədə illik ən azı 20 milyard kubmetrə çatdırılacaq. Onun sözlərinə görə, layihənin büdcəsi təxminən 132 milyon avrodur. Genişləndirmənin ilk mərhələsi çərçivəsində Kipoidakı mövcud kompressor stansiyasına daha bir kompressor qurğusu əlavə ediləcək və avadanlıq yenilənəcək.

Yeri gəlmişkən, Avropanın enerji xəritəsinin zənginləşdirilməsinə mühüm töhfələr verən Trans-Adriatik Qaz Boru Kəməri layihəsi 11 il əvvəl həyata vəsiqə alıb. Kəmərin tikintisi 2020-ci ilin oktyabrında başa çatdırılıb. TAP-ın ümumi uzunluğu 878 kilometr təşkil edir ki, bunun da 550 kilometri Yunanıstanın şimal hissəsindən, 215 kilometri Albaniya ərazisindən, 105 kilometri Adriatik dənizinin dibi ilə, 8 kilometri isə İtaliya ərazisindən keçir. Azərbaycan qazının TAP vasitəsilə İtaliya, Yunanıstan və Bolqarıstandakı istehlakçılara tədarükünə isə 2020-ci il dekabrın 31-dən başlanılıb. Bununla da, ölkəmiz tarixdə ilk dəfə öz təbii qazını boru kəmərləri ilə Avropa bazarına çıxarmağa nail olub. Eyni zamanda, dünyada təbii qazın ən iri idxalçısı olan Avropa bazarına birbaşa çıxışla Azərbaycan, həm də öz ixrac imkanlarını şaxələndirmək imkanı əldə edib.

Xəzər regionu ilə Avropa qitəsi arasında vacib enerji körpüsü rolunu oynayan Cənub Qaz Dəhlizinin sonuncu seqmenti olan TAP kəməri Azərbaycanı Avropa İttifaqının mötəbər enerji tərəfdaşına çevirib. Təkcə onu qeyd etmək kifayətdir ki, ötən 3 il yarım ərzində sözügedən kəmərlə 37,53 milyard kubmetrdən çox qaz nəql olunub. Onun da 31,33 milyard kubmetri İtaliyaya, 3,63 milyard kubmetri Yunanısta, 2,29 milyard kubmetri isə Bolqarıstana tədarük edilib.

TAP öz fəaliyyətini cari ilin ötən dövründə də uğurla davam etdirib. Energetika Nazirliyinin məlumatına görə, bu ilin 7 ayı ərzində Azərbaycandan xaricə qaz satışı, təxminən, 14,7 milyard kubmetr təşkil edib ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 5,7 faiz çoxdur. “Mavi yanacağ”ın təqribən 7,5 milyard kubmetri (13,6 faiz artım) məhz TAP vasitəsilə Avropaya ixrac olunub.

## Ekspert rəyi

**İlham ŞABAN,**
**Neft Araşdırmaları Mərkəzinin rəhbəri**



Trans-Adriatik Boru Kəməri Azərbaycan qazının böyük bazarlara çıxarılmasını təmin edən infrastrukturdur. TAP-ın ərsəyə gəlməsində ölkəmizin çox böyük rolu olub. 2013-cü ildə boru kəmərinin tikintisi ilə bağlı imzalanmış müqavilənin iştirakçıları olan təsisçi şirkətlərin 60 faizinin məhz Azərbaycandakı hasilatçıların təşkil etməsi də bunu təsdiqləyir. Hazırda TAP-ın ötürücülük gücü 11,8 milyard kubmetrdir. Bu gücə daxili resurslar hesabına nail olunub.

Qeyd etmək istəyirəm ki, Avropa İttifaqının qaz hasilatının artırılması, Cənub Qaz Dəhlizinin genişləndirilməsi kimi layihələrə investisiya yatırmaq, ucuz kreditləşməyə şərait yaratmaq niyyətində olmadığını anlayan rəsmi Bakı başqa yol seçib. Məlum olduğu kimi, bu ilin iyununda SOCAR-la Türkiyənin BOTAŞ şirkəti ilə bir neçə müqavilə imzalanıb. Onlardan biri də həm Azərbaycanın, həm də üçüncü ölkənin qazının Türkiyə ərazisindən tranzit nəqlinə dair olub.

Sonradan açıqlanan məlumatlar göstərdi ki, müqavilə Türkiyə üzərindən qazın Türkiyə–Bolqarıstan interkonnektoru vasitəsilə nəqlini nəzərdə tutur. Bu interkonnektorun hazırda nəql gücü ildə 3,5 milyard kubmetrdir. Artıq Azərbaycan öz qazının bir hissəsini bu kəmərlə Avropaya nəql edir. Ona görə də Azərbaycan Energetika Nazirliyinin Avropaya qaz ixracına dair göstəriciləri ilə TAP-la nəql həcminə dair göstəricilər arasında fərq yaranır. Artıq həmin fərq 500–600 milyon kubmetrə çatıb. Bu fərq o deməkdir ki, biz alternativ yolla Avropaya qaz ixracını həyata keçirməyə başlamışıq. Bu addım bizə əlavə xərc çəkmədən Avropaya qaz nəqlini artırmaq, qaz ixracı coğrafiyasını genişləndirmək imkanı yaradır.

Yeri gəlmişkən, Azərbaycan Prezidenti İlham Əliyev demişdi ki, 2027-ci ilədək Azərbaycan Avropaya qaz nəqlini minimum 16 milyard kubmetrə çatdıracaq. Məlumdur ki, 2026-cı ilin sonunadək TAP-ın ötürücülük gücü 13 milyard kubmetrə çatdırılacaq. Bütün bunlar onu göstərir ki, Azərbaycan öz məhsulunu əlverişli bazarlara çıxarmaq üçün imkanlar əldə etməkdə çətinlik çəkmir. Bir məsələni də vurğulamaq lazımdır ki, Avropaya ixracın artması ucuzlaşma nəticəsində qaz satışından gəlirlərin azalmasını qismən kompensasiya edə bilir.

# Aqrar sahənin ixrac imkanları genişlənir

***7 ayda xarici ölkələrə 540 milyon dollar dəyərində kənd təsərrüfatı məhsulları satılıb***

**Bu ilin 7 ayında ölkəmizdə kənd təsərrüfatı məhsullarının ümumi istehsal həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə 0,8 faiz artıb. Artım daha çox bitkiçilik və heyvandarlıq sahələrində nəzərə çarpıb. Müqayisə olunan dövrdə bitkiçilikdə 0,2 faiz, heyvandarlıqda isə 1,5 faiz artım qeydə alınıb.**



Bundan əlavə, yanvar – iyul aylarında kənd təsərrüfatı məhsullarının ümumi istehsal həcminin dəyəri 7,5 milyard manat təşkil edib ki, bunun da 48,9 faizi heyvandarlıq sahəsinin, 51,1 faizi isə bitkiçilik sahəsinin payına düşüb. Hesabat dövründə kənd təsərrüfatı, meşə və balıqçılıq sahələrində yaradılan əlavə dəyər isə Ümumi Daxili Məhsulun 6 faizini təşkil edib.

Hazırda aqrar sektorda ixracyönümlü və rəqabətədavamlı kənd təsərrüfatı məhsullarının istehsalının dövlət tərəfindən dəstəklənməsi, bu sahənin inkişafına subsidiyaların ayrılması məhsulların xarici bazarlara ixracının artmasını gerçəkləşdirir. Kənd Təsərrüfatı Nazirliyi Aqrar Tədqiqatlar Mərkəzinin direktor müavini Namiq Şalbuzovun mediaya bildirdiyinə görə, cari ilin 7 ayında Azərbaycandan xarici ölkələrə 540 milyon ABŞ dolları dəyərində (ötən ilin müvafiq dövrü ilə müqayisədə 8,5 faiz çox) kənd təsərrüfatı və emal məhsulları ixrac olunması da vurğulanan fikrin bariz ifadəsidir. Kənd təsərrüfatı məhsullarının ixrac həcminin 8,5 faiz artması isə ixrac dinamikasının növbəti aylarda da davam edəcəyini deməyə əsas verir. Xüsusilə də, əsas ixrac məhsullarından olan fındıq, xurma, nar, alma və digər meyvələrin yığım dövrünün hələ qarşıda olduğunu nəzərə alsaq, ixrac göstəricilərinin daha da artacağını əminliklə söyləmək olar.

Namiq Şalbuzovun sözlərinə görə, hesabat dövründə respublikadan xarici ölkələrə ixrac olunan kənd təsərrüfatı məhsulları sırasında pomidor, xurma, tütün xammalı, pambıq məhsulu xüsusi yer tutub. Cari ilin yanvar–iyul aylarında xarici bazarlara pomidor ixracının məbləğində 12,2 faiz, xurmada 1,9 dəfə, tütün xammalında 4,5 dəfə, pambıq mahlıcında 1,6 dəfə artıb qeydə alınıb.

Cari ilin yanvar–iyun aylarında ötən ilin müvafiq dövrü ilə müqayisədə diri çəkidə ət istehsalının 1,3 faiz, südün 0,5 faiz, yumurtanın 6,2 faiz, şəkər çuğundurunun 2,4 dəfə, meyvə və giləmeyvənin 5,1 faiz, bostan məhsullarının 10,3 faiz və tərəvəz məhsulları istehsalının 0,2 faiz artması isə ölkədə aqrar sektora dövlət dəstəyinin diqqətdə saxlanılmasının nəticəsidir.

Aqrar Tədqiqatlar Mərkəzinin direktor müavini daha sonra bildirib ki, qlobal iqlim dəyişikliklərinin bütün dünyada olduğu kimi, ölkəmizin də kənd təsərrüfatına mənfi təsirləri artmaqdadır. Buna rəğmən dayanıqlı əkinçilik praktikasının tətbiqinin ildən-ilə genişləndirilməsi, torpaq və su resurslarından səmərəli istifadənin dövlət dəstəyi mexanizmləri hesabına artırılması iqlim dəyişikliklərinin kənd təsərrüfatına mənfi təsirini minimuma endirir. Xüsusilə də, subsidiyaların verilməsi, kənd təsərrüfatı texnikalarının və damazlıq heyvan alışına dövlət tərəfindən güzəşt vəsaitinin ayrılması istehsalın daha təminatlı, xarici təsirlərə daha dözümlü formada təşkilinə öz töhfəsini verir.

Bütün bunlarla yanaşı, yanacaq və motor yağlarının, mineral gübrələrin, pestisidlərin, pambıq və şəkər çuğundurunun satışına, toxum və tinglərin istehsalına görə subsidiyaların ayrılması da aqrar sektorda dinamik inkişafı şərtləndirib.

Son illər respublikada aqrar sahədə istehsal vasitələrinin əldə olunmasına tətbiq olunan güzəştlər də diqqət mərkəzində saxlanılıb. Bu güzəştlər çərçivəsində bir sıra texnika və texnoloji avadanlıqların ölkəyə idxalı rüsumdan azad edilib, satışı subsidiyalaşdırılıb. Məsələn, fermer tərəfindən texnikanın ilkin dəyərinin 20 faizi ödənildikdə, büdcə vəsaiti hesabına idxal dəyərinin 40 faizi həcmində güzəşt edilib. Eləcə də müasir suvarma sistemləri dəsti və avadanlığının, soyuducu anbar və avadanlıqların alışına dövlət büdcəsi hesabına 40 faiz güzəşt olunub.

Hazırda ölkəyə idxal edilən, həmçinin yerli damazlıq təsərrüfatlardan satılan safqanlı cins damazlıq heyvanların qiymətinin 60 faizi dövlət büdcəsi hesabına subsidiyalaşdırılır, lizinq yolu ilə güzəştli satışı həyata keçirilir, yerli heyvanların cins tərkibinin yaxşılaşdırılması məqsədilə süni mayalanma yolu ilə alınan hər buzova görə 100 manat, hər arı ailəsinə görə 10 manat məbləğində subsidiya verilir.

Həmçinin torpaq-iqlim potensialından və su ehtiyatlarından daha səmərəli istifadəni stimullaşdırmaq, ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsinin yüksəltmək üçün Azərbaycan Respublikası Prezidentinin 2022-ci il iyulun 9-da imzaladığı “Ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsinə dair bir sıra tədbirlər haqqında” Fərmanla yeni dəstək mexanizmi yaradılıb. Bu mexanizmə görə artıq cari ildən pivot suvarma tətbiq edilməklə istehsal olunaraq Dövlət Ehtiyatları Agentliyinə və un dəyirmanlarına təhvil verilən ərzaqlıq buğdaya görə məhsul subsidiyasının da ödənilməsinə başlanılıb.

Aqrar sahəyə göstərilən dövlət dəstəyinin nəticəsi olaraq son illərdə texnika parkının yenilənməsi və aqrotexniki xidmətlərə əlçatanlığın, toxum, gübrə və pestisid kimi istehsal vasitələri ilə təminat səviyyəsi artıb, kənd təsərrüfat sahəsinin infrastruktur və təchizat bazası genişlənib.

Ölkə Prezidentinin 2021-ci il 2 fevral tarixli “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”in təsdiq edilməsi barədə Sərəncamından irəli gələrək hazırlanan “2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nda əsas fəaliyyət istiqamətlərindən biri də dayanıqlı və rəqabətli kənd təsərrüfatının və aqrobiznesin inkişaf etdirilməsidir. Bu sənəddə müəyyənləşdirilən fəaliyyətlərin uğurlu icrası nəticəsində kənd yerlərində rifahın yüksəlməsinə töhfə verən rəqabətqabiliyyətli aqrar istehsal, emal, satış, o cümlədən müasir texnologiyaların tətbiqi ilə kənd təsərrüfatında məhsuldarlıq artır, həmçinin yeni iş yerlərinin yaradılması davamlı xarakter alır.

# Mingəçevirdə ölkənin ən böyük elektrik stansiyası tikilir

***Yeni obyektə İtaliyadan güc qurğuları gətirilib***

**“AzərEnerji”nin Mingəçevir şəhərində tikdiyi ölkənin ən böyük elektrik stansiyası üçün İtaliyadan gəmi ilə bir dəst turbin və generator da gətirilib. Hər birinin çəkisi 300 tondan artıq olan həmin qurğular Bakıda ağır tonnajlı kranlarla xüsusi daşınma qoşqularına yüklənib.**

Yükün hündürlüyü 6 metr olduğundan Mingəçevirə qədər körpülərin altı qazılaraq keçid açılıb. Ümumi gücü 1880 meqavat olan yeni elektrik stansiyasında yerinə qoyulan avadanlıqların dərhal quraşdırılmasına başlanılıb. Yeni elektrik stansiyasında 4 ədəd turbin və generator olmalıdır ki, onlardan artıq 3 dəsti gətirilib və son dəst turbin-generator da yaxın vaxtlarda ölkəyə çatdırılacaq.



Hazırda İtaliyadan gəmi ilə gətirilən sonuncu turbin və generatorun gələn ay Bakıya çatdırılacağı nəzərdə tutulub. Çindən yola salınan 8 transformator isə artıq Bakıya çatdırılıb. Bundan başqa util qazanın hissələri yüklənən sonuncu gəmi bir neçə günə Poti limanına çatacaq və avadanlıqlar Mingəçevirə daşınacaq.

Qeyd edək ki, gücünə görə ölkənin ən böyük elektrik stansiyası olacaq bu enerji obyekti son illərdə sürətlə yaradılan bərpaolunan enerji mənbələrinin enerjisistemə inteqrasiyasının əks təsirlərinin balanslaşdırılması, enerji istehsalında təbii qaza qənaət edilməsi, iqlim dəyişiklikləri ilə bağlı baş verən kataklizmlərin qarşısının alınması, eləcə də ətraf mühitin qorunması baxımından xüsusi önəm daşıyır.

“AzərEnerji” tərəfindən yeni tikilən stansiyanın şərti yanacaq sərfiyyatı “Azərbaycan” İES-in digər blokları ilə müqayisədə hər kilovat–saat üçün 120 qram azalmaqla 225 qram təşkil edəcək ki, bununla da illik 1,2 milyard kubmetr təbii qaza qənaət ediləcək, eyni zamanda ətraf mühitə atılan karbon qazının miqdarı 2 milyon ton azalacaq.

Sonda xatırladaq ki, BMT-nin iqlim dəyişikliyi ilə bağlı əsas müddəaları arasında “yaşıl” enerji səmərəliliyi öndə gəlir. Yeni tikilən stansiyası da bu cəhətdən olduqca əhəmiyyətlidir.

# Dəniz daşımaları 5 faiz çoxalıb

**Bu ilin yanvar–iyul aylarında Azərbaycanda dəniz nəqliyyatı ilə 1 milyard 376 milyon 954 min ABŞ dolları dəyərində 1 milyon 682 min 309 ton yükün daşınması üzrə idxal-ixrac əməliyyatları həyata keçirilib. Bu göstəricilər isə ötən ilin eyni dövrü ilə müqayisədə müvafiq olaraq 27,25 faiz və 5,3 faiz çoxdur. Bu barədə “XQ”yə Dövlət Gömrük Komitəsindən məlumat verilib.**

Bildirilib ki, cari ilin 7 ayı ərzində dəniz nəqliyyatı ilə 1 milyard 309 milyon 528 min ABŞ dolları (33,2 faiz çox) dəyərində 1 milyon 635 min 973 ton (5,5 faiz çox) yük idxal edilib. Hesabat dövründə su nəqliyyatı ilə 46 min 337 ton yük ixrac olunub ki, bu da əvvəlki ilin müvafiq dövrünə nizbətən 2,4 faiz artıq olub. İxrac olunmuş yüklərin dəyəri isə 67 milyon 426 min dollar təşkil edib.



*Səhifəni hazırladılar:*
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Vətən müharibəsinin fəlsəfəsi

**IV MƏQALƏ**

**Biz sülhdən faydalanmaq istəyiriksə, savaşmalıyıq.**

**SİSERON**



## Azərbaycan nümunəsi

Mövzuya aid III məqalədə Vətən müharibəsinin bir neçə nümunəsinin müqayisəsi göstərir ki, azadlıq savaşı aparan dövlətlərin son məqsədləri fərqli ola bilər. Bu baxımdan II Qarabağ savaşı Azərbaycanın müasir dövrdə Vətən müharibəsi kimi onların hər birindən fərqlənir.

Həmin anlayışın kökündə milli ideya dayanır: ərazi bütövlüyünü təmin etmək. Ölkənin və dövlətin bütün fəaliyyəti bu ideyanın həyata keçməsinə yönəldilmişdi. “Ərazi bütövlüyünü təmin etmək” həm də dövlətin bütün ərazisində suverenliyini təmin etməyi nəzərdə tuturdu. Azərbayan cəmiyyəti “Vətən müharibəsi anlayışı”nın mənası, mahiyyəti və məzmununu milli ideyanın semantik mənası və siyasi məqsədi çərçivəsində qəbul edirdi.

Ərazi bütövlüyünün təmini azərbaycanlılar üçün məğlub edəcəkləri ölkəni parçalamaq, onu dağıtmaq və üzərində hər hansı nəzarəti həyata keçirmək kimi mənaları inkar edirdi. Bu, sırf müstəqillik, suverenlik və mənəvi-ideoloji cəhətdən özünütəsdiq prosesi kimi təsəvvür olunurdu.

Vurğulanan özəllik Vətən müharibəsinin Azərbaycan nümunəsini bütün digər müharibələrdən humanitarlıq və beynəlxalq hüquqa tam əməl etmək aspektlərində fərqləndirir. Buna görədir ki, Azərbaycan Prezidenti Vətən müharibəsinin nəticəsini xarakterizə edərkən heç bir neqativ məqamı önə çəkməmişdir.

İlham Əliyev Azərbaycanın üç vəzifəni yerinə yetirdiyini bəyan etmişdir: tarxi ədalət bərpa olunmuşdur, milli ləyaqət yenidən təsdiqini tapmışdır, beynəlxalq hüquq normaları təmin edilmişdir.

Dövlət başçısı bu seçimi təsadüfən etməmişdir. Onun təməlində çox ciddi siyasi mentalitet elementləri və dövlətçiliyin baza amilləri mövcuddur. Vətən müharibəsinin fəlsəfəsini də həmin faktorların yaratdıqları ümumi mənzərə təşkil edir.

Burada Azərbaycan nümunəsinin sistemli və mürəkkəb xarakterinin əsas məqamlarına baş vurmağa yaxınlaşırıq. Bunlar bizim Vətən müharibəsi anlayışımızın dərin sosial, mental, psixoloji, siyasi, tarixi, mədəni, ideya qatlarında mövcud olan dəyərlərin nə dərəcədə humanitar, xilasedici, sülhsevər və qurucu olduğunu duymaq üçün olduqca vacib faktorlardır.

Bizim mifoloji təfəkkürümüzdə bu məqamların əbədi “yuvaları”, “kodları”, “psixoloji və duyumsal memləri” vardır. Onları bir tezisdə aydın ifadə etmək olar – “Türk qövmü İlahi nizamı dünya nizamına proyeksiya etmək missiyasına məsuldur”. Vurğulanan aspektdə öncə liderin siyasi mentalitetinin II Qarabağ savaşındakı təzahür formalarına baxaq.

## Liderin siyasi mentaliteti

İlk mərhələdə Heydər Əliyevin lider kimi siyasi mentaliteti həm milli ideyanın məzmun və məqsədinin müəyyənləşməsində, həm də onun həyata keçməsi prosesinin dinamikasında ifadəsini tapmışdır. Milli ideyanın “ərazi bütövlüyünü bərpa etmək” kimi müəyyənləşməsi faktiki olaraq Vətən müharibəsinin strateji məqsədinin hərbi, siyasi, ideoloji və təhlükəsizlik hüdudlarını da aydın ortaya qoymuşdur.

Belə ki, müstəqil Azərbaycan üçün Vətən müharibəsi yalnız ərazi bütövlüyünün təmini və bu əsasda suverenliyin tam təmini ilə sərhədlənirdi. Bu o deməkdir ki, Azərbaycan üçün müstəqillik mərhələsində “Vətən müharibəsi” anlayışı tarixdən, mədəniyyətdən, ənənədən gələn kodlar əsasında beynəlxalq hüquq normaları çərçivəsində sırf özünümüdafiə mahiyyəti daşıyırdı. Bu həddin aşılması nə savaşa qədər, nə onun gedişində, nə də postmüharibə mərhələsində Azərbaycan Respublikası dövlətinin siyasi-diplomatik və hərbi gündəmində olmamışdır.

Burada “özünümüdafiə” anlayışı BMT Nizamnaməsinin uyğun maddələrinə söykənməklə müstəqil dövlətçiliyi müdafiə etməyi nəzərdə tutur. Bu anlamda ərazilərin işğaldan azad edilməsi geniş miqyasda müstəqil dövlət olmaq hüququnun hərb meydanına uğurlu proyeksiyasıdır.

Sübutlar da vardır. Savaşın gedişində Azərbaycan Ordusu beynəlxalq hüquqa, müharibənin qanunlarına məhəl qoymayan, geridəqalmış savaş əxlaqına malik dövlətin və onun havadarlarının təxribatlarına zərrə qədər də uymadı.

Məsələn, Ermənistan Gəncəni, Mingəçeviri, Bərdəni və savaş zonasından uzaqda olan bir neçə yaşayış məntəqəsini bombaladı, günahsız sivil insanlarımızı (uşaqları, qadınları, qocaları) məhv etdi. Azərbaycan Ermənistanda bir nəfər də olsun sivilə xətər yetirmədi, ancaq hərb meydanında əlində silah olan erməni tərəfdən döyüşən əsgərləri məhv etdi, onlara aman vermədi. Bu, qədimdən gələn türk savaş əxlaqının müasir mərhələdə ən gözəl nümunələrindən biridir. Azərbaycan “nöqtə əməliyyatları” ilə silahlı qulduru sivildən ayıra bildi – mülki şəxs sağ qaldı, silahlı təcavüzkar məhv oldu!

## Mülki əhaliyə qarşı həssaslıq

Bu özəllik müasir tarixi dönəmdə Azərbaycanın Vətən müharibəsi nümunəsini digərlərindən fərqləndirən olduqca əhəmiyyətli keyfiyyətdir. Onu deyək ki, sivillərə qarşı eyni həssaslığı şanlı Türkiyə Ordusu Türkiyə ərazisində, İraq və Suriyada apardığı antiterror əməliyyatlarında da göstərmişdir. Lakin Azərbaycan Ordusu, dövlətin silahlı qüvvələri kimi, başqa ölkənin işğalçı ordusuna qarşı təkbaşına və mürəkkəb geosiyasi şəraitdə müharibənin klassik anlamında savaşdı. Belə şəraitdə ordunun müharibənin bütün qanunlarına dəqiq əməl etməsi və mülki insanlara zərrə qədər məhvedici zərbə endirməməsi dünya nümunəsidir.

Azərbaycandan başqa hansı ölkədə bu nümunə özünü göstərir? Ukrayna və Rusiyadan sivillərin həlak olması ilə bağlı nə qədər informasiyalar gəlir? Və ya Qəzzada İsrailin, İsraildə HƏMAS-ın nə qədər sivili məhv etdiyi haqqında məlumatlar yayılır? Hər iki savaşda, hətta, mülki insanlardan hərbi məqsədlərlə süni istifadə nümunələri haqqında KİV-də məlumatlar gedir.

İsrail–Fələstin və Rusiya–Ukrayna savaşlarında liderlərin bəyanatlarında tez-tez “yerlə-yeksan edəcəyik”, “yer üzündən siləcəyik”, “filan qədər mülki insanı məhv etmişlər”, “sona qədər yox edəcəyik” kimi fikirlər yer alır. Hətta Qəzzada, Ukraynada və Rusiyada sosial obyektlər, mülki təşkilatlar, təhsil və sağlamlıq ocaqları bombalanır. Bunun əmrini verənlər vardır...

II Qarabağ savaşında isə Azərbaycan tərəfdən buna bənzər bir dəfə də olsun addım atılmadı. Əksinə, Azərbaycan Ordusu qanunsuz düşmənin təxribatçı hərəkətlərinə qarşılıq bir sivilin burnunu belə qanatmadı (bəziləri öz günahlarından atəş altına düşmüşdülər). Azərbaycan Ordusunun bu cür davranmasının kökü haradadır?

Birincisi, Ali Baş Komandanın lider siyasi mentalitetinin mahiyyətindədir. İlham Əliyev, hətta, savaşın gedişində Vətəni müdafiə və ərazi bütövlüyünü təminetmə məntiqindən zərrə qədər də kənara çıxmadı. Məhz Ali Baş Komandanın siyasi mentaliteti sayəsində ermənilərin mülki insanlarımıza qarşı etdikləri təxribatlara cavab olaraq, yalnız hərb meydanında qəhrəmanlıq göstərməyə istiqamətlənmiş səslənişləri ərazi bütövlüyünü təmin etmək uğrunda aparılan savaşın tam ədalətli olmasını şərtləndirən faktorlardan oldu. İlham Əliyevin liderlik siyasi mentaliteti onun savaş zamanı xarici jurnalistlərin saysız-hesabsız qərəzli suallarına ədalətlilik, obyektivlik və hüquqilik məqamlarını ciddi gözləməklə cavab verməsini şərtləndirmişdir.

Bu məqamda Ali Baş Komandanın timsalında dövlət başçısı və xalqın lideri olmağın ədalətlilik və humanitarlıq kontekstində bir nümunəsini görürük. Eyni zamanda, dövlətçilik və liderlik ənənəsinin müasirlikdə sintezinin təzahürü görünür. Bütün təxribatlara baxmayaraq, dövlət başçısı, lider və Ali Baş Komandanın türk savaş qanunlarının təməl dəyərlərinə - ədalətə, mənəviyyata, hərbi qanunlara sayğıya, humanizmə və hüquqa tam əməl etməsini görürük. Prezident İlham Əliyevin liderlik siyasi mentaliteti mahiyyətcə humanitardır ki, bu da II Qarabağ savaşının ədalətli müharibə kimi humanitar xarakterli olmasını təmin etmişdir.

## Ordunun döyüş əxlaqı

İkincisi, Ordunun humanitar davranmasının kökü tarixən Azərbaycan ordularında formalaşmış hərbi döyüş əxlaqındadır. Azərbaycan əsgəri təcavüzkar deyildir. Azərbaycanda qəhrəman ailəsini, dostunu, yoldaşını, yurdunu, xalqını, Vətənini, şərəfini, namusunu, anasını və bacısını qorumağı bacarandır! Bu, xalqın mentalitetində əsrlərdən gələn ənənənin dəyişməz kodları və sosial təşkilatlanma memləridir (“mem” anlayışı hər bir cəmiyyətə sosial-mədəni kontekstə aid olan və hamı tərəfindən qəbul edilən standart dəyərlərdir).

Buna görədir ki, Ermənistanda təcavüzkarı, başqa irqə mənsub olanları amansız qətlə yetirənləri, özgə ərazisində terror törədənləri, qatı cinayətkarları “milli qəhrəman” kimi təqdim edir, onlara heykəllər ucaldırlarsa, Azərbaycanda mübarizlərimizə, poladlarımıza və minlərlə Vətən müdafiəçilərimizə Milli Qəhrəman adı verir və heykəllər ucaldırıq! Bu, azərbaycanlıların tarixdən gələn hərb mədəniyyəti, dünya duyumu, Vətən anlayışı və “kişi kimi vuruşmaq” mənəvi dəyərdir! II Qarabağ savaşı bütün bunların gözəl nümunə meydanı oldu!

Azərbaycan Ordusunun hərbi döyüş əxlaqı dərin mənaya və əhəmiyyətə malik keyfiyyətdir. Azərbaycan əsgəri Vətəni müdafiə etməyi müqəddəs borc kimi qəbul edir. II Qarabağ savaşı və 2023-cü ildə 23 saat 41 dəqiqəlik antiterror əməliyyatları zamanı göstərilən fövqəladə qəhrəmanlıq nümunələri Azərbaycan əsgərinin hərbi döyüş əxlaqının təntənəsidir! Mövzu Vətən və müstəqillikdirsə, Azərbaycan Ordusu həm fədakardır, həm şücaətlidir, həm də əxlaqlıdır. Azərbaycan Ordusu Ali Baş Komandanın, hərbi rəhbərliyin və əsgərlərin bütövləşmiş mənəvi və hərbi peşəkarlıq keyfiyyətlərinin vəhdətidir.

## Dövlətçilik mentaliteti və vətəndaş passionarlığı

Liderin siyasi mentaliteti, hərbi qanunlara sayğı və hərbi döyüş əxlaqı Vətən müharibəsinin Azərbaycan nümunəsi üçün xas olan başqa bir özəlliyi aktuallaşdırır. Biz, ərazi bütövlüyünü bərpa etmək uğrunda aparılan savaşda vətəndaş passionarlığının (məqsədə çatmaq üçün qarşısıalınmaz fədakarlıqla daxili canatma) sosial-mədəni, etnik, psixoloji və mənəvi-əxlaqi köklərini aydınlaşdırmağı nəzərdə tuturuq.

Bu məsələnin bir tərəfi dövlətçilik mentaliteti kontekstində dövlətçilik şüurunun özəllikləri ilə bağlıdır. Digər tərəfi isə dövlətçilik mentalitetinin atributu kimi vətəndaş passionarlığını motivə edən və tarixi dönəmin özəllikləri ilə bağlı olan faktorlarla əlaqəlidir.

Özlüyündə dərin və geniş fəlsəfi problemdir. Mövzu faktiki olaraq tarixi rakursda toplumun dövlətçilik ənənəsinin mərkəzində dayanan dövlətçilik mentalitetinin kollektiv şüuri təcrübəsinin formalaşması prosesindən gedir. Burada biz məsələnin yalnız qəzet məqaləsi formatının imkan verdiyi çərçivədə izahı üzərində dayana bilərik. Çünki akademik elmi və fəlsəfi izah mürəkkəb terminoloji semantika ilə əsaslandırılmalıdır ki, oxucu üçün çətin anlaşılan mənzərə yaratsın.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Bakı–Daşkənd müttəfiqliyi Türk dünyası üçün böyük perspektiv açır

*(əvvəli 1-ci səhifədə)*



Əvvəla, hələ keçmiş SSRİ zamanında hər iki müttəfiq respublika arasında mədəni əlaqələr həmişə yüksək səviyyədə olub. Xalqlar etnik birlik, dil yaxınlığı amillərini əsas tutub, dostluq və qardaşlıq əlaqələrini inkişaf etdiriblər. Ancaq nəzərə almalıyıq ki, bəzən dövlətlər arasındakı münasibətlərin müttəfiqlik səviyyəsinə çatmasına onilliklər tələb olunur. Bu məsafənin çox qısa bir zamanda qət edilməsi də yuxarıda vurğuladığımız amilin nəticəsidir.

Tarix öz yerində, Azərbaycan Prezidenininin iki il əvvəl Özbəkistana dövlət səfərinin reallaşmasından sonra bu gün yaşanan müsbət mənzərəni proqnozlaşdırmaq olardı. Həm də ona görə ki, sözügedən səfər və səfər çərçivəsində əldə olunmuş razılaşmalar qarşıdakı müddət üçün əməkdaşlığın dinamik olacağından xəbər verirdi. Dinamikliyin isə strateji müttəfiqliyə gətirib çıxarması şərtdir.

İkincisi, dost dar gündə tanınar, – deyib atalarımız. Özbəkistanın otuz illik işğal zamanı Ermənistanla diplomatik münasibətləri olmadı. Həmin müddətdə rəsmi Daşkənd İrəvanda səfirlik açmadı, həmçinin Ermənistanın da Özbəkistanın paytaxtında ali diplomatik missiya açmasına icazə verilmədi. Bunun özü də qarşılıqlı etimad mühitinin müttəfiqlik perspektivi üçün başlıca mənəvi və siyasi göstəricidir.

*

“Bu gün biz rəsmən müttəfiqlər olduq. Əslində, razı olardım ki, bu, tarixi məqamdır. Müttəfiqlik münasibətlərinə dair müqavilə iki ölkənin imzalaya biləcəyi ali səviyyədə beynəlxalq sənəddir. Biz bu gün Daşkənddə həqiqətən də münasibətlərimizin yeni fəslini deyil, kitabını yazırıq. Bu gün iki qardaş xalq, iki müstəqil, güclü, suveren, nüfuzlu dövlət rəsmi müttəfiq oldu. Bu, çox mühüm xarici siyasət addımıdır və gələcək illərdə münasibətlərimizi, həmçinin bir çox hallarda regional siyasəti müəyyən edəcək”, – deyən Prezident İlham Əliyev özbəkistanlı həmkarı Şavkat Mirziyoyevlə mətbuata bəyanatında onu da bildirmişdi ki, regionlarımızda müsbət proseslər Daşkənd ilə Bakı arasında səmərəli əməkdaşlıqdan asılıdır: “Bu gün Mərkəzi Asiya, Cənubi Qafqaz, Xəzər regionları vahid geosiyasi regiona çevrilir və regionlarımızda müsbət proseslər Özbəkistan ilə Azərbaycan arasında səmərəli əməkdaşlıqdan asılıdır”.

Hazırda qətiyyətlə deyə bilərik ki, Azərbaycanla Mərkəzi Asiya regionu vahid geosiyasi, tarixi və mədəni məkan kimi çıxış edirlər. Bu mənada Prezident İlham Əliyevin regionda yerləşən ölkələrə mütəmadi səfərləri, həmçinin həmin ölkələrin təmsil olunduqları təşkilatların tədbirlərində fəxri qonaq qismində iştirakı diqqətdən yayınmır. Yəni ki, ölkəmizin region dövlətləri ilə əlaqələrinin yüksək dinamikası mövcuddur.

Nəzərə alaq ki, dövlətimizin başçısı son illərdə Şanxay Əməkdaşlıq Təşkilatının Mərkəzi Asiya ölkələrində keçirilən sammitlərinə qatılıb. Ölkəmizin lideri Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə müşavirənin (AQEM) 7-ci Zirvə toplantısında, Mərkəzi Asiya Dövlət Başçılarının məşvərət görüşlərində və digər tədbirlərdə də iştirak edib. Onu da vurğulamaq lazımdır ki, BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramının – SPECA-nın Zirvə görüşünün Azərbaycanda keçirilməsi də müstəsna məqamdır. Yəni, bütün bunlar və sadalamadığımız bir çox məqamlar var ki, Mərkəzi Asiya, Cənubi Qafqaz, Xəzər regionlarının vahid geosiyasi regiona çevrildiyini göstərir. Prezident İlham Əliyevin dili ilə desək, regionlarımızda müsbət proseslər məhz Özbəkistan ilə Azərbaycan arasında səmərəli əməkdaşlıqdan asılıdır.

Belə nəticəyə gəlirik ki, Bakı – Daşkənd rəsmi müttəfiqliyi, ümumən, Mərkəzi Asiya baxımından önəmlidir. Əlbəttə, bu önəmdən faydanı götürəcək daha böyük siyasi məhfum Türk dünyasıdır. O dünya ki, hazırda mühüm qlobal güc mərkəzi kimi çıxış edir. Gücə qarşı isə qısqanc yanaşanlar həmişə olur. Deməli, ölkələrimiz arasındakı müttəfiqliyin təhdidlərə qarşı birgə müqavimət amili aktualdır.

İnkişaf böyük hədəfdir. Müttəfiqliyi təhlükəsizlik təminatı kimi götürsək, onun inkişaf üçün zəmanət faktoru olması reallığı üzərində dayanmalıyıq. Bu reallıq inkişafda dayanıqlılıq trayektoriyasını müəyyənləşdirir. İnkişaf dayanıqlı olmalıdır ki, yüksək nəticələr əldə olunsun və genişlənsin. Elə bir nəticələr ki, xalqları firavan, parlaq gələcəyə çatdırsın.

Bəli, Türk dünyasının müttəfiqlik halqasının genişlənməsi dövrün və zamanın qlobal siyasi çağırışlarına layiqli cavabdır. Bu prizmadan yanaşsaq, Azərbaycan-Özbəkistan müttəfiqliyi fonunda, bütövlükdə, Türk dünyasının önündə parlaq səhifənin açıldığını təsadüfən vurğulamadıq. Əlavə edək ki, iki ölkə arasındakı möhkəm həmrəylik Türk dünyasının mədəni, sosial inkişafı, rifahı baxımından da önəmlidir. Bu, yeni dünya nizamının yarandığı şəraitdə türk dövlətlərinin dövrün çağırışlarına cavab verməklə milli-strateji hədəflərə çatmasına zəmin və fürsət yaradır, həmçinin, bütövlükdə, türkdilli ölkələrin qarşısında yeni perspektivlər açır.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Xalq və dövlət maraqlarının tərcümanı









**Mətbuat böyük qüvvədir. O, tarixi-ictimai mühiti formalaşdırır. Hansı ölkənin tarixi-ictimai, siyasi durumunu bilmək istəyirsənsə, ilk növbədə, həmin ölkənin mətbuatı ilə tanış olmalısan. Bu mənada mətbuat xalq həyatının ensiklopediyası sayıla bilər. Qəzet cəmiyyətin sosial iflicləri ən çevik müşahidə edən, görən və əks etdirən orqandır. Hər bir ölkənin ictimai fikri, sosial düşüncəsi mətbuat yaranandan sonra intensiv təkamül edib. Bizdə bu tarix böyük maarifçi Həsən bəy Zərdabinin başında durduğu "Əkinçi"dən başlayır.**

Dünya çapında hər kəsin ana dilində elə söz və ifadələr var ki, onlar qrammatik, leksik və semantik tutumundan daha geniş məna daşıyır. Dilimizdə – Azərbaycan türkcəsində bu sözlərə Millət, Vətən, Tanrı, Ana, Dövlət kimi aid oluna bilər. Bəzən biz özümüzə çoxmillətli xalq deyirik. XX əsrin böyük filosofu Asif Əfəndiyev deyib ki, çoxmillətli xalq ola bilməz, xalq elə millətdir, çoxmillətli ölkə ola bilər. Azərbaycan çoxmillətli – tolerant ölkədir.

Yubileyini qeyd etdiyimiz "Xalq qəzeti" bir əsrdən artıqdır ki, qədim və ulu Azərbaycan xalqının keçmişinə, bu gününə xidmət edir. Tarixin sayılı dönəmlərində "Kommunist" adı ilə çıxsa da, "Xalq qəzeti"nin bir yolu olub: Xalqdan dövlətə. Bu yol dövləti olan dünyanın bütün xalqları üçün məqbul yoldur.

"Xalq qəzeti" XX əsr tarixinin bütün dönəmlərində ictimai tərəqqinin yol yoldaşı, milli dövlətçiliyin silahdaşı olub. O, bütün ziddiyyətli, mürəkkəb epoxalarda ictimai fikri çaşmağa qoymayıb, düzgün yolu göstərib.

"Xalq qəzeti" elə bir tribunadır ki, 105 ildir xalq bu tribunadan öz milli kimliyini bəyan edir, dərd-sərini, sosial problemlərini açıq-aydın söyləyir. Qəzet xalq məişətinin ən adi qayğılarından tutmuş, ən qlobal milli və bəşəri problemlərə qədər hər şeyi əks etdirir.

Fəqət, "Xalq qəzeti"nin strategiya və taktikasını, əsas konsepsiyasını Azərbaycan dövlətçiliyi, onun tarixi və müasir problemləri, milli dövlət siyasəti təşkil edir. Ölkənin ictimai-siyasi həyatında nə hadisə baş verirsə, "Xalq qəzeti" onu millətin və dövlətin mənafeləri nöqteyi-nəzərindən əks etdirir. Yalnız təsvir etməklə kifayətlənmir, tarixi-fəlsəfi mənasını oxuculara çatdırır. Bu baxımdan dövlətçilik prinsipini rəhbər tutaraq yazılarında kütlənin səviyyəsinə enmir, kütləni xalqa çevirmək siyasəti yeridir. Kütlədən xalqa, xalqdan millətə – "Xalq qəzeti"nin fəlsəfi qayəsi budur.

"Xalq qəzeti" dövlətçilik tribunasıdır. Dövlətdə nə baş verirsə xalqa onu aydın, anlaşıqlı dildə çatdırmaq bu qəzetin daim rəhbər tutduğu əsas yoldur.

Gənc vaxtı ustadım, böyük mütəfəkkir Yaşar Qarayev mənə tövsiyə edirdi ki, "Pravda" qəzetindəki xırda məlumatları oxu, ölkənin siyasəti bu məlumatlarda əks olunur, iri yazılara çox da bənd olma! Müqayisə etmirəm. Fəqət deyim ki, "Xalq qəzeti"ndə də bəzən o qədər də diqqəti cəlb etməyən informasiyalarda, əslində, ciddi həqiqətlər ifadə olunur.

"Xalq qəzeti"nin özünəməxsus mədəniyyət konsepsiyası var: tarixi-ictimai həyatda mədəniyyətin rolunu əks etdirmək! Əvvəlcə türkün Tenqrisi, sonra müsəlmanın Allahı özünün kimliyini göstərmək üçün təbiəti, insan isə özünün kimliyini əks etdirmək üçün mədəniyyəti, sənəti yaradıb. Təbiət Tanrının şah əsəri, mədəniyyət və sənət isə insanın özünə ucaltdığı abidədir. "Xalq qəzeti" mədəniyyəti bu yöndən əks etdirir. Qəzetin mədəni siyasətində Dil faktoru – Ana dilini qorumaq başlıca istiqamət təşkil edir. Mən bir filoloq, tənqidçi kimi mətbuata onun dilə münasibətinə görə önəm verirəm. Dilə münasibət – millətə və dövlətə münasibət deməkdir. Dilimiz– türkün dili ən böyük, ən qiymətli milli sərvətimizdir.

"Xalq qəzeti" bütün tarixi dönəmlərdə ana dilimizin saflığının keşiyində durub. Xüsusilə XX əsrin əvvəllərində Firudin bəy Köçərli, Abdulla Şaiq, Nəriman Nərimanov, Cəlil Məmmədquluzadə və onun "Molla Nəsrəddin"i ana dili uğrunda mübarizəni Ana Vətən uğrunda mübarizəyə çevirdikləri vaxt "Xalq qəzeti"ndə bu yolu bu gün – bir sıra mətbuat orqanlarının, teleproqramların dilimizi şil-küt etdiyi bir vaxt, "Xalq qəzeti" nümunə rolu oynayır. "Xalq qəzeti" xalqla dövlət arasında ünsiyyət və mənəviyyat körpüsüdür. O, 30 il mənfur toplumun işğalı zamanı Prezident, Ali Baş Komandan İlham Əliyevlə birlikdə Qarabağ uğrunda mübarizə apardı, milli qürurumuzu müdafiə etdi, böyük siyasətçi və mütəfəkkir diplomat cənab İlham Əliyevin mahir diplomatik gedişlərini xalqa çatdırdı. Bu zaman mən də bir ziyalı və vətəndaş kimi "İşğalçı müharibə: qürur və kədər", "Erməni faşizmi" kimi məqalələr yazaraq bu siyasəti, bu diplomatiyanı, bu qələbəni müdafiə etdim.

"Xalq qəzeti" "Kommunist" adıyla nəşr olunanda bir partiyanın orqanı funksiyasını yerinə yetirirdisə, böyük jurnalist Tofiq Rüstəmovun baş redaktor olduğu müstəqilliyin ilk illərindən bəri xalqa, onun milli maraqlarına, xüsusən milli dövlətçiliyə xidmət edib. Vətən müharibəsi dövründə – 44 günlük ağır və şərəfli gündə bu qəzet Prezident, Ali Baş Komandan, Ordu və Xalq birliyinə xidmət etmişdir. Onun tarixi rolu bu qüdrətli üçlüyün vəhdətinin iştirakı ilə müəyyən oluna bilər.

Hər bir qəzetin, xüsusən ölkənin baş qəzetinin vəzifələrindən biri də xalqı maarifləndirmək, ölkənin taleyini müəyyən edən olayları vətəndaşlara izah etməkdir. "Xalq qəzeti" bunu yaxşı həyata keçirir. Digər qəzetlər yalan, böhtan, şər məlumatlarla, qarayaxma ilə məşğul olduqları bir dövrdə "Xalq qəzeti" bir növ münsif rolunda çıxış edir. Bu baxımdan qəzet kəsərli söz sahibidir və o prinsipial mövqeyə malikdir. Bu qəzet elə mühüm əhəmiyyəti olan yazılar çap edir ki, oxucuda özünə inam və hörmət yarada bilir. Əgər bu qəzet cəmiyyətdə olan müəyyən qüsuru tənqid edibsə, oxucu inanır ki, hökmən onun bir nəticəsi olacaq və bu qüsur araşdırılacaq.

Nəşrə başlamasının 105 illiyi dönəmində "Xalq qəzeti"ndə ləyaqətli bir kollektiv çalışır. Xalqçıları yubiley münasibətilə səmimiyyətlə təbrik edirəm, fədakar işlərində onlara Azərbaycan naminə daha böyük uğurlar arzu edirəm.

**Nizaməddin ŞƏMSİZADƏ,**
**Əməkdar elm xadimi,**
**filologiya elmləri doktoru,**
**professor**

# Qarabağ Universiteti dünyaya səs salacaq!

**Qarabağda ilk ali təhsil müəssisəsi – Azərbaycan Pedaqoji İnstitutunun filialı 1969-cu ildə qurulub və 1973-cü ildən 1988-ci ilədək ali təhsil müəssisəsi kimi fəaliyyət göstərib. İşğal dövründə isə adıçəkilən təhsil ocağı fəaliyyətini dayandırmalı olur.**




Böyük zəfərlə başa çatan Vətən müharibəsindən sonra bu ərazilərə qayıdış konsepsiyası özünü təhsil sahəsində də göstərdi. 2023-cü ilin sentyabrında keçirilmiş antiterror əməliyyatı nəticəsində Xankəndi şəhərinə nəzarət tam bərpa edildikdən sonra, Azərbaycan Prezidentinin 28 noyabr 2023-cü il tarixili sərəncamı ilə Qarabağ Universitetinin yaradılması haqqında qərar verildi. Bundan sonra Nazirlər Kabinetinin qərarı ilə universitetin Nizamnaməsi təsdiq olundu. Qarabağ Universitetinin fəaliyyətinin təşkili üçün Azərbaycan Prezidentinin ehtiyat fondundan Elm və Təhsil Nazirliyinə 10 milyon manat ayrıldı. Artıq orada zəruri struktur formalaşıb, maddi-texniki baza yaradılıb, professor-müəllim heyəti komplektləşdirilib.

Sentyabrın 16-da digər ali təhsil ocaqlarında olduğu kimi, Qarabağ Universitetində də ilk dərs günü olacaq. Biləsuvar şəhər Mübariz İbrahimov adına lisey-məktəb kompleksinin məzunu Duyğu Quluzadə "Xalq qəzeti"nə müsahibəsində bu universitetin ilk tələblərindən biri olmasının qürurunu yaşadığını bildirdi. Universitetin mühasibatlıq fakültəsində təhsil almaq imkanı qazanan müsahibimin fikrincə, Qarabağ Universitetində yaradılmış şərait Bakıdakı bəzi universitetlərdən daha yaxşıdır.

Qarabağ Universitetində hüquqşünaslıq ixtisası üzrə təhsil alacaq tələbə Zemfira Nəsirova seçiminə görə qürur hissi keçirdiyini söylədi: "Hər bir vətənpərvər tələbə kimi, mən də Qarabağ Universitetində təhsil alıb, vətənə layiqli övlad olmaq üçün çalışacağam".

Yardımlının Bozayran kənd tam orta məktəbinin məzunu Səma Əzimli də Qarabağ Universitetinin hüquqşünaslıq ixtisasına qəbul edilib. O qeyd etdi ki, uğur qazanmağın əsas şərti məsuliyyətli və çalışqan olmaqdır: "Məncə, ilk növbədə hədəfimizi həmişə yüksək tutmalıyıq. Sistemli və mütəmadi çalışmaq vacibdir. Qarabağ universitetinin prestijli olacağına şübhə etmirəm".

Universitetdə pedaqoji, iqtisadiyyat, humanitar və sosial elmlər, mühəndislik, incəsənət, turizm olmaqla 6 fakültə üzrə bakalavriat səviyyəsində tədris həyata keçiriləcək. Burada ilin əvvəlindən dərs demək istəyən müəllimlərin sayı günbəgün artırdı. Çünki peşəkar və həvəsləndirici mühit, rəqabətədavamlı özünüinkişaf şəraiti pedaqoqları Qarabağ Universitetində işləməyə sövq edirdi. Hələ ixtisas seçimi başlamamış bu təhsil ocağını seçmək istəyən tələbələrin səsi ölkəmizin bütün regionlarından gəlirdi. Bu universitet regionda ixtisaslı, savadlı kadrların sayının daha da çox olmasına, gələcəkdə həmin ərazilərdə bütün sahələr üzrə mütəxəssislərin yetişməsinə zəmin yaradacaq.

…Budur, ixtisas seçiminin nəticələri açıqlananda Qarabağ Universitetini seçən tələbələrin topladığı yüksək ballar göz oxşamağa başladı. Abituriyentlər xüsusilə bu universitetin güzəşt və imkanlarını dəyərləndirərək, buraya üz tutmağa qərar verdilər. Qarabağ Universitetinə I-IV ixtisas qrupları üzrə qəbul olunan 980 tələbənin orta qəbul balı 467,6 təşkil etdi. 2024–2025-ci tədris ili üzrə universitetin bakalavriat səviyyəsinə tələbə qəbulu planı da tam doldu. Bu nəticələr neçə illərdən bəri fəaliyyət göstərən digər Azərbaycan universitetlərinin bir çoxunu geridə qoydu.

Qeyd etmək yerinə düşər ki, bu il başqa universitetə qəbul olub, lakin Qarabağ Universitetində oxumaq istəyənlər üçün Sabah qrupları vasitəsilə imkan yaradılacaq. Universitetin hər bir tələbəsinə kompüter, təqaüd, yüksək bal toplayanlara isə əlavə təqaüd veriləcək. Qarabağ Universitetinin müasir maddi-texniki bazası olan universitet kampusu, yeni məzmunlu təhsil proqramları, peşəkar yerli və əcnəbi professor-müəllim heyəti, beynəlxalq, yerli ikili diplom və mübadilə proqramları, elmi-tədqiqat və startap layihələri tələbələrin ixtiyarına veriləcək.

2024-cü il mayın 20-dən cənab Prezidentin müvafiq sərəncamı ilə Qarabağ Universitetinə rektor təyin edilən Şahin Bayramov müsahibələrinin birində qeyd edib ki, burada fərqli akademik məzmun yaratmaq və dünyanın qabaqcıl universitetlərində tətbiq olunan formada nəticələrə əsaslanan tədqiqatlar aparmaq məqsədləri var. Rektorun səsləndirdiyi fikirlərin işartısını indidən görmək olur…

**Rizvan FİKRƏTOĞLU**
**XQ**



## Allahşükür Paşazadə müqəddəs Aleksiy ordeni ilə təltif edilib



**Moskvanın və Bütün Rusiyanın Patriarxı Kirill Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadəyə təbrik məktubu ünvanlayıb.**

Təbrik məktubunu Azərbaycanda səfərdə olan Rus Pravoslav Kilsəsi Patriarxlığının nümayəndə heyətinin rəhbəri, Rus Pravoslav Kilsəsinin Xarici Əlaqələr şöbəsinin sədri Mitropolit Antoniy şeyxülislam Allahşükür Paşazadə ilə avqustun 26-da keçirilən görüşdə səsləndirib.

QMİ sədrinin səmərəli fəaliyyətini yüksək qiymətləndirən M.Antoniy şeyxülislamı ad günü münasibətilə təbrik edərək, onun din-dövlət münasibətlərinin yüksək səviyyədə aparılması, tərəqqi və əmin-amanlıq naminə səylərini yüksək qiymətləndirib.

M.Antoniy, həmçinin QMİ sədrini Moskvanın və Bütün Rusiyanın Patriarxı Kirillin adından Kiyev, Moskva və bütün Rusiya mitropoliti müqəddəs Aleksiy ordeni ilə təltif edib.

**XQ**



# Milli Məclisə seçkilərə 4 gün qaldı

## SEÇKİYƏ GƏL, SƏS VER, SEÇİLMİŞLƏRDƏN OL!



## Səsvermə günü polisin vəzifəsi




**Milli Məclisə seçkilərin keçirilməsinə 5 gün qalıb. Parlament seçkilərində 125 deputat mandatı uğrunda 991 namizəd mübarizə aparacaq. Seçkilərlə əlaqədar seçki məntəqələri səhər saat 8-də açılacaq və səsvermə 19:00-a qədər davam edəcək.**

Maraqlıdır, polis əməkdaşları səsvermə günü hansı vəzifələri yerinə yetirir? Onlara nələri etmək qadağandır?

"Seçki 2024" Müstəqil Media Mərkəzinin məlumatına görə, polis əməkdaşı Azərbaycan Respublikasının icra hakimiyyətinə mənsub olan vahid mərkəzləşdirilmiş hüquq-mühafizə orqanında vəzifə tutan və "Polis haqqında" qanunla və digər qanunvericilik aktları ilə müəyyənləşdirilmiş səlahiyyətləri həyata keçirən dövlət qulluqçusudur.

O, qanunvericilikdə nəzərdə tutulmuş qaydada ictimai qaydanın qorunması və ictimai asayişin bərpa edilməsi kimi xidməti vəzifələri yerinə yetirir. Polis əməkdaşlarının qanunazidd hərəkətləri qanunvericilikdə nəzərdə tutulmuş qaydada məsuliyyət yaradır.

Azərbaycan vətəndaşı kimi polis əməkdaşının da qanunvericilikdə müəyyənləşdirilmiş qaydada seçkilərdə seçici qismində iştirak etmək hüququ var. Milli Məclisə seçkilər zamanı qeydiyyatdan çıxma vəsiqəsi müvafiq seçki dairəsinin ərazisində tətbiq edilir. Əgər polis əməkdaşı seçki günü fəaliyyəti ilə əlaqədar aid olduğu seçki məntəqəsində səs verə bilmirsə, o, qeydiyyatdan çıxma vəsiqəsi ilə ərazisində olduğu seçki məntəqəsində səsvermədə iştirak edə bilər. Qeydiyyatdan çıxma vəsiqəsi dairə seçki komissiyasından səsvermə gününə 45-25 gün qalmış, məntəqə seçki komissiyasından isə səsvermə gününə 24-3 gün qalmış götürülə bilər.

Polis əməkdaşı səsvermə günü nələri etməlidir?

- əməkdaşı səsvermə günü xidməti formada olmalıdır;
- xidməti vəzifəsini seçki məntəqəsi yerləşən binadan azı 100 metr aralıda yerinə yetirməlidir;
- Seçki Məcəlləsinin 104.14-cü maddəsinə əsasən səsvermədə seçici kimi iştiraketmə hallar istisna edilməklə, səsvermə zamanı seçki məntəqəsində olması qadağandır;
- yalnız məntəqə seçki komissiyası sədrinin dəvəti ilə ictimai asayişi bərpa etmək üçün səsvermə otağına daxil ola bilər. Bu zaman səsvermə müvəqqəti olaraq dayandırılır.

Polis əməkdaşı ictimai asayişi bərpa edərkən qanunvericiliyin müvafiq tələblərinə əmək etməli, ictimai asayiş bərpa edildikdən sonra dərhal seçki məntəqəsini tərk etməli və öz xidməti vəzifəsini yuxarıda göstərilən məsafədə yerinə yetirməlidir.



## Seçkiləri ATƏT PA-nın 60-a yaxın müşahidəçisi izləyəcək




**Növbədənkənar parlament seçkilərini izləmək üçün ATƏT Parlament Assambleyasınının (PA) 60-a yaxın müşahidəçisi Azərbaycana gələcək.**

"Seçki 2024" Müstəqil Media Mərkəzi xəbər verir ki, bu, ATƏT PA-nın 1995-ci ildən indiyədək Azərbaycanda apardığı 11-ci seçki müşahidəsi olacaq.

ATƏT PA-dakı İrlandiya nümayəndə heyətinin rəhbəri Maykl Krid qurumun qısamüddətli müşahidə missiyasının xüsusi əlaqələndiricisi və rəhbəri vəzifəsində olacaq. ATƏT PA-nın müşahidəçilər heyətinə isə Çexiyadan Demokratiya, İnsan Haqları və Humanitar Məsələlər üzrə Baş Komitənin sədri Lüsiya Potuçkova rəhbərlik edəcək

Beynəlxalq müşahidəçilər seçkilər günü Azərbaycanın müxtəlif bölgələrinə getməzdən əvvəl Mərkəzi Seçki Komissiyası, vətəndaş cəmiyyətinin nümayəndələri, deputatlığa namizədlər, partiya nümayəndələri və ekspertlər tərəfindən məlumatlandırılacaqlar.

"Xüsusilə, altı ay əvvəl həyata keçirilən növbədənkənar prezident seçkiləri və bu yaxınlarda Azərbaycanın evsahibliyi edəcəyi BMT-nin genişmiqyaslı beynəlxalq tədbiri (COP29) nəzərə alınmaqla, şübhəsiz ki, növbədənkənar parlament seçkiləri böyük əhəmiyyət kəsb edir. Əsas məqsədimiz Azərbaycan xalqı üçün demokratik standartlar və dəyərlərin qorunması ilə yanaşı, ədalətli və şəffaf seçki prosesini dəstəkləmək, qərəzsiz və hərtərəfli qiymətləndirmə aparmaqdır", – deyə M.Krid bildirib.

"ATƏT PA-nın beynəlxalq müşahidəçilərdən ibarət nümayəndə heyətinə başçılıq etmək mənim üçün şərəfdir. Seçkilərin demokratik prinsiplərə uyğunluğu, azad səsvermə prosedurunun təmin edilməsi, ədalətli seçki kampaniyasının keçirilməsi və digər məsələlərə nəzarət etmək üçün Demokratik Təsisatlar və İnsan Haqları Bürosu (DTİHB) ilə sıx əməkdaşlıq edəcəyik", – deyə Lüsiya Potuçkova diqqətə çatdırıb.

Məlumatda o da qeyd olunub ki, seçkilərin müşahidəsi ilə bağlı yekun rəylər sentyabrın 2-də Bakıda keçiriləcək mətbuat konfransında təqdim ediləcək.

# Seçki xəbərləri

### Davamlı inkişafa seçici dəstəyi



"Azərbaycanda qarşıdan gələn parlament seçkiləri təkcə işğaldan azad edilmiş ərazilərdə ilk dəfə keçiriləcəyinə görə deyil, həm də Vətənimizin dirçəlişində irəliyə doğru mühüm addım olduğu üçün əlamətdardır. Biz Qarabağın yenidən canlandığının şahidi oluruq: şəhərlər, kəndlər bərpa olunur, boş qalan evlərə həyat qayıdır. Doğma yurdlarına qayıdan insanlar bu tarixi hadisədə iştirak edərək, Milli Məclisdə öz nümayəndələrini seçmək imkanı əldə edəcəklər".

Bu fikirləri "Seçki 2024" Müstəqil Media Mərkəzinə Bakı şəhər 8 nömrəli məktəbin tarix müəllimi Mehriban İbrahimova deyib.

### Sabunçuda 2 gənc də seçkiyə qoşulacaq



"29 saylı Sabunçu dördüncü seçki dairəsi üzrə 37 açıq, 4 qapalı tipli seçki məntəqəsi fəaliyyət göstərir. Seçki məntəqələrinin bəzilərində veb-kameralar quraşdırılıb". Bunu "Seçki 2024" Müstəqli Media Mərkəzinə açıqlamasında 29 saylı Sabunçu dördüncü DSK-nın sədri Gülnarə Hüseynova deyib. O bildirib ki, dairə üzrə 2 seçicinin 18 yaşı seçki günü tamam olacaq. DSK sədri onu da dedi ki, təşviqat plakatları xüsusi ayrılan yerlərə vurulub, eyni zamanda maarifləndirici materiallar da asılıb. Proses MSK-nın Təqvim panına əsasən aparılır.

### Onlayn media seçki aynası olacaq



"Seçkilərin təşviqat mərhələsi davam edir. Budəfəki parlament seçkilərinin tamam fərqli ab-havada keçirildiyini qeyd edə bilərəm. Parlament seçkiləri qalib Azərbaycanın bütün regionlarında baş tutacaq. 30 ildən sonra Xankəndidə, Xocalıda və digər bölgələrimizdə parlament seçkiləri keçiriləcək. Bu, olduqca mühüm məqamdır və tamam fərqli ovqatdır. Ölkənin onlayn media subyektləri də prosesdə aktiv iştirak edirlər". Bu fikirləri "Seçki 2024" Müstəqil Media Mərkəzinə açıqlamasında "Bakivaxti.az" saytının baş redaktoru Qalib İbrahimoğlu deyib.

## Şuşada hamı seçkiyə gedəcək

**"124 saylı Şuşa–Ağdam–Xocavənd seçki dairəsinin 47 saylı seçki məntəqəsi yeni yaranıb. Şuşalılar ilk dəfə gəlib burada səs verəcəklər. İnanırıq ki, yeni yaradılan bu məntəqədə seçki fəallığı yüksək olacaq".**

"Seçki 2024" Müstəqil Media Mərkəzi xəbər verir ki, bu fikirləri 124 saylı Şuşa–Ağdam–Xocavənd Seçki Dairəsinin 47 saylı seçki məntəqəsinin sədri Eldar Salahov bildirib.



O deyib ki, şuşalılar hər zaman seçkilərdə fəal iştirak ediblər: "Burada ilk dəfə səs verəcək gənclərimiz olacaq, bundan başqa, yaşlılarımız da bir nəfər kimi seçkiyə gələcəklər"

Xatırladaq ki, Şuşada yeni yaradılan 47 saylı məntəqədə 899 seçici səs verəcək.

## Müşahidəçilərdən ərizə qəbulu başa çatıb






**Növbədənkənar parlament seçkiləri ilə əlaqədar seçki dairəsinin ərazisində müşahidə aparılması üçün ərizələrin müvafiq komissiyalara təqdim edilməsi üçün son gündür.**

Bu qayda Mərkəzi Seçki Komissiyasının (MSK) "Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin hazırlanıb keçirilməsi üzrə əsas hərəkət və tədbirlərin Təqvim Planı"nda öz əksini tapıb.

Seçki Məcəlləsinə əsasən, müşahidəçilik üçün aktiv seçki hüququna malik Azərbaycan vətəndaşları (öz təşəbbüsü ilə, qeydə alınmış namizədin, siyasi partiyanın, siyasi partiyalar blokunun, seçkilər sahəsində fəaliyyət göstərən qeyri-hökumət təşkilatının təşəbbüsü əsasında) müraciət edə bilərlər.

Mövcud qanunvericiliyə görə, ərizələrin qəbulu seçkilərin təyin edilməsi haqqında sərəncam rəsmi dərc olunduğu gündən başlayaraq seçkilərin keçirilməsinə beş gün qalanadək həyata keçirilir.

Təqvim planında bu tarix 2024-cü il avqustun 27-dək müəyyən olunub.

## Xankəndi səsverməyə hazırdır



**Xankəndidə seçkiyə hazırlıq prosesi bir həftədir ki yekunlaşıb.**

Bunu "Report"un Qarabağa ezam olunan əməkdaşına 122 saylı Xankəndi Seçki Dairəsinin 14 saylı məntəqəsinin sədri İmran Mirzəyev deyib.

O bildirib ki, seçkilərə hazırlıq prosesi çox yüksək səviyyədə keçir: "Bütün təchizatlar hazır vəziyyətdədir. Seçki məntəqəmizin üzvləri treninqlərdə iştirak ediblər və tam hazırdırlar. İnşallah, seçkiləri çox yüksək səviyyədə keçirəcəyik".

Məntəqə sədri qeyd edib ki, artıq bütün seçicilərə bildirişlər paylanılıb. "Sevindirici haldır ki, ilk dəfə azad Xankəndidə səs verəcək gənclərimiz var. Onlar ilk dəfə bu seçkidə məntəqəyə gələcəklər. Qürurluyuq, fəxr edirik ki, öz torpağımızda səs verəcəyik", – deyə İ.Mirzəyev bildirib.

*Səhifəni hazırladı:*
***İ.HƏSƏNQALA***
***XQ***

**Xatirələrə köçənlər**

# Söz xiridarı, redaktə sərrafı

**İyirmi dörd il – 1995-in payızından 2019-cu ilədək "Xalq qəzeti"nin humanitar siyasət redaksiyasının əməkdaşı olarkən, ilk iki-üç il istisna olmaqla, daim həmin redaksiyanın rəhbəri, avqustun əvvəlində qəfil ölümlə üzləşib, həyatı və çox sevdiyi ədəbiyyat, incəsənət, idman aləmini həmişəlik tərk etmiş İlham Əli oğlu Abbasovla eyni otaqda çalışmışdıq. Əvvəlcə 5-ci mərtəbədə böyük idman salonunu xatırladan 19-cu otaqda, sonra da təmir işləri ilə əlaqədar bizi qəbul edənədək redaksiyanın kitabxanası olmuş 3-cü mərtəbədəki 26-cı otaqda.**



Həmin illərdə mükəmməl hərtərəfli biliyi sayəsində maraqlı söhbətləri ilə kollektivin və tez-tez redaksiyamıza gələrək, İlham müəllimdən öz işləri, yaradıcılığı ilə bağlı məsləhətlər alan keçmiş tələbə yoldaşlarının və dostlarının ona necə böyük hörmət və ehtiramla yanaşdıqlarının şahidi olmuşam. Daim xeyirxahlıq nümunəsi kimi xatırlayacağımız həmkarımdan gördüyüm yaxşılığı mən də unutmayacağam.

Haqqında söhbət açacağım üç məqam yaxşı yadımdadır. Əsasən "Xalq qəzeti" redaksiyasının divarları arasında ərsəyə gətirdiyim iki kitabın hazırlanıb, işıq üzü görməsində İlham Abbasovun da xidməti az olmayıb. Həmin kitabların yaranma tarixçəsini qısaca xatırlatmaq istərdim.

İki yüz nüsxə tirajla çap edilmiş birinci kitab 2010-cu ildə nəşr olunmuşdur. İyirminci əsrdə Azərbaycan idmanının yetirdiyi ən görkəmli şəxsiyyətlərdən biri, yunan-Roma güləşi üzrə məşhur mütəxəssis, Azərbaycan və SSRİ-nin Əməkdar məşqçisi Ehsan Kərimovun güləşdə keçdiyi zəngin yoldan bəhs edən "İdmanda yaşanan şərəfli ömür" kitabını mərhum məşqçinin övladları, o illərdə istefada olan polis kapitanı Qafurun və Azərbaycan Dövlət İqtisad Universitetində "Bank işi" kafedrasının dosenti, iqtisad elmləri namizədi Atiq müəllimin bizə təqdim etdikləri materiallar və fotolar əsasında çap etdirmişdik. Materialların işlənib-hazırlanmasında, fotoların səliqə-səhmana salınıb, səhifələrə paylanmasında və digər məqamlarda İ.Abbasovun tövsiyə və təklifləri köməyimə gəlmişdi.

"Heydər Əliyev və Azərbaycan şahmatının zəfər salnaməsi" adlı ikinci kitab 2018-ci ildə işıq üzü görmüşdür. "Xalq qəzeti"nin nəşri olan və redaksiyanın vəsaiti hesabına çap edilmiş 300 nüsxə tirajdan ibarət kitabın məsləhətçisi həmin illərdə qəzetin baş redaktoru, Əməkdar jurnalist Həsən Həsənov, redaktoru İlham Abbasov, rəyçiləri Azərbaycan Şahmat Federasiyasının vitse-prezidenti, beynəlxalq dərəcəli hakim Faiq Həsənov və Əməkdar jurnalist Qabil Mehdiyevdir.

Kitabda Azərbaycana rəhbərlik etdiyi uzun illər ərzində respublikamızda idmanın, o cümlədən şahmatın inkişafına böyük qayğı və diqqət göstərmiş ulu öndər Heydər Əliyevin 1998-ci ildə imzaladığı sərəncamlardan sonra ölkəmizdə şahmatın daha geniş vüsətlə inkişaf etməsindən, məşhur Azərbaycan şahmatçılarının beynəlxalq yarışlarda qazandıqları zəfərlərdən, kişilərdən ibarət milli komandamız – üçqat Avropa çempionunun dünyanın ən nüfuzlu kollektivlərindən biri kimi əldə etdiyi uğurlardan bəhs olunur.

Azərbaycanda Beynəlxalq Futbol Federasiyasının hakimlər korpusunun Tofiq Bəhramovdan sonra ikinci səlahiyyətli nümayəndəsi olmuş Eldar Əzimzadənin 1998-ci ildə işıq üzü görmüş "Məhəbbətim mənim—futbol" kitabı mənim redaktorluğum ilə çapa hazırlansa da, onun da nəşrində İlham müəllimin köməyi danılmazdır. Yadımdadır, o vaxtlar tez-tez redaksiyamıza baş çəkən E.Əzimzadə özü haqqında yazılmış onlarla məqaləni, neçə-neçə fotonu bizə göstərər, sonra da idarə etdiyi oyunlar haqqında həvəslə şirin söhbətlər açardı. Belə görüşlərdən birində kitab hazırlamaq fikrinə düşdük. Eldar müəllimin sonralar 500 nüsxə tirajla çap etdirdiyi kitabdan fərəh hissi keçirdiyini, əsl zövq aldığını da gördük. Kitab həm də İlham müəllimin dəyərli məsləhətlərinin, söhbətlərdə fəal iştirakının bəhrəsi idi.

İ.Abbasovun redaktorluğu ilə çox sayda kitab çap olunub. O, düz 53 il ərsində "Kommunist" – "Xalq qəzeti"ndə, sözün əsl mənasında, külüng çalmış, bu müddətin də 40 ildən çoxunu eyni bir vəzifədə, həm də qəzet üçün çox məsul olan vəzifədə çalışıb, siyasət şöbəsinə rəhbərlik etmiş hörmətli Telman Heydərovun 232 səhifəlik "Geriyə boylananda" xatirələr kitabının nəşrinə də bir redaktor kimi ürəkdən, yüksək məsuliyyət hissi ilə yanaşmışdır. Bunu İlham müəllimin yazdığı "Ağsaqqal ləyaqəti" başlıqlı ön sözdə qələmə aldığı qeydlər də tam təsdiq edir.

"Xalq qəzeti"nin mədəniyyət şöbəsində çalışmış rəhmətlik Mehdi Mükərrəmoğlunun "Ömrün çarpaz rakursları" kitabının da ilk oxucusu İ.Abbasov olmuşdur. Müəllifin 2007-ci ildə çap etdirdiyi kitabda ömür-günlərini kino sənətinə bağlayan insanlar haqqında, rejissorlar, operatorlar, aktyorların sənət yolu, yaradıcılıq axtarışları barədə materiallar toplanmışdır. Burada onun müasir kinematoqrafla bağlı düşüncələri və iki bədii ssenarisi də yer almışdır. İ. Abbasov məsləhətləri və redaktəsi ilə bu kitaba da öz töhfəsini vermişdir.

Daha iki kitabı xatırlayaq. "Mənim bir dostum vardı…" 2008-ci ildə buraxılmış bu kitabın redaktoru və tərtibçisi İ.Abbasovdur. Kitab ədəbi mühitə yaxşı tanış olan mərhum Məmməd Nazimoğlunun qələmindən çıxan çox dəyərli, ibrətamiz yazılardan və həmkarlarının onun haqqında xatirə qeydlərindən ibarətdir. Redaktor ön sözündə 1990-cı illərin ikinci yarısında və 2000-ci illərin əvvəlində "Xalq qəzeti"ndə baş redaktorun birinci müavini kimi fəaliyyət göstərmiş Məmməd müəllim – təkcə yüksək yaradıcılıq bacarığı, iti qələmi ilə deyil, həm də nəcib insani keyfiyyətləri ilə hamının rəğbətini qazanmış tələbə yoldaşı, həmkarı haqqında sanballı kitabı yüksək peşəkarlıqla ərsəyə gətirmişdir. Təkcə ön sözün birinci abzasına diqqət edək: " Məmməd Nazimoğlu dünyadan dördəlli yapışsaydı, həkimlərin dediklərinə qaydasınca əməl etsəydi, sonun belə yaxında olduğunu əvvəlcədən duya bilsəydi, dünyanın pisliklərini içinə salmasaydı, dərd-sərini bir az üzə çıxarsaydı, həyat enerjisini ətrafa xərclədiyi qədər də özünə saxlasaydı, hamı kimi yaşamağı bacarsaydı, yaşamaq istəsəydi,… yaşayacaqdı".

İ.Abbasov bir müəllim kimi Azərbaycan Dövlət Pedaqoji Universitetində həmkarı olmuş yaxın dostu Mətləb Nağının "Yaşamaq istəyirdim…" kitabının da tərtibçisi və redaktoru olub. Bu iki istedad sahibinin tez-tez bizim redaksiyada birgə fəaliyyətinin, maraqlı müzakirəsinin, çılğın mübahisələrinin dəfələrlə şahidi olmuşdum. Dünyadan vaxtsız köçmüş görkəmli şair və ədəbiyyatşünas alim M.Nağının unudulmaz xatirəsinə həsr edilən kitabda toplanmış lirik və satirik şeirlər, tərcümələr, elmi məqalə və müsahibələr, onun poeziyasının müxtəlif cəhətlərini əks etdirən araşdırmalar, haqqında yazılmış xatirələr, həyatının müxtəlif anlarını əbədiləşdirən fotoşəkillər müəllifin zəngin və çoxcəhətli yaradıcılığı, qısa, amma mənalı ömür yolu haqqında dolğun təsəvvür yaradır.

Xatırladığımız kitablar xatirələrdə tanınmış ədəbiyyatşünas-publisist kimi yaşayacaq İlham Abbasovun redaktor, bəzi hallarda isə tərtibçi-redaktor kimi ərsəyə gətirdiyi kitabların yalnız kiçik bir qismidir. Onun təmənnasız köməkliyi və redaktorluğu ilə nəşr olunmuş kitabların sayı kifayət qədərdir. Bu isə yüksək istedadla yanaşı, həm də xeyirxahlıq nümunəsidir.

Ruhu şad olsun!

İlham Abbasovun 25 ildən də artıq müddətdə əməkdaşı olduğu "Xalq qəzeti"nin 105 yaşının tamam olduğu ildə və ayda, avqustda qələmi yerə qoyub əbədiyyətə qovuşması, görünür, taleyin hökmü və ya alın yazısıdır…

***Oqtay BAYRAMOV,***
***Əməkdar jurnalist***

# Tanınmış media professoru dünyasını dəyişib

**Azərbaycan jurnalistikasına və milli mətbuat tarixi elminə ağır itki üz verib. Avqustun 25-də tarix elmləri doktoru, Bakı Dövlət Universiteti milli mətbuat tarixi kafedrasının professoru Nəsiman Qara oğlu Yaqublu ömrünün 62-ci ilində avtomobil qəzasında həlak olub.**

Milli Məclisə növbədənkənar seçkilərdə 125 saylı Zəngilan–Qubadlı seçki dairəsindən deputatlığa namizəd Nəsiman Yaqublu Zəngilan seçiciləri ilə görüşdən qayıdarkən Cəbrayıl rayonu ərazisində idarə etdiyi avtomobildə qəzaya düşüb, aldığı ağır xəsarətlərdən həyatını itirib.



Dünən mərhumla vida mərasimində onun milli mətbuat və Azərbaycan Xalq Cümhuriyyəti tarixinin tədqiqi ilə bağlı çoxillik fəaliyyəti, jurnalist kadrları hazırlığına verdiyi töhfələr, aktual mövzularda geniş publisist yaradıcılığı qədirbilənliklə vurğulanıb. Tanınmış ziyalılar və dostları istedadlı alim-pedaqoqun dünyasının faciəli surətdə dəyişməsinin elm, təhsil və mediamız üçün ağır itki olduğunu bildiriblər, xatirəsinə dərin ehtiram ifadə ediblər. Nəsiman Yaqublu doğma və yaxınlarının iştirakı ilə Bakının Zabrat qəbristanlığında torpağa tapşırılıb.

Ölkə mediasında yayılmış hüznlü xəbərlərdə və nekroloqlarda Nəsiman Yaqublunun mənalı ömür yolu, zəngin elmi-publisistik yaradıcılığı və səmərəli ictimai fəaliyyəti əksini tapıb.

Nəsiman Qara oğlu Yaqublu 1962-ci il fevral ayının 22-də Zəngilan rayonunda anadan olub, burada orta təhsil alıb. 1981-ci ildə Bakı Dövlət Universitetinin jurnalistika fakültəsində başladığı ali thsili 1986-cı ildə Sankt-Peterburq Universitetinin jurnalistika fakültəsində başa vurub. "Yazıçı" nəşriyyatında redaktor vəzifəsində çalışıb. Qarabağ savaşında könüllü olaraq hərbi xidmətə başlayıb, "Azərbaycan ordusu" qəzetinin baş redaktoru vəzifəsində işləyib.

1993-cü ildən Bakı Dövlət Universitetinin jurnalistika fakültəsində baş müəllim kimi fəaliyyətə başlayan Nəsiman Yaqublu 2001-ci ildə "Azərbaycan milli istiqlal mübarizəsi və Məhəmməd Əmin Rəsulzadə" mövzusunda namizədlik, 2014-cü ildə "Azərbaycan milli istiqlal mücadiləsi və mühacirət mətbuatı" mövzusunda doktorluq dissertasiyaları müdafiə edib. Çoxsaylı elmi, publisitik məqalənin, milli irslə bağlı bir sıra kitab və toplunun müəllifidir. Yerli və beynəlxalq konfranslarda milli istiqlal tarixi və mühacirət mətbuatı mövzusunda silsilə məruzələrlə çıxış edib. Əsərləri xaricdə də nəşr edilib.

"Heydər Əliyevin 100 illiyi" və "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi" yubiley medalları ilə təltif edilib. "Hacı Zeynalabdin Tağıyev" və "Həsən bəy Zərdabi" mükafatlarına layiq görülüb.

**"Xalq qəzeti"**

# Azərbaycan–Tacikistan aqrar əməkdaşlığı



**Bakıda Azərbaycan və Tacikistanın kənd təsərrüfatı nazirlikləri arasında Azərbaycan–Tacikistan İşçi Qrupunun 2-ci iclası keçirilib. İclasda Azərbaycanın kənd təsərrüfatı nazirinin müavini Elçin Zeynalov, Tacikistanın kənd təsərrüfatı nazirinin müavini Niqina Anvari, iki ölkənin müvafiq strukturları və aqrar sahədə fəaliyyət göstərən müəssisələrin nümayəndələri iştirak ediblər.**

İclasda Azərbaycan və Tacikistan arasında kənd təsərrüfatında mövcud vəziyyətə toxunulub. Tərəflər Azərbaycan ilə Tacikistan arasında iqtisadiyyatın bütün sahələrində olduğu kimi, kənd təsərrüfatı sahəsində də əlaqələrin inkişaf etdiyini vurğulayıblar.

İşçi Qrupun iclasında iki ölkə arasında kənd təsərrüfatı və qida məhsullarının ticarət dövriyyəsinin artırılması, aqrar sahədə ən müasir texnologiyaların transferi, rəqəmsallaşma, elmi-tədqiqat və təhsil sahələrində təcrübə proqramlarının həyata keçirilməsi, aqrar sığorta, üzümçülük sahəsində əməkdaşlıq və digər məsələlər müzakirə olunub.

**XQ**

**26 Avqust Laçın Şəhəri Günüdür**

# Azad dağların xoşbəxtlik simfoniyası

**Dünən Mədəniyyət Nazirliyinin, Azərbaycan Respublikası Prezidentinin Laçın rayonunda xüsusi nümayəndəliyinin təşkilatçılığı, "Bakı Abadlıq Xidməti" MMC-nin dəstəyi ilə Laçın Şəhəri Günü növbəti dəfə təntənə ilə qeyd olundu. Laçın şəhərinin işğaldan azad edilib dirçəldilməsinin ikinci ildönümü münasibətilə gün ərzində rəngarəng bayram tədbirləri keçirildi.**




Xatırladaq ki, ötən ildən Azərbaycanın əlamətdar günləri təqviminə el şənliyi kimi daxil olan 26 Avqust Laçın Şəhəri Günü Qarabağ fatehi Prezident İlham Əliyevin "Azərbaycan Respublikasının işğaldan azad edilmiş əraziləri üzrə şəhər günlərinin təsis edilməsi haqqında" 2023-cü il 31 iyul tarixli sərəncamı ilə təsis olunub.

Builki Laçın günü "Lacinema" kinoteatrında "Laçınım mənim" rəsm sərgisi və "Zamanın qanadlarında – Laçın" fotosərgisinə baxışla start götürdü. Sonra "azad şəhərin sakinləri və bayramda iştirak edən qonaqlar "Şuşa, sən azadsan!" sənədli filminə baxdılar.

Kinoteatrdakı toplantıda bildirildi ki, indiyədək Laçın şəhərinə 2100-ə yaxın sakin köçürülüb, 700-dən çox tikili bərpa olunub. Burada bütün ümumi infrastrukturun qurulması - yolların tikintisi, sosial, mədəni, əyləncə, istirahət, turizm zonalarının bərpası, abadlaşdırma işləri kompleks şəkildə aparılır. Ölkədə çoxları arzulayır ki, Laçının gözəlliyini, deyilənlərin həqiqətən doğru olub-olmadığını görmək üçün bu dağlar yurduna gəlsin.

Bu gün Laçın arzular, sevinclər şəhərinə çevrilib. Gün ərzində bir-birini əvəz edən və gecədən xeyli keçənədək davam edən şənliklər bu gerçəkliyin nümayişinə çevrildi, hamıya yüksək coşğu və unudulmaz bir təntənə yaşatdı.

Tanınmış laçınlı şair-tədqiqatçı İlham Qəhrəmanın yeni nəşr olunan "Laçın - 100" ədəbi antologiyası kitabının təqdimatından sonra yerli laçınlı şairlərin və musiqiçilərinin çıxışlarından ibarət "Poeziya dəqiqələri" keçirildi.

"Lacinema" kinoteatrında "Oğurlanmış bahar", "Tıq-tıq və dostları möcüzələr axtarışında" və "Mənim balaca Şahzadəm" animasiya filmlərinin nümayişi isə balaca laçınlılara xoş əhval gətirdi.

Şəhərin fərqli məkanlarında keçirilən tədbirlərin bir çoxunda baş rolda Laçının balaca sakinləri olan uşaqlara meydan verildi. Onların ifa etdikləri vətənpərvərlik ruhlu mahnılar azad dağların qoynunda xoşbəxtlik simfoniyası kimi yayıldı.

"Seyrangah"da müstəqil "Oyuq" uşaq teatrı milli nağıl qəhrəmanlarımızı canlandıran səhnəciklər göstərdilər. Azərbaycanın uşaq kinematoqrafik nümunələrindən ibarət konsert proqramı isə böyüklərin də marağına səbəb oldu. Şuşa Dövlət Musiqili Dram Teatrının təqdimatında "Qırmızı papaq" tamaşası laçınlılara bayram töhfəsi oldu.

Laçın günü Həkəri çayının sahilində qurulmuş əsas səhnədə şəhər böyük bayram konserti ilə davam etdi. Əvvəlcə Prezident İlham Əliyevin Laçın şəhərinə səfəri və şəhər sakinləri ilə görüşünün videoxronikası nümayiş etdirildi. Musiqi proqramında Xalq artisti Faiq Ağayev, Əməkdar artistlər Ehtiram Hüseynov, Lalə Məmmədova, İlkin Əhmədov, Rəşad İlyasov, Elza Seyidcahan, Günel Şeyxova, ifaçılar Aşıq Ramin, Araz Hümbətli, Kamilə Nəbiyeva, Fuad Musayev, Könül Məmmədli, Vüsal Hacıyev, Murad Arif, həmçinin "Amarok" qrupu, Fikrət Əmirov adına Əməkdar kollektiv Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblı və "Laçın" muğam qrupu çıxış etdilər.

Bütün günü çal-çağırla süslənmiş, yurd sevgisi ilə aşılanmış şənliklər Laçının yeni xoşbəxt günlərinə yüksək bir təntənə gətirdi.

Şəhər günü ulduzlu səma altında atəşfəşanlıqla sona çatdı.

**Tahir AYDINOĞLU**
**XQ**

# Pakistanda dəhşətli terror

**Pakistanın Bəlucistan əyalətindəki Musaxail dairəsində terrorçular magistral yolu kəsərək əvvəl avtobus və yük maşınlarında olanların sənədlərini yoxlayıb, sonra isə onlara silahla hücum ediblər.**

Pakistan mətbuatının yaydığı məlumata görə hücum nəticəsində Pəncabdan olan 23 adam həyatını itirib, yaralıların olduğu bildirilir.

Pakistan Prezidenti Asif Əli Zərdari və baş nazir Şahbaz Şərif terror aktını kəskin pisləyib, bundan sonra da ölkə ərazisində terrorçularla mübarizənin ön planda olacağını bildiriblər. Bəlucistan əyalətinin baş naziri Sarfaraz Buqti də terror aktını pisləyib, qeyd edib ki, tettorçular qısa müddətdə tutulacaq.

Xatırladırıq ki, son vaxtlarda Pakistanın Əfqanıstanla həmsərhəd olan Xayber-Paxtunxva və Bəlucistan əyalətlərində terrorçular burada yaşayan etnik puştunların və bəluclarin hüquqlarının qorunması adı ilə tez-tez bu kimi terror hadisələri törədirlər.

**Qulu KƏNGƏRLİ,**
**XQ-nin xüsusi müxbiri**
**İslamabad**

"Bakı Beynəlxalq Dəniz Ticarət Limanı"
Qapalı Səhmdar Cəmiyyəti

*Data mərkəzinin və inzibati binanın şəbəkə və şəbəkə təhlükəsizliyi cihazlarının lisenziyalarının yenilənməsi xidmətinin satın alınması üçün*

MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.portofbaku.com səhifəsinə daxil olmaqla elanlar bölməsindən ələvə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Zərflərin təqdim edilməsi üçün son tarix 11 sentyabr 2024-cü il saat 17.00-dəkdir. Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.
Əlaqə telefonu– +994 12 599 00 03 (daxili 3706).
Ünvan– AZ1010, Bakı şəhəri, Nəsimi rayonu, Ü.Hacıbəyov küçəsi 140.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 183 (30587) 27 avqust 2024-cü il, çərşənbə axşamı

## Uşaq güləşçilərimizin uğuru

**İordaniyanın paytaxtı Ammanda keçirilən U-17 Dünya çempionatı başa çatıb.**




Yarışın son günündə sərbəst güləşçilərimiz 1 gümüş və 1 bürünc medal qazanıblar.

Rəvan Həsənzadə (45 kq) gürcüstanlı Levan Nozadzeyə (tuş), monqolustanlı Oçirxu Badarxa (6:3) və belaruslu Kiril Nikitsikə (12:2) qalib gələrək yarımfinala yüksəlib. Finalın bir addımlığında iranlı Amirabbas Ramezanibazarmahallehə 2:4 hesabıyla məğlub olan Rəvan bürünc medal uğrunda görüşdə qazaxıstanlı Bekzat Amangəldini "tuş"la üstələyərək fəxri kürsünün üçüncü pilləsinə yüksəlib.

Hüseyn İsmayılov (60 kq) britaniyalı Danuş Jovkara (4:1), iranlı Fərhad Xateriyə (3:2) və ermənistanlı Hayk Avanesyana (4:2) qalib gələrək finala yüksəlib. Son görüşdə qırğızıstanlı Omurbek Uluya 1:5 hesabıyla məğlub olan Hüseyn gümüş medalı boynundan asıb.

Beləliklə, millimiz Dünya çempionatını 1 gümüş və 3 bürünc medalla başa vurub.

Xatırladaq ki, ötən gün Hüseyn Hüseynovla (55 kq) Muxamad Qantemirov (110 kq) dünya üçüncüsü olublar. Yığmamız 77 xalla komanda hesabında ilk "5-liy"i qapayıb.

## Anna Skidanın Polşa gümüşü

**Kamila Skolimovska Memorialında Azərbaycan atleti Anna Skidan uğurla çıxış edib.**




Polşanın Xojuv şəhərində Brilyant Liqa çərçivəsində keçirilən çəkicatma yarışında ölkəmizi təmsil edən idmançının göstəricisi 71.82 metr olub.

Bu nəticə ilə Anna Skidan gümüş medal qazanıb.

## Onur Quluzadənin Fransa bürüncü




**Azərbaycanın stolüstü tennisçisi Onur Quluzadə Fransanın Şiltiqheym şəhərində təşkil olunan "Euro Mini Champs" yarışında medal qazanıb.**

2011–2012-ci il təvəllüdlü 128 idmançı arasında yarışan tennisçi təsnifat mərhələlərini inamla adlayıb. 1/16 finalda fransalı, 1/8 finalda bolqarıstanlı, 1/4 finalda digər fransalı rəqibinə qalib gələn idmançı yarımfinalda rumıniyalı rəqibinə uduzsa da, 3-cü yer uğrunda görüşdə Çexiya təmsilçisini üstələyərək yarışın bürünc medalına layiq görülüb.

***L.QURBANOVA***
***XQ***







*Xalq artisti Ənvər Həsənov:*

# Onun kiminsə Nigarı olmasını istəmirdim...

### *Doğum günü yol qəzasında həlak olan aktrisa yuxusunda nə görübmüş?*

**O müdhiş günün axşamı televiziyanın xəbərlər proqramında belə bir məlumat oxundu: "Nabran–Bakı yolunun Xaçmaz rayonundan keçən hissəsində ölümlə nəticələnən yol-nəqliyyat hadisəsi baş verib. Ənvər Həsənovun idarə etdiyi avtomobil yoldan çıxaraq ağaca çırpılıb. Nəticədə sərnişin Mömünat Qurbanova hadisə yerindəcə keçinib".**



Sabahından soraq ala bilmədiyimiz ömür, sürprizlərlə dolu həyat bəzən çox amansız olur. Ətrafımızda ömrü yarıda qırılmış, cavan ikən dünyadan köçmüş insanlar az olmayıb. Onların arasında hamımızın tanıdıqları da var.

İnsan həyatı sanki epiloqu bəlli film kimidir. Amma ömrün son dayanacağına kimin nə vaxt və necə çatacağı Uca Yaradandan savayı heç kəsə bəlli deyil. Sizə haqqında söhbət açacağımız aktrisa da qısa ömür yolunda öz finalına doğru iti addımlarla irəliləyib ki, ona tez çatsın....

### Beş uşağın ərköyünü

Tamaşaçıların "Dərviş Parisi partladır" filmində Şərəfnisə, "Qaçaq Nəbi"də Həcər kimi tanıdıqları aktrisa Mömünat Qurbanova 1958-ci il dekabrın 8-də Buzovnada sadə bir ailədə dünyaya gəlmişdi. Beş uşağın ərköyünü idi. Ona görə də orta məktəbdə komsomol fəalı, idman dərnəklərinin qabaqcılı olan Mömünat məktəbi bitirib sənədlərini indiki Mədəniyyət və İncəsənət Universitetinə verəndə doğmaları onun bu seçimini ərköyünlük kimi qəbul etmişdilər.

Amma Mömünatın bu "ərköyünlüyü" heç də ötəri deyildi. Hələ məktəbli ikən "Yeddi oğul istərəm" filminə o qədər baxmışdı ki, onu əzbər bilirdi. Cəlalın (Ənvər Həsənovun–red.) şəklini otağının divarına vurmuşdu. Hərdən bu portretlə söhbət də edirdi. Bir dəfə söhbət əsnasında ona söz vermişdi ki, səninlə birlikdə filmə çəkilmək üçün aktrisa olacağam. Ənvər Həsənov haqqında mətbuatda yazılan məqalələri topladığı qovluq Mömünatın kitab dolabında layiqli yerdə dururdu.

İllər keçəcək və Mömünat Qurbanova Ənvər Həsənovun evinə həmin qovluqla gəlin köçəcəkdi. Amma hələ buna illər qalmışdı. Mömünat institutun aşağı kurslarında oxuyur, Ənvər isə ardıcıl olaraq filmlərə çəkilirdi.

### "Çəkiliş başa çatar-çatmaz nişanlandıq"

1977-ci ildə Kamil Rüstəmbəyov və Şamil Mahmudbəyov "Dərviş Parisi partladır" filminə kastinqlər keçirirdi. Tələbə Mömünat Qurbanova eşidir ki, filmdə Şahbaz bəy roluna Ənvər Həsənov çəkiləcək. Sınaq çəkilişlərində iştirak etmək üçün kinostudiyaya gəlir. Heç özü də bilmir ki, hansı rolun sınaq çəkilişində iştirak edəcək, sadəcə rejissorun gözünə görünmək istəyirdi. Tələbələrin arasında Mömünat Qurbanova Kamil Rüstəmbəyovun sərraf rejissor gözündən yayınmır. Ənvəri yanına çağırıb soruşur: "Bax gör, bundan sənə Şərəfnisə olar?" Ənvər "elə olar!" – yarızarafat cavab verir. Sınaq çəkilişlərindən Şərəfnisə roluna ən layiqli namizəd kimi Mömünat Qurbanova qalib çıxır.

"Münasibətlərimiz elə bu filmlə də başladı. Çəkilişlər başa çatar-çatmaz nişanlandıq",– deyə Ənvər bildirir.

1978-ci ildə institutu bitirən Mömünat Qurbanovaya azad təyinat verilir, çünki o, artıq tanınmış aktyor Ənvər Həsənovun həyat yoldaşı idi. Ənvər isə "Azərbaycanfilm"də çalışırdı.

### "Onu kinoda yox, evdə görmək istəyirdim"

"İstəyirdim işdən evə qayıdanda yuvamı isti, Mömünatı uşaqla, mətbəxlə məşğul olan görüm. Düzü, bir az da qısqanırdım. O, mənim həyatımın Şərəfnisəsi olmuşdu, kiminsə Şərəfnisəsi, Nigarı olmasını qəbul edə bilmirdim".

İllər ötür və Ənvərin xatirinə aktrisalıqdan vaz keçən Mömünat xanım daha bir filmə dəvət alır. Bu, dəvət deyildi, tələb idi. Ailənin dostu, rejissor Əbdül Mahmudov Qaçaq Nəbidən bəhs edən "Atları yəhərləyin" filmində Həcər rolunda Mömünatdan başqa heç bir aktrisanı təsəvvür edə bilmirdi.

Ənvər Həsənov: "Mömünatın mərd, ağıllı, amiranə görkəmi vardı. Nigar roluna ondan başqa namizəd yox idi. Həm ağıllı, həm də çox şən olması Mömünatı hamıya sevdirmişdi. Onun sayəsində ailəmiz çoxlu dost qazanmışdı. İştirak etdiyi məclislər də şən keçirdi. Çəkiliş meydançası Mömünatla daha maraqlı olurdu. Həsən Turabovla Əbdül Mahmudov dedilər ki, Mömünatın Nigar obrazına çəkilməsinə razı olmasan, onu qaçırıb sənsiz çəkəcəyik. Əlacım kəsildi, razılaşdım. Nəbini Həsənağa Turabov oynasa da, Həcərlə olan məhrəm səhnələrdə özüm çəkilmişəm. Qrimi elə edirdilər ki, hiss olunmasın. Həcərin at çapmaq səhnələrini də Mömünatın təhlükəsizliyi üçün özüm oynayırdım. Mənim təcrübəm var idi, məharətlə at çapırdım. Bir dəfə çəkiliş vaxtı həvəslənib özü mindi ata, at da onu götürüb baş alıb getdi. Yaxşı ki, atın qaçışının qabağını divar kəsdi. Onda Mömünata möhkəm acığım tutdu, elə bildim itirdim onu. Ona bir şey olsa, nə edəcəyimi təsəvvürümə belə gətirmirdim".

Mömünat Qurbanova cəmi üç filmə çəkilib, üçündə də həyat yoldaşı ilə birlikdə. Üçüncü film kommersiya xarakterli olub, ekranlara çıxmayıb. Ənvər Həsənov deyir ki, indi sevinirəm yaxşı ki, üç filmə çəkilib, tarixdə qalacaq. Aktrisalıqdan uzaqlaşandan sonra Mömünat İncəsənət Muzeyində elmi işçi kimi çalışırdı.

### Qəza yolda haqladı...

2008-ci il dekabrın 8-i Mömünat xanımın 50 illik yubileyi münasibətilə dostları onları Nabrana dəvət edirlər. Ailə razılaşır, amma yola çıxmaq vədəsi çatanda yubilyar nədənsə tərəddüd edir. Mömünat gecə qəribə yuxu görüb, əhvalı pozulubmuş. Amma bunu Ənvərə deməyib.

Ənvər müəllim tüfəng əhvalatını danışanda başımızın tükü biz-biz oldu:

– Bir gün əvvəl özünə dublyonka almışdı, evə gələndən sonra nədənsə xoşuna gəlmədi. Dedi ki, səhər aparıb dəyişəcəyəm bunu. Səhər dostlar gəldilər bizi götürməyə. Dedim, Mömünat, dostlar aşağıda maşında gözləyirlər, gedək. Dedi ki, Ənvər, sən get, mənim nəsə həvəsim yoxdur. Dedim, ay qız, sənin yubileyindir, dostlardan ayıbdır, gedək. Qayıtdı ki, əvəzimdən üzrxahlıq edərsən, mən gedim bu dublyonkanı dəyişim, sonra gec olar, dəyişməzlər. Gördüm israr edir, razılaşdım. Keçib yan otaqdan ov tüfəngimi götürdüm ki, Nabran meşəsidi də, birdən ov düşər könlümüzə. Mömünat əlimdə tüfəngi görən kimi cəld ayağa qalxdı ki, mən də gedirəm. Kaş tüfəngi götürməyəydim. O da ov həvəskarı idi, dedi ki, sən gedib mənsiz ov edəcəksən, mənsə burda qalacam? Gəlirəm! Getdik, Nabranda çox maraqlı məclisimiz oldu. Qayıdanda maşını dostumuz sürürdü. Arada onu yuxu basdığından məcbur olub sükan arxasına mən keçirdim. Mömünat mənim arxamda oturub, dostum qabaqda, xanımı da onun arxasında. Maşını yavaş sürürdüm, sonra ekspert də müəyyən etdi ki, həmin sürətlə yer buz olsa belə, maşın aşa bilməzdi, arxa təkərin altına daş düşüb, ondan aşıb. Qəfildən yola bir it çıxdı, sükanı kəskin sağa döndərməli oldum. Nə oldu bilmirəm, yığışdıra bilmədim, arxa qapı, Mömünatın oturduğu tərəf ağaca çırpıldı. Ağzını açıb bir kəlmə deyə bilmədi...

** Aktrisa 50 yaşına açılacaq o gecə yuxusunda nə görmüşdü? Ona qarşıdakı təhlükəni andıran letargik mesaj nə imiş? Tüfəng, it, yoxsa ağac? Bəlkə, elə üçünü bir yerdə görüb? Bəlkə, fikrini qəfil dəyişməklə o səfərdə kiminsə həyatını xilas edib? Bunu bilmirik. Çünki Mömünat bu sualların cavabı ola biləcək qorxulu yuxusunu nə ömür-gün yoldaşına danışıb, nə də bizim üçün güman və ehtimallardan savayı nəsə buraxıb...*

Bu sözləri deyəndə Xalq artistinin gözləri dolur: "Üstündən 16 il keçib, indiyə kimi özümə gələ bilmirəm. Yaxşı ki, qızım, nəvəm var, onlara görə yaşamalıyam".

Bu da həyatdan nakam getmiş aktrisa Mömünat Qurbanovanın ömür hekayəti. Qismətində dünyaya gəldiyi gün, 50 yaşında ona "əlvida!" demək var imiş. On gün bundan əvvəl 74 yaşı tamam olmuş Ənvər Həsənovun isə taleyinə sual dolu "bəlkə"lərlə, "kaş"larla yaşamaq acısı düşüb. Təsəllisi Mömünat əmanəti qızı Aytən, nəvəsi Murad, bir də bərabər çəkildikləri filmlərdir…

***Ramilə QURBANLI***
***XQ***

## Abşeronda külək, Aranda isti, dağlarda yağış və duman

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, avqustun 27-də Bakıda və Abşeron yarımadasında dəyişkən buludlu olacaq.**

Əsasən yağmursuz keçəcək. Arabir güclənən şimal-qərb küləyi əsəcək, gündüz şimal-şərq küləyi ilə əvəz olunacaq. Gecə 20-24°, gündüz 28-33° isti olacaq. Atmosfer təzyiqi 757 mm civə sütunundan 760 mm civə sütununa yüksələcək, nisbi rütubət gecə 65-75, gündüz 40-50 faiz olacaq.

Abşeron çimərliklərində dəniz suyunun temperaturu: Şimal çimərliklərində: (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zuğulba) 25-26° isti, Cənub çimərliklərində: (Türkan, Hövsan, Sahil, Şıx) 26-27° isti olacaq.

Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Gecə və səhər bəzi dağlıq ərazilərdə zəif duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 20-25°, gündüz 33-38°, dağlarda gecə 11-16°, gündüz 20-25° isti olacaq.

**Q. QASIMOV**
**XQ**

***2009-cu ildə DƏDRX tərəfindən Rzayev Elnur Səxavət oğlunun adına verilmiş 3,0 hektar torpaq sahəsinin MH seriyalı, 0187080 nömrəli çıxarışı itdiyi üçün etibarsız sayılır.***

**ALLAH RƏHMƏT ELƏSİN**

Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının kollektivi metodika və xüsusi pedaqoji hazırlıq kafedrasının müdiri, professor Elnarə Məmmədovaya atası, əməkdar mühəndis, "Şöhrət" ordenli

**LİTVİN İBİŞ OĞLU ABASOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

"Xalq qəzeti"nin kollektivi tanınmış tədqiqatçı-publisist, Bakı Dövlət Universiteti milli mətbuat tarixi kafedrasının professoru

**NƏSİMAN YAQUBLUNUN**

faciəli vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Bakı Dövlət Universiteti jurnalistika fakültəsinin kollektivi tarix elmləri doktoru, milli mətbuat tarixi kafedrasının professoru

**NƏSİMAN YAQUBLUNUN**

faciəli vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3686
SİFARİŞ 1868
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Məsaim ABDULLAYEV

Çapa imzalanmışdır 00:00